# ZAHİD XƏLİL

# ƏSƏRLƏRİ

# I

*Uşaqlar üçün şeirlər*

Bakı — 2008

TƏRTİB EDƏN:
**Şəlalə Xəlil (Nəbiyeva)**
*Pedaqoji elmləri namizədi*
Ön sözün müəllifi:
**Füzuli Əsgərli**
*Filologiya elmləri namizədi, dosent.*
Redaktoru:
**Vaqif Əliyev**
*Filologiya elmləri namizədi, dosent*
Bilgisayar tərtibi:
**Sevinc Hüseynova**
Kompüterdə yazanı:
Gülnar İbrahimova

$Z\frac{194719550708}{1820050508(Ə)08}-2008$ ADPU

# ZAHİD XƏLİLİN HƏYATI VƏ YARADICILIĞI

*Taleyini bədii söz sənətinə həsr edən sənətkar həyatı və yaradıcılığını qələmə almaq, onun yaradıcılıq laboratoriyasını başdan-ayağa araşdırmaq həm çətin, həm də böyük məsuliyyət tələb edir. Əgər həmin qələm sahibinin yaradıcılıq ampluası çoxşaxəlidirsə, çoxjanrlıdırsa, çəkilən çətinliyin, məsuliyyətin dərəcə həddi bir neçə qat artır. Onu da qeyd etsək ki, bədii yaradıcılıq bütövlükdə sənətkar ixtirasıdır, novatorluqdur, poetik kəşflər sistemidir, obrazlar dünyasıdır, söz demək bir qədər də mümkünsüz olur. Əgər uşaq şair-yazıçısından söz açmalı olsaq, onun orijinal bədii yaradıcılığından danışsaq, üslubu və poetik bədii dili və sair haqqında fikir yürütməli olsaq, bu mürəkkəblik daha çox üzə çıxar. Yenicə dünyaya göz açmış körpə və uşaqları söz sehrinə salaraq, poetik təfəkkürün gücü ilə onların estetik-mənəvi tərbiyəsini formalaşdıran, bədii zövqünü zənginləşdirən bir sənətkarın meydana gəlməsi üçün gərgin zəhmətə qatlaşmaq tələb olunur.*

*Yaradıcılığından söz açdığımız bu qələm sahibi öz poetik dünyası ilə bədii təfəkkür sferasında gündən-günə püxtələşən, üslubunu sabitləşdirən, təkrarolunmaz obrazlar yaradan Zahid Xəlildir.*

*Z.Xəlil (Zahid Abdulla oğlu Xəlilov) 1942-ci il martın 20-də Yevlax şəhərində anadan olmuşdur. O, orta təhsilini Yevlax şəhərindəki M.Ə.Sabir adına 2 nömrəli məktəbdə almışdır. Ilk dəfə altıncı sinifdə olarkən şeir yazmışdır. Onuncu sinifdə oxuyarkən «Vətənim» adlı ilk mətbu şeiri çap olunmuşdur.*

*Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini müvəffəqiyyətlə bitirən Z.Xəlil sonralar müxtəlif mətbuat orqanlarında ədəbi işçi, məsul katib, redaktor vəzifələrində çalışmışdır. Lakin işlədiyi müddət ərzində bədii və elmi yaradıcılıqla müntəzəm məşğul olmuş, 1969-cu ildə «Uçan çıraqlar» adlı ilk şeirlər kitabı çap olunmuşdur. Ilhamının tüğyan etdiyi bir vaxtda, onun ilk yaradıcılıq nümunəsi Azərbaycan uşaq ədəbiyyatına yeni nəfəs verəcək bir qələm sahibinin gəlişindən xəbər verirdi. Uşaq dünyasını, real həyat hadisələrini səbrlə, müdrikcəsinə müşahidə edən, tükənməz şairlik potensialına güvənərək müşahidələrini poetik təsvirlərdə canlandıran və həmişəyaşar obrazlara çevirən müəllif bədii axtarışları ilə ucsuz-bucaqsız söz və ifadələr okeanı yaratdı, yeni ədəbi nəslin öncüllərindən birinə çevrildi.*

*Bədii yaradıcılığa və filologiya elmi sahəsinə paralel olaraq nüfuz edən bu gənc öz potensial imkanlarından məharətlə istifadə edərək 1974-cü ildə namizədlik dissertasiyası müdafiə etdi. Onun «Azərbaycan uşaq poeziyası və folklor» mövzusundakı elmi işi folklorun peşəkar yazılı bədii söz sənəti ilə bağlılıq tellərini daha dərindən üzə çıxartdı. Bədii fikrin, məcaz növləri və poetik fiqurları folklor nümunələrdə axtaran və araşdıran gənc alim-şair bitkin elmi əsər ərsəyə gətirdi.*

*Şifahi ədəbiyyatla yazılı ədəbiyyatın fərqindəki incəliyə nəzər yetirən Z.Xəlil belə bir fikir irəli sürdü ki, yazılı ədəbiyyatda verilən poetik obrazlılıq sənətkarı sənətkardan fərqləndirmək imkanlarını özündə saxlayır. Burada fərdi istedad və fərdi bədii üslub həlledici rol oynayır. Uşaq şeirinin hər misrasına, hər qafiyəsinə poetik kəşf kimi baxan müəllif seçim etdiyi şairlərin yaradıcılığına nüfuz etmiş, bu sahədə dünyəviliyin, milli koloritlilik keyfiyyətlərinin vacibliyini önə çəkmişdir.*

*Bu gün də Azərbaycan Dövlət Pedaqoji Universitetinin auditoriyalarında tələbələrə mühazirələr oxuyan, ədəbiyyatın nəzəri və praktik məsələlərindən söhbət açan Z.Xəlil bədii yaradıcılıq sirlərini öyrənmək istiqamətində yorulmadan tədqiqatlar aparır, poetik fikirlər sistemini araşdırır. Həmçinin, istedadlı alim-yazıçı çoxsaylı müəllim kollektivinə malik olan kafedraya rəhbərlik edir. Ömrünün ən qiymətli illərini müqəddəs işlərə sərf edən, üç sahənin sintezindən ərsəyə gələn, püxtələşmiş qələm sahibinə çevrilən Z.Xəlilin tükənməz enerjiyə malik olması onun sonrakı yaradıcılıq imkanlarının genişliyindən və əldə edəcəyi uğurlardan xəbər verir.*

*Bir qələm sahibi kimi Z.Xəlil yaradıcılığının sirri olduqca sadədir. O, sadəcə olaraq dövrün elmi sferasını dərindən duyur, müasir ədəbi prosesin məfkurə istiqamətini, mənəvi-estetik dəyərini, öz oxucularının mənəvi tələbatını real şəkildə dərk edir. Vətənə məhəbbət hissləri aşılayan, şüuru formalaşdıran əsərlər yazmağı daha üstün tutur, uşaqlara maraqlı görünən, həyat müşahidələrindən doğan mövzuları ədəbiyyata gətirir və orijinal obrazlar silsiləsi yaratmağa çalışır. O, bu gün də yaxşı bilir ki, yalnız keçilməyən ədəbi cığırla Azərbaycan uşaq ədəbiyyatının gələcək inkişafına zəmanət vermək olar.*

*«Torağaylar oxuyur» şeirlər kitabının və «Ballıca» adlı*

*ilk uşaq nəsrinin çapından sonra Z.Xəlil yaradıcılığına maraq daha da artdı. Ədəbi tənqid onun poeziya və nəsrini təhlilə cəlb edərək öz yüksək qiymətini verdi. Tənqidçi-alim, akademik Bəkir Nəbiyev «Uşaq ədəbiyyatımız müasir mərhələdə» adlı məqaləsində Z.Xəlil yaradıcılığından bəhs edərək yazır: «Hələ «Torağaylar oxuyur» kitabındakı:*

*Bax, bu ağac gilasdı,*
*Yaz gəldi, bu ağacın*
*Budağından gül asdı, -*

*qəbildən olan şeirləri ilə balacaları riqqətə gətirən Zahid Xəlil «Ballıca» adlı yeni kitabındakı nağıl və hekayələrlə onları bir daha sevindirdi. Bu əsərlər uşaqlar üçün «Məlik Məmməd» və «Cırtdan» kimi, Andersen və Qrimm qardaşlarının nağılları kimi cazibədar və ürəkaçandır».*

*Bu deyilən fikir Z.Xəlilin bədii yaradıcılığına yüksək qiymət kimi dəyərləndirilməlidir. Çünki onun dünya uşaq ədəbiyyatının inkişafında özünəməxsus yeri olan alman alim-filoloqları, folklorçu yazıçıları Yakob (1785-1863) və Vilhelm (1786-1859) Qrimm qardaşları və dünyanın ən tanınmış nağılçısı, «nağıllar kralı» adı ilə məşhur olan, danimarkalı yazıçı Hans Xristian Andersenlə (1805-1875) müqayisə olunması, həmçinin, yaradıcılığının görkəmli rus tənqidçisi V.Q.Belinskinin (1811-1848) ədəbiyyat nəzəriyyəsi ölçülərinə uyğunluq müqayisəsi hər qələm sahibinə nəsib olmur və ya belə bir müqayisə çox nadir hallarda aparılır, yaxud da heç aparılmır. Mübaliğəsiz demək mümkündür ki, Z.Xəlil Azərbaycan uşaq ədəbiyyatı sahəsində dünya uşaq ədəbiyyatı korifeyləri ilə müqayisə edilən ilk qələm sahiblərindən biridir.*

*Z.Xəlilin ədəbi yaradıcılığı dünya xalqlarının bir çox dilinə, o cümlədən rus, Litva, latış, eston, moldav, Ukrayna, gürcü, özbək, qazax, türkmən, eləcə də alman, fin, yuqoslav, holland və hind dillərinə tərcümə olundu və o, daha da*

*populyarlaşdı. Onun uşaqlar üçün yazdığı şeir və hekayələr təkcə Rusiyanın uşaq mətbuatında (»Murzilka», «Vesyolıe kartinki», «Pioner», «Kolobok») deyil, eyni zamanda daha çox tirajla buraxılan «Nedelya», «Literaturnaya qazeta» və «Rabotnitsa» kimi qəzet və jurnallarda müntəzəm dərc edildi. Müəllif «Kölgələr» və «Limonad içməyin» hekayələrinə görə «Literaturnaya qazeta»nın «Zolotoy telyonok» mükafatına layiq görüldü.*

*Z.Xəlil uşaq ədəbiyyatını tədqiq edən Beynəlxalq cəmiyyətin keçirdiyi simpoziumun iştirakçısı oldu və sonralar bu təşkilata üzv seçildi. Keçirilmiş ümumittifaq müsabiqəsində «Salam, Cırtdan!» kitabı birinci yeri tutdu və «Ən yaxşı uşaq kitabı» diplomuna layiq görüldü. «Cırtdanla Azmanın yeni sərgüzəştləri» adlı kitabı isə «Ən yaxşı uşaq kitabı» devizi altında keçirilən Respublika müsabiqəsində də ilk yeri qazandı.*

*Z.Xəlil ardıcıl olaraq uşaq ədəbiyyatı problemləri üzərində geniş tədqiqat işləri apararaq dəyərli bir elmi əsər ərsəyə gətirdi. «Azərbaycan uşaq ədəbiyyatının mənşəyi, təşəkkülünün əsas amilləri və inkişaf problemləri» mövzusunda doktorluq dissertasiyası müdafiə edərək (1990) filologiya elmləri doktoru adına layiq görüldü. Filoloq alim bu elmi əsərində Azərbaycan uşaq və gənclər ədəbiyyatının kökünü və mənbəyini araşdıraraq, bu sahənin inkişafında söz sənətinin ictimai-tarixi əhəmiyyətini və rolunu, uşaq ədəbiyyatının uğurlarını və bəzi hallarda tənəzzülünü müəyyən etmiş, obyektiv elmi nəticəyə gəlmiş,uşaq ədəbiyyatının sonrakı inkişafına təsir göstərən amilləri üzə çıxarmışdır. Uşaq ədəbiyyatı nümunələrini, folklor materiallarını, xalqın tarixi ilə bağlı olan əsərləri, uşaq ədəbiyyatı problemlərinə həsr edilmiş tədqiqatları, klassik ədəbiyyatdan götürülmüş, uşaq oxusu üçün məqbul sayılan, ilk dərsliklərə daxil edilən mətnləri tədqiqata cəlb edən müəllif son nəticədə bitkin elmi fikir söyləyə*

*bilmişdir.*

*Moskvanın «Detskaya literatura» nəşriyyatında çap olunmuş «Detskaya literatura Azerbaydjana» (tərcümə edən I.Motyaşovdur) adlı monoqrafiyası (1987) ona uğur gətirdi. Bu monoqrafiya M.Lomonosov adına Moskva Dövlət Universitetində görkəmli Azərbaycan ədəbiyyatşünası, akademik M.Arifin «Azərbaycan xalq ədəbiyyatı» dərsliyindən sonra ikinci bir dərslik kimi qəbul olundu və tələbələrin istifadəsinə verildi. Universitetin professoru, tanınmış alim Ə.Şərif bu monoqrafiyanın əhəmiyyətindən söz açaraq, onun gərəkli bir dərslik olduğunu dönə-dönə vurğulamışdır.*

*Elmi-tədqiqat işləri, pedaqoji fəaliyyət, bədii yaradıcılıq – bütün bunlar Z.Xəlilin paralel apardığı sahələr olsa da, əsla yorulmur, özünün dediyi kimi, balaca bir qığılcımla böyük tonqallar yandırır, balaca açarla böyük darvazalar açaraq, uşaq aləminin sirlərini onların özlərinə açıqlayır.*

*Uşaqlar üçün yazılan hər bir əsər ədəbiyyatımızın çox vacib tərkib hissəsi kimi yaş, estetik zövq və anlam səviyyəsi müxtəlif olan minlərlə insan övladı tərəfindən oxunaraq dərk edilir. Balacaların, yeniyetmələrin, o cümlədən də gənclərin dünyagörüşünün formalaşmasında, maraq dairəsinin genişlənməsində, əxlaqi və mənəvi tərbiyəsində, xarakterlərin müsbət istiqamətdə inkişafında və ən nəhayət, bədii zövqünün cilalanmasında bu ədəbiyyatın təsir qüvvəsi olduqca böyükdür.*

*Bu xüsusiyyətləri Z.Xəlil yaradıcılığında aydın şəkildə görmək mümkündür. Şairin həyat səhifələrini vərəqləyərkən məlum olur ki, o da öz uşaqlıq səltənətindən gəlmişdir və onun uşaqlığı fonunda məsum bir varlığın sirli, problemli dünyası dayanır. Bu dünyanın poetik misralarda canlandırılması uşaqların yaşayış tərzini, həyata baxışını, onların hansı istək və arzuların həsrətində olduğunu, hansı mənəvi qidaya ehtiyac duyduğunu dərindən dərk edəndən sonra mümkündür və Z.Xəlil*

*öz poetik yaradıcılığı prosesində bunları incəliklə duya bilmişdir.*

*Təbiət ilahi qüdrətdən yarananda canlılar yaranış ardıcıllığına görə bir-birinə bağlı şəkildə, zəncirvari düzülmüşlər. Flora və faunadan sonra insan övladı üçüncü olmuşdur. Bu düzülüşün məntiqi mənası odur ki, insan özündən əvvəl təbiət üzərinə naxış salmış bu iki canlı olmadan yer üzündə yaşaya bilməzdi.*

*Bəlkə elə ona görə də Z.Xəlil «Uçan çıraqlar» kitabını «Qırxbuğum», «Göbələk» və «Gicitkan» şeiri ilə başlayır. Həm müalicə əhəmiyyəti olan, həm də qida məhsulu kimi istifadə edilən, bəzi hallarda bəzək bitkisi kimi işlədilən qırxbuğumun xassələrini nəzmə çəkən şair, onun zahiri portretini də sadə və oynaq dillə canlandıra bilmişdir.*

*«Qırxbuğum» və «Göbələk» şeirləri də uşağın onlara müraciəti formasında qələmə alınmışdır. Bu müraciəti təşkil edən söz və ifadələr o qədər dilə yatımlı, poetik obrazlılıqda fərdiləşdirmə və tipikləşdirmə o qədər qüvvətlidir ki, uşaqlar bu şeirləri tez yaddaşlarına köçürə bilirlər. «Gicitkan» şeiri də elə bu qəbildəndir:*

*Hasarların dibində*
*Gördüm tala-taladı.*
*Istədim yığam onu,*
*Əllərimi daladı.*
*Mənə qulaq as,-dedim*
*Ay davakar gicitkan,*
*Tikanların var deyə*
*Niyə lovğalanırsan?!*

*Bu şeirdə uşaq nitqinə məxsus spesifik ifadələrin yaratdığı poetik effekt, cilalanmış leksik vasitələr, üslub və fikir*

*aydınlığı daha qabarıq nəzərə çarpır.*

*Z.Xəlilin şeir yaradıcılığında poetik duyumun dəyəri və sirri ondadır ki, onun fərdi üslubunda folklorumuza xas olan şirindillilik vardır. Şairin bədii üslubu forma və məzmunun müəyyən harmonik vəhdəti, fikir və onun obrazlı ifadəsi arasında adekvatlıq, ən nəhayət, fikir və duyğuların ifadə edilmə tərzi, xarakteri, üslubu kimi poetizmlə dolu qəlbin həmişə səslənən, gərilmiş simləri ilə şərtlənə bilir. Şair uşaqlarla bu şirin üslubla təmas yaratdıqca, onları olduqca aydın, ahəngdar, rəvan nitqlə fikrini ifadə etmək bacarığına yiyələnməyi öyrədir.*

*«Uçan çıraqlar» kitabındakı şeirlər əsasən dördlük, beşlik və yeddilik heca vəzni ilə yazılmışdır. Zahirən sadə görünən, lakin metaforikləşdirilmiş söz düzümündən ibarət olan bu şeirlərdə real həyat lövhəsi yaradılmışdır. Şair təbiətdə gedən dəyişikliyi sərraf gözü ilə müşahidə edir, qələmini fırçaya çevirir, söz palitrasının əlvan çalarlarından istifadə edərək oxucu təxəyyülündə heyrətamiz lövhə, mənzərə obrazlılığı nümunəsi yaradır, real gerçəkliyin tam təfərrüatı ilə təsviri poetik boyalarla əks olunur. Az sözlə bir tabloluq real həyat mənzərəsi yaradan, balacalar üçün gözəl, romantik üslub seçməyi bacaran şair həqiqi söz sərrafına, poeziya vurğununa çevrilir, məcazi epitetlər vasitəsilə lirik obrazlılığın bitkin nümunəsini yaradır. Real təbiətin füsunkar gözəlliyini, incəliklərini, canlı aləmin rəngarəngliyini qeyri-adi poetik boyalarla təsvir etməklə mənzərə obrazlılığının ən kamil nümunələrini ahəngdarlıq, musiqililik, simmetriklik və ifadələrin sərrast düzümündən yaradır. Sərrast söz və ifadələrlə uşaq qəlbinin dərin guşəsində gizlənmiş sirli məqamları üzə çıxarır.*

*«Uçan çıraqlar»dakı şeirlər mövzu baxımından rəngarəngdir, bədii cəhətdən tutumludur. Şairin üstün cəhətlərindən*

*biri də budur ki, o, real görünən hər bir əşyanın, canlı varlığın təsvirində uşaqlar üçün bəlkə adi görünən bir çiçək, yaşıl çəmən və ya yağan qar şairin qələmində qeyri-adi dona bürünür, balaca oxucu bu təsvirin al-əlvan boyaları içərisində sanki nağıllar aləminə düşür.*

*«Çəmən» şeiri şairin poetik yaradıcılığında ən yüksək zirvədə dayanır. Bu şeirdə illüstrativlik və portretli obrazlılıq daha aydın görünür, nəticədə, real varlığın əks olunması gözlərimiz önündə əsrarəngiz bir mənzərənin yaranmasına səbəb olur. Şeirdəki poetik obrazlılıq bədii dilin fəlsəfəsinə çevrilir:*

*Bizim bağçamıza*
*Bir çəmən düşüb,*
*Sürüşüb baharın*
*Çiynindən düşüb.*

*Şeiri oxuduqca söz hörgüsündəki dəqiq məcazi ifadələrin seçiminə heyrətlənməyə bilmirsən. Söz axtarışından uğurla çıxan Z.Xəlil bu şerdə poetik gözəllik yarada bilmişdir. «Baharın çiynindən çəmənin sürüşüb düşməsi» isə şairin təkrarolunmaz poetik ixtirası və poetik kəşfi kimi dəyərləndirilə bilər.*

*Şairin uşaq poeziyasında üstün və maraqlı cəhətlərdən biri də onun yumorlu və poetik zarafat tərzində yazılmasıdır. «Yalançı Imran», «Oynayıram beşikdə», «Hərflər», «Dələ» və digər şeirlər uşaqların təbəssümünə və gülüşünə səbəb olur. Bu epik şeirlərdəki obrazların özünəməxsus mənəvi dünyası, əxlaqi sifətləri və psixoloji-xarakterik xüsusiyyətləri vardır. Şən əhvali-ruhiyyə, uşaq təbiətinə məxsus olan incə, şirin yumor daha qabarıq nəzərə çarpır.*

*«Mən rəngləri tanıyıram» kitabındakı şeirləri nəzərdən*

*keçirdikcə onun fərdi üslubunda, poetik söz düzümündə bir püxtələşmə hiss edirsən. Şairin portret mahiyyətli obrazlılıq əsasında yaratdığı mənzərə lövhələri daha çox diqqət doğurur. «Rənglər, çiçəklər və böcəklər» bölümünə daxil edilmiş «Çəmənin xalı», «Arılar», «Cincilim», «Göy qurşağı», «Dəvələr» və sair şerlərdə şair gerçəkliyi estetik ideal səviyyəsinə qaldıraraq poetik lövhələr yaradır. «Çəmənin xalı» şerində məcazın növlərindən məharətlə istifadə edən şair dolğun təbiət obrazı yarada bilmişdir. Təsvirə cəlb edilmiş obyekt təbiətin kiçicik parçası olsa da, bütöv bir obraz təsiri bağışlayır:*

*Göy çəmənlər yamaca*
*Sərilmiş bir xalıdır.*
*Qızıl-qızıl lalələr*
*Yanağının xalıdır.*

*Z.Xəlilin uşaq şeirləri öz yığcamlığı ilə diqqəti cəlb edir. Az sözlə bütöv fikri ifadə etmək bacarığına malik olan şair bu üsuldan tez-tez istifadə etməyə çalışır, öz yığcamlıq prinsipinə sadiq qalır, sözlə «oynayır», uşaqların qəlbinə hakim kəsilə bilən, onun bədii zövqünü formalaşdıran sənət əsəri yaratmaq üçün şair ilhamı qəlbini ehtizaza gətirir.*

*Z.Xəlilin yaradıcılığında da şeir-yanıltmacların xüsusi yeri vardır. Bu yanıltmaclar öz orijinallığı ilə diqqəti cəlb edir, həmçinin kiçik yaşlı uşaqların düzgün tələffüz vərdişlərinin formalaşmasına və nitq inkişafının rəvanlığına əvəzsiz xidmət göstərir. «Tutu», «Aşır», «At» və bu kimi şer-yanıltmaclar uşaqların çətin tələffüz etdikləri sözlərin səlis deyilişinə nail olmaq üçün əsas rol oynayır. Burada verilmiş seçimli sözlər uşaqların hafizəsinə birbaşa qonur:*

*On iki yaşlı Tutu,*

*Çıxıb çırpırdı tutu.*
*Bir quş isə uzaqdan*
*Hey oxuyurdu: Tu-tu.*

*«Mən rəngləri tanıyıram» kitabında müəllifin «Gəlin nağıl danışaq» başlığı altında müxtəlif mövzulu mənzim nağılları toplanmışdır. Şair uşaqların anlam və deyim tərzini nəzərə alaraq dördlük, beşlik və yeddilik heca vəznindən istifadə etdiyindən, bu mənzum nağıllar oynaqlığı, diləyatımlığı, rəvanlığı ilə öz ahəngini qoruyub saxlaya bilir. Alleqoriyadan istifadə etmək yolu ilə qələmə alınmış bu mənzum nağıllarda ideya və poetik fikirlərin, obraz və xarakterlərin, məcazi formada ifadə edilmiş simvolik-rəmzi surətlərin bədii təcəssümü öz əksini tapmışdır.*

*Z.Xəlil bədii yaradıcılığında nağıl motivlərinə geniş yer verməsi təsadüfi deyildir. Şair ömrünün müəyyən dövrünü tədqiqatına həsr etdiyi Azərbaycan folklorundan bəhrələnərək canlı şairanə xəyala malik olmağı zəruri saymaqla yanaşı, onu da çox aydın dərk edir.*

*Z.Xəlil yaradıcılığını araşdırarkən məlum olur ki, o, öz uşaq poeziyasında daha çox təbiəti vəsf etmişdir. «Göydən üç alma düşdü» (1974) şeirlər kitabının ilk bölümünü də «Təbiət mahnı oxuyur» başlığı ilə açır. Təbiət vurğunu olan şair Azərbaycanın müqəddəs, zəngin torpağının hər bir qarışını, onun gur şəlalələrini, yaşıl dona bürünmüş meşələrini, axar çaylarını, qaynar bulaqlarını, cənnəti xatırladan ab-havasını poetik misralarla qələmə alır.*

*Z.Xəlilin uşaq poeziyasında müxtəlif rayihəli, rəssam palitrasının və fırçasının qüdrətindən yaradılmış əlvan boyalı təbiət mənzərələrinə kifayət qədər rast gəlmək mümkündür. «Nərə çəkdi dalğalar», «Tayalar», «Yay», «Şəffaf cığır», «Durnalar», «Dənizə axşam düşür», «Qar», «Sərçələrin*

*nəğməsi» və sair şeirlərdə peyzaj və ya mənzərə obrazlılığı əsas yer tutur. Sərrast söz seçimindən düzümlənmiş poetik misralar rəngarəng mənzərələr yaradaraq, təbiətin əsrarəngiz gözəlliyini uşaqlara daha çox sevdirir, Azərbaycanın hər bir guşəsi tərənnüm olduqca, onlarda milli hissi bir qədər də gücləndirir. Bu şeirlərdə təbiət gözəllikləri sadəcə sadalanaraq təsvir olunmur, həm də peyzaj və mənzərələrin vəsfindən doğan vətən sevgisi uşaqlara geniş təbliğ olunur. «Göbələk», «Qanqal», «Baldırğan», «Sırğaçiçəyi», «Qaymaqçsiçəyi», «Qantəpər», «Hörümçək və mozalan», «Fillərin çadırı» və sair şeirlərdə şair bir bioloq kimi flora və faunanın incəliyinə qədər nüfuz etməyə çalışır, bu canlıların poetik effektlə dolu təsvirləri, onların zahiri və xarakterik fərqləri barədə geniş məlumat verir və bu əlamətləri olduqca sadə dillə, uşaqların təfəkkür tərzinə uyğun izah edir.*

*Z.Xəlil «Quşlar, quşlar...» kitabına daxil etdiyi şeirlərini əsasən Azərbaycan ərazisində məskunlaşan, zahirən gözəl, incə və nadir quşlara həsr etmişdir. Qartal, sona, qutan, qağayı, qırqovul, bildirçin, kəklik və sair adda quşların xarakterik xüsusiyyətlərini elə ustalıqla vermişdir ki, sanki onlarla eyni həyatı yaşamışdır və ornitologiya elminin bilicisi kimi bu aləmin bütün sirlərindən xəbərdardır. Lakin qartalın qaya parçasına, sonaların suda üzən ağ zanbaqlara, bülbülün sinəsinin yumurta sarısına, qanadlarının gül yarpağına, şanapipiyin dimdiyinin iynəyə, gözlərinin düyməyə, qızıl qazın günəşin bir parçasına bənzədilməsi və sair müqayisəli metaforik poetik təsvirlər Z.Xəlilin uşaq poeziyasındakı uğurlarından xəbər verir. Gerçəkliyin poetik təsvirini vermək, onu canlandırmaq, müxtəlif varlıqlar arasında müəyyən təbii oxşarlıq aramaq, müqayisə etmək bacarığı Z.Xəlilin bir şair kimi püxtələşməsinin nişanəsidir.*

*Z.Xəlilin uşaq poeziyasında ən böyük uğuru «Tora-*

*ğaylar oxuyur» şeirlər kitabında daha qabarıq görünür. Bu kitaba daxil edilmiş şeir və poemaların əvvəlkilərdən əsasən yaradıcılıq fərqi ondan ibarətdir ki, buradakı mövzu genişliyi, uşaqlar üçün maraqlı görünən obrazlar aləmi, qeyri-adi hadisələr silsiləsi, poetik təsvirin obrazlılığı və effekti, illüstrativlik və sair kateqoriyaların üstünlüyü daha aydın nəzərə çarpır. Şairin poetik misraları öz boy sırasına görə düzülür, bədii siqlətinə görə daha sanballı, daha əzəmətli görünür. Poeziya yaradıcılığındakı forma yığcamlığı, vəzn və bölgü əlvanlığı, ahəngdarlıq və musiqililik, ümumiyyətlə, poetik sənətin qanunlarına tam uyğunluq Z.Xəlilin sənəti duymaq nişanəsi kimi qiymətləndirilməlidir.*

*Z.Xəlil uşaq şeiri yaradıcılığında balaca oxucuları maraqlandıran orijinal mövzulara üz tutur, şeirə yeni formalar gətirir, qələmə aldığı əsərləri daha da oxunaqlı edir. Onun «Yalan-palan» bölümünə daxil etdiyi epik şeirlərdə əsas yeri yalanlar tutsa da, əhvalatlar elə real təsvir olunur ki, əslində həqiqətin, doğruçuluğun təbliği daha inandırıcı görünür. Z.Xəlilin uşaq poeziyasında üstün cəhəti ondan ibarətdir ki, onun öz siması vardır, bədii-estetik faktorlarla zəngin dilə malikdir, sənətdə poetik kəşflər etməyin dəyərini qiymətləndirə bilir. Ona bircə şey tam şəkildə aydındır ki, sirlərlə dolu olan bədii yaradıcılığın yolu çətin və mürəkkəbdir. Bu çətin və mürəkkəb yolu isə yalnız poetik fikir zənginliyi, üslub aydınlığı, bədii dilin saflığı, təbiiliyi, obrazlılığı və sərrast söz düzümü bacarığı ilə keçmək mümkündür. Ən nəhayət, bədii sənət əsərinin çoxyaşarlığı, uzunömürlüyü müxtəlif üslubi çalarlara malik olan söz və ifadələrin poetik gözəlliyindən asılıdır.*

*Ümumiyyətlə, Z.Xəlilin uşaq şeir yaradıcılığında özünü göstərən müxtəlif cəhətlər müəllifin geniş bədii-estetik diapazona malik bir qələm sahibi olduğundan xəbər verir. Onun şeir kitablarında həm folklor ənənələrinə, klassik*

*sənətkarlarımızın yaradıcılıq yolunun davamına, həm də müasir Qərbi Avropa ədəbi ənənələrinin izlərinə rast gəlmək mümkündür. Şairin qələmindən çıxan hər bir poetik misra balaca oxucuları düşündürür, onların əqli və bədii-estetik zövqünün formalaşmasına xidmət edir. O, təsvir etdiyi hər bir varlığı yaradıcı xəyalının qüdrəti ilə bəzəyir, bədii təfəkkürünün gücü ilə onu qeyri-adi dərəcədə poetikləşdirə bilir.*

*Zahid Xəlil uşaq şairi və yazıçısı kimi tanınsa da, bəzən bu yaradıcılıq aləmindən bir anlığa ayrılaraq böyüklərin həmdəminə çevrilir. «Qar» şeirində şair sərrast söz düzümündən məharətlə istifadə edərək poetik obrazlılığa nail olmuşdur. O, qış fəslinin son bir anını 12 misralıq şeirində elə yığcam və obrazlı təsvir edir ki, buradan çıxan mənaya kölgə salınmır.Tufanla başlanan və topa-topa qar tökən qışın dəlicəsinə hayqırtısını günəşin bircə hərarətli təbəssümü öz axarına salır. Şair təbiətin bu sirli təzahürünü şeirin son misralarında sənətkarlıqla verə bilmişdir:*

*Çiynimə qar qonur çırpmıram, ancaq*
*Günəşin altında incəlir indi.*
*Dünyaya hökm edən cahangirə bax,*
*Çiynimə qısılıb dincəlir indi?*

*Bu cür fəlsəfi məna yüklü poetik misralar üzərində yalnız böyüklər düşünə bilərlər, bu ancaq onların təfəkkür anlamına uyğundur. Müəllif iki qüvvəni – soyuq qışla, insan övladına can verən, ona hərarət bəxş edən günəşi qarşılaşdırır, günəşin qızılı, odlu zərrələrinin qələbəsini obrazlı fikirlərlə oxuculara təqdim edir.*

*Z.Xəlil ömrünün ən çox hissəsini tələbələrin arasında keçirmişdir və indi də bu mühitdə nəfəs alır. Maraqlı həyat məndəricəsinə malik olan tələbə-gənclərin xarakter və psixologiyasını, məişət tərzini, düşüncə və anlam dərəcəsini,*

*bilik səviyyəsini, ən nəhayət, ürəklərində gizli gəzdirdikləri sevgi hisslərini, mövcud həyata baxışlarını dərindən duyduğuna görə, bu duyğuları poetik misralarda canlandırmaq şair üçün problem yaratmır.*

*Tələbə qızlar yataqxanasını poetik misralarla nəzmə çəkən Z.Xəlil sanki burada yeni bir dünya kəşf edir, müxtəlif bölgələrdən təhsil almaq üçün axışıb gələn, burada məskunlaşan gözəl tələbə qızların hamının həsəd apardığı mənalı həyat tərzini, onların mənəvi-əxlaqi keyfiyyətlərinin ülviliyini incə duyğularla təsvir edir. «Qızlar yataqxanası» şeiri bir zamanlar bütün tələbə-gənclərin dillər əzbəri olmuşdu və indi də bu şeiri oxuyan hər bir tələbə-gənc bu həyatın bircə anını yaşamaq istəyi ilə çırpınır, əsl sevgi məbədgahına çevrilən tələbə qızlar yataqxanasının qarşısında intizarlı dəqiqələr keçirmək arzusuna düşür. Real sevgi duyğularının xəyali mənzərəsini olduğundan da gözəl əks etdirən bu şeir dövründən, zamanından asılı olmayaraq bütün tələbə həyatı üçün xarakterik səslənir:*

*Qızlar yataqxanası,*
*Qızıl güllər məskəni!*
*Hansı oğlan sevməyib*
*Söylə, ürəkdən səni?!*

*Qızlar yataqxanası poetik misralarda bir nağıllar aləmini xatırladır. Sevgi, məhəbbətlə dolu olan, həyası və vəfası ilə oğlanların qəlbinə hakim kəsilən bu qızların mənəvi gözəlliyi şairin özünü də məftun etmişdir. Mənəviyyatca zəngin, gül qönçəsi kimi təravətli, bakir gözəlliyə malik olan bu qızların portretli obrazını yaratmaq üçün Z.Xəlil ahəngdar düzümlü söz və ifadələrdən məharətlə istifadə edir:*

*Yanaqlar qıpqırmızı*
*Bir baxışdan qanayar.*

*Beləsini sevməsən*
*Dünya səni qınayar.*

*Qızlar, mənə baxmayın*
*Baxışlar mənə neylər?!*
*Ilk eşqim yada düşər*
*Burnumun ucu göynər.*

*Şair tələbə qızların zahiri və mənəvi gözəlliyinin pərəstişkarına çevrilsə də, onların odlu-alovlu baxışlarının təsirinə düşmür, yalnız özünün ilk sevgisini xatırlayır və bu xatirələrin düşüncələrinə qapılır.*

*Z.Xəlilin böyükləri riqqətə gətirən məhəbbətlə dolu lirik şeirləri az deyildir. Uşaqları söz sehrinə salmağı bacaran şair, böyüklərin də «zəif yerini» tapa bilir, onları məhəbbətin dolanbac yollarında «azdıraraq» bu hissləri yenidən yaşamağa məcbur edir.*

*«Qızlar şeir oxuyur məhəbbət haqda» şeirində şairin poetik icadı budur ki, o, qızların qəlbində yuva salmış sevgi hisslərini onların özlərinin oxuduqları məhəbbət dolu şeirlərində təsvir edir. Ürəklərində təlatümə gələn sevgi duyğuları poetik misralarda daha da ülviləşir, gözəlləşir:*

*Qızlar məhəbbətdən şeir oxuyur,*
*Bu saat ulduzlar alışacaqdı*
*Nöqtələr, vergüllər çiçək qoxuyur,*
*Çiçəklər dil açıb danışacaqdı.*

*Qızların yetkinlik yaşlarında oxuduqları bu şeirlər onların öz hissləri, öz duyğularıdır. Məhəbbətin ən üca zirvəsini fəth etməklə həyatda xoşbəxtlik, səadət anlarını yaşamağın həsrətini çəkən bu zərif məxluqlar öz düşüncələrinin əsirinə çevrilmişlər. Artıq sevib-sevilmək səlahiyyəti ilahi qüvvə tərəfindən onlara verilmişdir və qızlar dərin düşüncələr içərisində yalnız bu kövrək hisslərlə oynayırlar.*

*Onlar ancaq məhəbbət şeirləri oxuyurlar. Hələ əsl məhəbbətin şirinliyini dadmayan gözəl qızlar bu ülvi hisslərə həsr edilmiş şeirləri oxusalar da dünyadan xəbərləri yoxdur. Onlar bilmirlər ki, öz otaqlarında oturub məhəbbət şeirləri oxuduqları vaxt ilahi sevginin gücündən dəli-divanə olmuş oğlanların gözünə yuxu getmir və onlar həsrətində olduqları bu qızların gül təravətli çöhrəsini görmək, dodaqlarında donub qalmış sözləri qəlb çırpıntıları ilə demək üçün uzun sürən gecənin bitməsini, səhərin açılmasını səbrsizliklə gözləyirlər:*

*Çənəsi ovcunda, fikrə dalaraq,*
*Qızlar şeir oxuyur sevgi yaşında.*
*Indicə qızılgül pardaxlanacaq,*
*Bülbül ötəcəkdi budaq başında.*

*Ən əziz sözləri dodaqlarında,*
*Oğlanlar yatmayıb gözlər səhəri.*
*Qızlar şeir oxuyur otaqlarında,*
*Qızların dünyadan yoxdur xəbəri…*

*Qızlar məhəbbət haqda şeir oxuduqca, analar sevgi yaşına yetişmiş bu incə, zərif məxluqların – qızlarının hisslərini duyur, onların ilk məhəbbət oxunun daşa dəyməməsi üçün gizlin-gizlin dodaqlarının altında yaradana dua edirlər. Qızların isə şeir oxuduqca gözləri yol çəkir və onlar dərin fikirlərə qərq olurlar, şeirin emosional təsirindən xilas ola bilmirlər, qəlblərini ehtizaza gətirən poetik misralar onların yaxın sirdaşına çevrilirlər. Bununla belə, hicran dəqiqələri onları üzür. Şair qızları uzun sürən hicran dəqiqələrindən xilas etmək üçün şeiri nikbin notlarla bitirir, bu hicranın tezliklə başa çatmasını, onların xoşbəxt olmasını arzulayır:*

*Misranın sonunda duran nöqtələr*
*Hicranın sonunda dayanaydı kaş…*

*«Bahara çatmışdıq...» şeirində şair ötüb keçən gənclik illərinin həsrətli çağlarını, şirin sevgi anlarının arxada qaldığını yada salır. Lakin şeirdə nikbin əhvali-ruhiyyə duyulur: şair artıq xatirələrə çevrilmiş bu illərin həsrətinə səbrlə dözməyə və qəm etməməyə çağırır.*

*Z.Xəlil yaşının hansı dövrü olursa-olsun məhəbbətin dərinliyinə baş vuraraq, qəlbin dərin guşəsində gizlənən ülvi hissləri poetik misralara düzməyi bacarır. Onun «Onsuz da mən səni sevməyəcəyəm», «Bizim gizli sevgimiz», «Bu da bir ağ sevgidi» və sair şeirləri coşqun şair ilhamından xəbər verir.*

*«Onsuz da mən səni sevməyəcəyəm» şerində şair odlu sevgisi ilə onu yoldan çıxartmağa cəhd edən gözələ məzəmmətlə öz hisslərini bildirir. Şair yaxşı bilir ki, bir baxışdan vurulmuş bu qızın məhəbbətinin sonu görünmür, şıltaq bir gözəlin istəyindən başqa bir şey deyildir:*

*Ruhumla, hissimlə nə əlləşirsən,*
*Deyirsən açılan təzə çiçəyəm?!*
*Vallah lap havayı gözəlləşirsən,*
*Onsuz da mən səni sevməyəcəyəm.*

*Şeri oxuduqca inanmaq istəyirsən ki, şair sevgi hisslərini cilovlaya bilməyən bu şıltaq gözəli öz fikrindən daşındıra biləcəkdir. Çünki şair «vurulmuş gözəli» məzəmmət etdikcə özünün sirlərini də açıb-ağardır. Yaşı ötdüyünə görə «quru daşa» çevrilən, bu sevgiyə yaraşmadığını deyən şair, «insaf et, ağlımı çıxarma başdan» yalvarışına keçir. Şerin son bəndində isə evli olduğunu deməyə məcbur olur və bununla gözəli səhv addım atmaqdan çəkindirmək üçün irəliyə bir addım da atır:*

*Ürəkmi umursan bu quru daşdan,*
*Insaf et, ağlımı çıxarma başdan?!*
*Harama yaraşır sevgi bu yaşda?*

*Onsuz da mən səni sevməyəcəyəm!*

*Şərikmi çıxırsan duyğularıma,*
*Bütün simlərimi çəkdin tarıma*
*Qayıdıb nə deyim evdə qarıma?!*
*Onsuz da mən səni sevməyəcəyəm.*

*Z.Xəlil müasir gəncliyin xarakter və psixologiyasını, onların hiss və duyğularını, mənəvi-əxlaqi dünyasını dərindən bildiyi üçün bu aləmin poetik vüsəti daha real və təbii təsir bağışlayır.*

*«Bizim gizli sevgimiz» şerində də bu hisslərin şahidi oluruq. Sevgilərini təkcə aya, durğun gölə, axar çaya danışan gənclərin sirri az bir zamanda bütün aləmə yayılır. Məlum olur ki, məhəbbəti gizli saxlamaq olmazmış. «Ceyranlar qaçışıyla, kəpənək uçuşuyla, meşə zümzüməsiylə, quşlar şaqraq səsiylə» bu gizli sevgini bütün dünyaya yaymışlar:*

*Elə bil ki, yatanlar*
*Yuxusundan ayıldı.*
*Bizim gizli sevgimiz*
*Bu dünyaya yayıldı.*

*Sevgililər hələ də sevgilərinin aləmə faş olmasına inanmırlar. Təkcə aya, susan gölə, axar çaya danışılan bu sevginin birdən-birə yayılmasından aşiqlər iztirab keçirirlər:*

*Axı biz sevgimizi,*
*Təkcə aya danışdıq.*
*Susan gölə danışdıq,*
*Axan çaya danışdıq.*

*Z.Xəlil sevgi şeirlərində məhəbbətin bir anını təsvir etməklə oxucunun hiss və duyğularına hakim kəsilir, onu sirli, ecazkar aləmin əzəmətli poetikasında yaşadır, bu hisslərlə də tərbiyə edir.*

*«Bir az gül, ay gülüm...» şeirində iki sevən gəncin*

*münasibətləri əks olunur. Aşiq öz məşuquna poetik misralarla hiss və duyğularını açır, onu dünyalar qədər sevdiyini, onun sevgisi ilə yaşadığını dönə-dönə bəyan edir:*

*Məni bu dünyaya zəncirlər belə*
*Bircə telin qədər bağlaya bilməz, -*

*deyir.*

*Z.Xəlil «Dünya zarafat deyil» şeirində sevgilisinin görüşünə getməyərək onunla zarafat edən bir gəncin mənəvi hisslərini poetik misralarla qələmə alır:*

*Şirin həsrətinə dözüb bir qədər,*
*Bu gün görüşünə getmirəm yarın.*
*Qoy yolsun saçını salxım söyüdlər,*
*Tüstüsü başından çıxsın dağların…*

*Aşiq öz sevgilisinə üzücü, intizarlı dəqiqələr yaşadır, ondan bir uşaq kimi küsəcəyini, lakin özünün isə bu ayrılığa birtəhər dözəcəyini söyləyir. O, bütün bunların bir zarafat olduğunu bilsə də, sevgilisi ilə ayrılığın çətinliyini çox gözəl başa düşür. Hətta bu lüzumsuz ayrılığa təbiətin ayrı-ayrı canlıları, müxtəlif təzahürləri də razı deyillər. Bu hadisədən əndişələnən lalələr dağlanır, alışıb yanır, küləklər gen dünyada özlərinə yer tapa bilmirlər, belədən-beləyə vurnuxurlar, bulaqlar hicran nəğməsi deyirlər, çinar öz yarpaq əlini uzadaraq aşiqə minnətə gəlir.*

*Şair sonrakı proseslərin nikbin sonluqla nəticələnəcəyini, bunun bir zarafat olduğunu bildirir. Zarafat olduğunu başa düşəndən sonra şimşəklər göy üzündə şaqqanaq çəkəcək, külək özü sevgililərin görüşünə gələcək, yamyaşıl biçənəklər qəşş edib, uğunub gedəcəklər.*

*Şair bu şeirdə gerçək və xəyali obrazlar yaratmaqla onları qarşılaşdırır, həm poetik, həm də mənzərə şəkilli obrazlılığa nail olur.*

*«Xəbərin yoxdu xəbərdən…» lirik şeiri Z.Xəlilin ən populyar, müasir gəncliyin dilindən düşməyən, bədii siqləti ilə seçilən poetik nümunələrdən biridir:*

*Eh, sənin xəbərin yoxdu xəbərdən,*
*Çıxıb gedəcəyəm günün birində.*
*Keçib dərələrdən, göy təpələrdən,*
*Gözdən itəcəyəm günün birində.*

*Aşiq öz sevgilisindən ayrılacağını, günlərin birində gözdən itəcəyini ürək ağrısı və yanğısı ilə xəbər verir. Onun üçün də ayrılmaq asan deyildir, çünki sevgilisinin lal baxışları onu elə məftun etmişdir ki, onsuz da getməyə iqtidarı yoxdur. Təbiətin özü də bu ayrılığa razı deyildir: çaylar onun qarşısını kəsəcək, dağlar qarşısında dikəlib yolunu bağlayacaqlar. Buludlar bir təndir alovuna çevriləcək, çaxan şimşəklərin sayı artacaq, gedəcəyi yollar isə qırılıb tökülmüş bir kəndir kimi ayaqlarına dolaşacaq, dərələr gileylənəcək, bulaqlar çıxıb getdiyinə görə aşiqi hədələyəcək. Yox, əgər aşiqin qayıtmaq meyli olarsa, söyüd ağacı onu bir doğma bacı kimi bağrına basacaq.*

*Ayrılığa yer qalmamışdır. Sevgilisinin məftunedici lal baxışları, təbiətin müqayisəolunmaz qüvvələri, əsrarəngiz mənzərələri, coğrafi varlıqlar bu ayrılığa qarşı üsyan qaldırmışlar. Əslində heç aşiq özü də sevgilisinə vida deməyə tələsmir, təkcə ona öz gileyini bildirir.*

*Təhlilə cəlb etdiyimiz şeirlərdən göründüyü kimi, Z.Xəlilin rəngarəng nəğmələri eyni bir qəlbin müxtəlif çırpıntılarıdır. Şair təsvir etdiyi varlığın bütün incəliklərinə varmaq üçün xalqın illər boyu yaratdığı büllur söz çeşməsindən yararlanır, onlara sənətkar prizmasından baxaraq oxucuların bədii-estetik zövqünü cilalayır.*

*Z.Xəlilin bədii yaradıcılığı çoxşaxəlidir, janr əlvanlığı baxımından geniş əhatəyə malikdir. Istər uşaqlar üçün, istərsə*

*də böyüklər üçün yazsın, fərqi yoxdur, coşqun ilhamla qələmə sarılaraq sözdən «gülab çəkən – söz ustadı»na (B.Vahabzadə) çevrilir.*

*XX əsrin 60-cı illərində və sonrakı onilliklərdə Azərbaycan uşaq nəsrinin mövzu dairəsi genişlənmiş, sosialist realizminin «formaca milli, məzmunca sosialist» şüarlı ədəbiyyatının «pəncəsindən» xilas olmağa çalışan, bəşəri mövzuları ədəbiyyata gətirməyə cəhd edən, yeni fikir demək istəyi ilə alışıb-yanan fitri istedad sahiblərinin yaradıcılığında yeni çalarlar görünməyə başlamışdı. Çünki bu dövrün yeni nəsli ifrat siyasət və arzuolunmaz ideologiya ilə dolu əsərlərin əlində əsir olmuş, istər-istəməz bu səpgili ədəbiyyatı qəbul etmək məcburiyyətində qalmışdı. Artıq 60-cı illərdə uşaq ədəbiyyatının qarşısında dayanmış, həlli gözlənilən ədəbi problemlərin taleyi mütərəqqi fikirli, ədəbiyyata yeni forma və məzmun, yeni bədii üslub gətirmək arzusu ilə yaşayan psixoloq-yazıçıların qüdrətli qələmindən asılı idi.*

*«Sosialist realizmi» məhfumu loyallaşdıqca bədii uşaq ədəbiyyatında qələmə alınacaq real həyat mənzərələri, obrazların özünəxas mənəvi dünyası, əxlaqi sifətləri, psixoloji-xarakterik xüsusiyyətləri və sair ədəbi hadisələr necə təsvir olunmalıdır sualı yazıçıları dərindən düşündürürdü. Uşaq ədəbiyyatını, xüsusilə uşaq nəsrini siyasətin və ifrat ideologiyanın təhlükəli caynağından, partiyanın məhdud qərarlarının diktəsindən necə xilas etmək olardı?!*

*Əlbəttə, bu problem bütün qələm sahibləri kimi, Z.Xəlili də narahat edirdi, mövcud olan problemlər üzərində gecə-gündüz yorulmadan düşünür, bunun həlli yollarını axtarırdı. O başa düşürdü ki, uşaq ədəbiyyatımızın qarşısında dayanan çoxsaylı problemlərin olması balaca oxucular üçün o qədər də maraqlı deyildir. Bircə onları maraqlandıran budur ki, yaş xüsusiyyətlərinə uygun yeni əsərlər yazılsın, illüstrasiya ilə*

*bəzədilmiş, gözəl tərtibatlı şəkilli kitablar zövqlərini oxşasın. Belə ki, uşaqlar üçün orijinal şeirlər yazan Z.Xəlil uşaq nəsrində də yenilik axtarışına çıxdı, oxucuların qəlbinə yatan, indiyəcən Azərbaycan uşaq nəsrində təsadüf edilməyən, balaca oxucular üçün tamamilə yeni olan üslubda yaradıcılıga başladı. Şair H.Ziya yazırdı: «1981-ci ildə Zahidin «Ballıca» adlı ilk nəsr kitabı çap olundu. Özü də qırx min tirajla. Əlbəttə nəşriyyat risk etmişdi. Ömründə nəsr yazmayan bir adamın bu boyda bir tirajla kitabını çap etmək agılasıgmaz idi. Üstəlik, bu kitaba toplanmış hekayə, nagıl və nagıl-povestlər qətiyyən bizim alışdıgımız üslubda deyildi. «Çiyələk çayının dibindəki oglan», «Cografiya dərsində taxıldan eynək», «Peçenyedən yaranmış qız», «Iki adamcıgaz», «Üçbucaq ölkənin adamları» və sair kimi əsərləri bizim uşaqların qəbul edəcəyinə inanmırdıq. Kitab çıxana yaxın, hətta müəllifin özü də onu çap etdirməyə tələsdiyini güman edirdi. Amma «Ballıca» magazalara çıxar-çıxmaz gözləmədiyimiz hadisə oldu. Kitab tezliklə alındı. Sən demə, uşaqlarda bu cür ədəbiyyata güclü meyl varmış».*

*Kitabın ilk səhifələrində müəllif kiçik hekayələr və nağıl-povestlərin necə yaranmasından bəhs edən orijinal müqəddimə ilə balaca oxucularını ələ alır, ədəbi priyomdan istifadə edərək özünü yenicə yaradacağı qəhrəmanla – Cırtdanla görüşdürür. Onların arasında gedən telefon söhbəti elə təbii təsvir edilir ki, balaca oxucu bunun həqiqət olduğuna inanmaya bilmir.*

*Z.Xəlilin qələmə aldığı kiçik hekayələr öz mənalılığı ilə diqqəti cəlb edir. Az sözlə dərin fikirlər aşılamaq, uşaqları bu fikirlərin iştirakçısına çevirmək, onların düşüncə tərzini formalaşdırmaq əsas məqsəd kimi görünür. «Papaq», «Peçenyedən yaranmış qız», «Güzgü», «Iki adamcıgaz», «Qırmızıpapaq və canavar», «Iki nar», «Qayıq sürən ayı balası»,*

*«Bağırmaq istəyən adam», «Buynyzy gtcişən çəpiş», «Körpə nəğmənin nağılı», «Üçbucaq ölkənin adamları», «Çiyələklərin çəhrayı nağılı», «Cografiya dərsində taxılan eynək», «Günəşi qoparmaq istəyən ayılar», «Ləyaqətli adam və onun qarnı» və sair kiçik hekayələr Z.Xəlilin bişkin bir qələm sahibi olmasından xəbər verir. Yazıçı bu hekayələrdə oxunaqlı və aydın ifadələrlə oxucu ilə obrazlar arasında elə ünsiyyət yaradır ki, oxucu orada, hekaylərin sətirləri arasında öz qəhrəmanlarını görə bilir, onların müsbət keyfiyyətlərini özünküləşdirir, yeni bir aləmə daxil olur, bu mühitdə tərbiyə olunub formalaşır, vətəndaşlıq siması aydınlaşır.*

*Z.Xəlil qələmə aldığı kiçik həcmli nağıllarda süjeti elə məharətlə qurur ki, hadisələrin reallığına, obrazların hərəki fəaliyyətinə şübhə yeri qalmır. Obrazlar və baş vermiş hadisələr elə təsvir olunur ki, bu «yalanlar»ın ikili xarakterini müqayisə etdikdə, yəni «yalan» ilə «doğru» qarşı-qarşıya qoyulduqda, nədənsə yazıçının «yalanları» - fantaziyası daha inandırıcı görünür. Məsələn, «Güzgü» hekayəsi maraqlı süjet əsasında qələmə alınmışdır. Alleqorik üsulda yazılmış bu hekayədə yazıçı bir sıra heyvanların xarakterik xüsusiyyətlərini verə bilmişdir. Güzgünün nə olduğunu bilməyən dovşan, ceyran, canavar, ilan və meymun orada özlərini görsələr də başqa heyvan zənn edirlər, güzgüdə gördükləri heyvanların zahiri görkəmi haqda müxtəlif fikir söyləyirlər. Ceyran öz əksini görüb, doğrudan da gözəl olduğunu, gözlərinə isə söz ola bilmədiyini söyləyir. Canavar özünü elə olduğu kimi – yırtıcı şəklində görür, ilan da öz xarakterindən yan keçə bilmir, zəhərli olduğunu, hamını çala biləcəyini təsdiqləyir. Meymun isə öz eybəcərliyini güzgüdə görə bilmir.*

*Yaxud, «Üçbucaq ölkənin adamları» hekayəsində yazıçı yenə də zəngin fantaziyasını işə salaraq maraqlı bir hadisəni qələmə alır. Hekayədəki əhvalatlar fantastik təsvir olunsa da,*

*yazıçı balaca oxucularını inandıra bilir.*

*Z.Xəlil bütün hekayələrində oxucusuna yeni söz deməyə çalışır, onun təfəkkür tərzini genişləndirir və sübut edir ki, kiçik həcmli uşaq hekayəsində də ciddi ictimai fikirlər yürütmək mümkündür. «Azmanın nağılları» isə mövzu əhatəsinə görə daha genişdir. Kitaba daxil edilmiş «Ballıca», «Cumbulu», «Fındıqburun», «Dünyanın ən balaca adamı», «Qəlbinurun başına gələnlər» adlı nağıl-povestlər xalq nağılları ruhunda qələmə alınmışdır və maraqlı süjetləri ilə uşaqları özünə cəlb edir.*

*Z.Xəlil bu əsərlərində maraqlı, təkrarolunmaz obrazlar yaratmışdır. Əfsanəvi qüvvəyə malik olan Hünər, dosta, yoldaşa sadiq Qeyrət, ətrafındakıların hamısından qoçaq görünən Ballıca, öz ağlı və fərasəti ilə başqalarından seçilən Cumbulu, məğrur xarakterli, mərd təbiətli Qəlbinur, cəsarəti ilə baş qəhrəmandan geri qalmayan cırtdan boylu Aygəz, çoxbilmiş Əhməd və digər personajlar diqqəti cəlb edir. Nağıllar öz orijinallığı ilə seçilir, təsvir edilən hadisələrin və obrazların təbiiliyi ilə yadda qalır.Yazıçının məharəti ondadır ki, o, əsərin qəhrəmanlarını «heç nədən» yaradır. Məsələn, uşaqların başını adi plastilindən, gözlərini iki muncuqdan, burnunu fındıqdan düzəltdikləri adamcığazlar yazıçının qəhrəmanlarına çevrilirlər.*

*Z.Xəlilin yaratdığı uşaq obrazlarını xarakterizə edərkən belə bir qənaətə gəlmək olur ki, onun əsərlərində təsvir edilən qəhrəmanlar ədəbiyyatımızda yeni görünür, mənəvi xüsusiyyətlərinə görə seçilirlər. Onun nəsr əsərlərinin gücü də elə obrazların xarakteri ilə bağlıdır.*

*Yazıçının demək olar ki, bütün nəsr əsərlərində şən əhvali-ruhiyyə, uşaq təbiətinə məxsus incə, şirin yumor duyulur. Hekayələrin bir çoxunda təsvir edilən uşaqların davranışı və xarakterində müşahidə edilən mənfi cəhətlər yumorla*

*verilir, onlar elə bu yumorun gücü ilə də əsərin sonuna qədər islah olunurlar. Məsələn, yazıçı «Qədir» əsərində Qədirin bütün fəaliyyətinə yumorla yanaşır, bəzən isə onu fantastik həddə çatdırır. Iri gövdəyə malik olsa da əlindən heç nə gəlməyən Qədirin «qiymətini» əsərin sonunda belə səciyyələndirir: «Bir sözlə, Qədirin istedadının çox cəhəti açıldı. Heyf ki, natiqlərin çox danışdıqları üçün boğazları qurudu və vaxtında su içə bilmədiklərinə görə xeyli öskürməli oldular. Amma bu, onların heç veclərinə də gəlmədi. Çünki nə qədər əziyyət çəksələr də həqiqəti açdıqları üçün özlərini xoşbəxt hesab edirdilər.*

*Bax, Qədir belə Qədirdi».*

*Z.Xəlilin nəsr yaradıcılığında Cırtdan ən çox təsvir olunan obrazlardan biridir. Cırtdan özünün xeyirxah əməlləri ilə yadda qalır: küləyin yuvadan  saldığı bülbül yumurtasını yerinə qoyur və bu xeyirxahlığa görə bülbül ona qeyri-adi bir tütək bağışlayır. Cırtdan həmçinin əsl novator kimi diqqəti cəlb edir. Cırcıramanın uçuşunu müşahidə edərək düzəldəcəyi vetolyotu təsəvvüründə canlandırır. Müxtəlif detallardan istifadə edərək iki ay müddətində bu uçan maşını tamamilə quraşdırır.Yazıçı təsvir etdiyi əhvalatlara oxucunu inandırmaq üçün reallığa azacıq yaxın olan motivlərdən yararlanır.*

*«Cırtdanla Azmanın yeni sərgüzəştləri» nağıl-povestində bədii dilin sadəliyi, qanadlı yazıçı fantaziyası, coğrafi və etnoqrafik ekzotikanın zəngin bədii təsviri və digər yadda qalan cizgilər oxucunu ələ alır. Uşaqların anlam səviyyəsində təsvir olunan maraqlı əhvalatlar onları nağıllar dünyasına aparır, qitələri qarış-qarış gəzdirir. «Qeyri-adi tütək», «Meymun balasının xilas olunması», «Dənizlə üfüqün birləşdiyi yerdəki ada», «Cırtdanın mavi gözlü oğlanla tanış olması», «Azmanın Cırtdanı axtarmağa başlaması», «Meymunlarla çölpişiyinin dalaşması», «Cırtdanın qulağının dibindən güllə keçməsi və ovçunun tüfənginin suya düşməsi», «Azmanın şələsi»,*

*«Cırtdanın ayaqqabısının itməsi və şəhər televizorlarının xarab olması» və sair nağıllar olduqca maraqlı süjet əsasında qələmə alınmışdır.*

*Z.Xəlilin istər xalq yaradıcılıq ruhunda olan, istərsə də digər müasir real həyat səhnələri təsvir olunan əsərlərində obrazlı dil, poetik fikir, poetik obrazlılıq diqqət çəkir, poetik üslubi vasitələrin zənginliyi bu əsərlərin dəyərini öz ölçüsü qədər artırır. Yazıçının bədii dilində, təsvirində, obrazların danışıq tərzində, fantastik hadisələrin poetik lövhəsində təbiilik duyulur, əks olunmuş səhnələrin fantastik reallığına inanmamaq olmur. Real və ya nağılvari həyat hadisələrinin bədii inikası, süjet rəngarəngliyi, müxtəlif xarakterli obrazların mövcud həyat hadisələri ilə dinamik vəhdətdə olması əsas məziyyətlərdən biri kimi diqqət çəkir. Müəllif Çıraq nənənin nağılları söyləməsi səbəbini belə təsvir edir: «Bacısı qızı Lampacığın isə yüngüllüyü onun heç xoşuna gəlmirdi. Nə qədər öyüd-nəsihət edirdisə xeyri olmurdu. Bir dəfə bu evdə elə bir hadisə baş verdi ki, Çıraq nənə onu heç zaman yadından çıxartmaz».*

*Z.Xəlil bir uşaq yazıçısı kimi bütün yaradıcılığı boyu müasir ədəbi prosesin məfkurə istiqamətini dərk etmiş, Vətənə məhəbbət hissləri aşılayan, şüurun formalaşmasına xidmət edən əsərlər yazmağı daha üstün tutmuşdur. Azərbaycan uşaq nəsrinin inkişafında müasirlərindən seçilən Z.Xəlil uşaq dünyasının, uşaqların xəyal aləminin bədii inikasını yaratmaq üçün poetik sintaksisin sehrli və sirli boyalarından məharətlə istifadə edir, uşaqların bədii zövqünü formalaşdırmaqdan ötrü bütün imkanlardan yararlanmaq qüdrətinə malikdir. Uşaqlarla birlikdə bütün yer üzünü gəzmək, orada yaşayan saysız-hesabsız insanları, ucsuz-bucaqsız səhraları, torpaqları, ümmanları onlara göstərib, onları təbiətin hər üç aləmi ilə tanış etmək Z.Xəlilin nəsr yaradıcılığının əsas*

*məziyyətlərindəndir. Azərbaycan uşaq nəsrində öz orijinal bədii təsviri, yorulmaz axtarışları ilə ərsəyə gətirdiyi təkrarolunmaz obrazları, uşaqlar üçün olduqca maraqlı və möcüzəli görünən əlçatmaz nağıllar dünyası, onların yenicə oyanmış şüurunda iz salmış inanılmaz, lakin yazıçı qələmi ilə inandırıla bilən fantastik hadisələr və sair bədii xüsusiyyətlər onun yaradıcılığı haqqında tam aydın təsəvvür yaradır.*

*Zahid Xəlil öz poetik duyğularını ağ kağız üzərinə düzən andan bu günə kimi yaradıcılıq yollarında asan addımlar atmamışdır. Sənətin taptanmamış cığırları ilə qarış-qarış irəliləyən şair-yazıçının qarşısına kötük diyirlədənlər də az olmamışdır. Bir şeir və ya hekayəsini dərc etdirmək üçün ədəbi mühitin çətin, mürəkkəb və labirintli yollarında duruxub qaldığı vaxtlar da olmuşdur. Özünə də məlum olmayan səbəblər üzündən şeirlərinin, sonralar balaca oxucuların sevimli kitabına çevrilən «Ballıca»nın nəşriyyat planından çıxarılması halları ilə də üzləşmişdir. Lakin fitri istedadının gücü və xeyirxah qələm sahiblərinin qayğısı nəticəsində qarşıya çıxan maneələri keçə bilmişdir.*

*Bədii söz yaradıcılığı ilə nəfəs alanların ədəbi mühitdə parlaması üçün bəzən istedad kifayət etmir, onların qayğıyı böyük ehtiyacları olur. Z.Xəlil müxtəlif maneələrlə rastlaşsa da, ədəbiyyatda öz dəst-xətti ilə seçilən qələm sahibləri ona qayğı ilə yanaşdılar və yaradıcılıq istiqamətini müəyyən etdilər. O, özü müsahibələrinin birində qeyd edir ki: «…Bakıya qayıdanda yaradıcılıq planlarımla bağlı ilk məsləhətçim hörmətli şairimiz Ilyas Tapdıq olub. O məni çox böyük qayğıkeşliklə qarşılayıb dinlədikdən sonra bildirdi ki, bəlkə uşaqlar üçün şeirlər yazasınız. «Uçan çıraqlar» və «Quşəppəyi» şeirlərim məni uşaq aləminə qırılmaz tellərlə bağladı».*

*Bu qayğı və xeyirxahlıqdan daha çox həyatı yenicə dərk etməyə başlamış minlərlə uşaqlar – balaca oxucular qazandı.*

*Ədəbi mühitdə oz orijinal üslubu ilə seçilən bir uşaq şair-yazıçısı meydana gəldi və illər ötdükcə o, yaradıcılıq yollarını aradı, bir sənətkar kimi püxtələşdi, uşaqlara yeni-yeni maraqlı əsərlər bəxş etdi. Oynaq poeziyası dillərdə əzbər oldu, nəsr yaradıcılığından söz düşəndə ədəbi tənqiddə «qətiyyən bizim alışdığımız üslub deyildir, orijinal üslubdur» fikri formalaşdı.*

*Z.Xəlil yaradıcılığı geniş vüsət aldı, Respublikamızın hüdudlarını aşaraq Rusiyanın adlı-sanlı, tanınmış qələm sahiblərinin, o cümlədən ədəbi tənqidinin diqqətini özünə cəlb etdi. Bununla yanaşı, dünya xalqlarının dillərinə tərcümə olunmağa başladı.*

*80-ci illər Z.Xəlilin yaradıcılığında sürətli inkişaf dövrü kimi qeyd olunmalıdır. Az bir müddət içərisində o, Azərbaycan və rus oxucularının sevimli şair-yazıçısına çevrildi. Buradan aydın olur ki, bu yazıçı üçün oxucu məhdudiyyəti yoxdur və milliyyətindən asılı olmayaraq hər bir oxucunun mənəvi tələbini duya bilir, onu söz sehrinə sala bilmək iqtidarına malikdir.*

*Rus tənqidçisi I.Motyaşov Z.Xəlil poeziyasını dərindən təhlil edərək onun yaradıcılıq sirrini açır: «Zahid Xəlilin şeirlərində dünya olduqca mərhəmətli, işıqlı, rəngarəngdir (bu yaxınlarda çıxmış kitabı da «Mən rəngləri tanıyıram» adlanır), gur səsli, harmonikdir».*

*Z.Xəlilin həm elmi, həm də bədii yaradıcılığına yaxından bələd olan rus tənqidçisi I.Motyaşov onun daha bir sirrini açır:« Zahid Xəlil ona görə diqqəti cəlb edir ki, o, təkcə ədəbiyyat tarixçisi və tənqidçisi deyil, hər şeydən əvvəl yaxşı uşaq yazıçısıdır. Z.Xəlilin uşaq ədəbiyyatına gəlmə səbəbi onun yaradıcılıq axtarışları və sənətdə novatorluğu ilə bağlıdır, bu isə müasir Azərbaycan uşaq ədəbiyyatında daha tipik səslənir».*

*Z.Xəlilin geniş bədii yaradıcılığı Respublikamızın sərhədlərindən kənara çıxdıqca ədəbi əlaqələri daha da*

*genişləndi. Müxtəlif dünya xalqlarının qələm sahibləri: şair və yazıçıları, tərcüməçi və tənqidçiləri onun yaradıcılıq laboratoriyasına daha dərindən nüfuz etməyə başladılar. Yüz min tirajla yayımlanan «Detskaya literatura» jurnalı Z.Xəlil yaradıcılığının təhlili və təbliğinə geniş yer ayırdı. Jurnalın baş redaktoru, dəfələrlə Dövlət mükafatına layiq görülmüş rus yazıçısı S.Alekseyev Z.Xəlilin yaradıcılığını daim izləyərək onun uşaq poeziyası və nəsrinin bədii dəyərini yüksək qiymətləndirərək yazır: « Zahid Xəlil Azərbaycanın görkəmli müasir uşaq yazıçılarından biri kimi tanınır. Şair, nağılçı-yazıçı, tərcüməçi və tanınmış Azərbaycan uşaq ədəbiyyatı tədqiqatçısı kimi Respublikadan uzaqlarda da məşhurdur. Bizim jurnalın səhifələrində Z.Xəlilin əsərləri dəfələrlə təhlil edilmiş, tənqidçilər onun yazıçılıq manerasının milli cizgilərini xüsusi vurğulamış və bununla yanaşı, onun müasirliklə bağlı qaldırdığı zəruri problemlər barəsində fikir söyləmişlər».*

*Z.Xəlil müasir uşaq ədəbiyyatı sahəsində dünya ədəbi mühitinə ilk pəncərə açan Azərbaycan sənətkarlarından biri kimi öz qiymətini almışdır.*

*Z.Xəlilin çap olunmuş şeir və nəsr kitablarını xronoloji ardıcıllıqla düzsək görərik ki, o, böyük ədəbi inkişaf yolu keçmişdir. «Uçan çıraqlar» (1969), «Qarışqalar» (1971), «Mən rəngləri tanıyıram» (1972), «Göydən üç alma düşdü» (1974), «Quşlar, quşlar» (1977), «Torağaylar oxuyur» (1979), «Ballıca» (1981), «Çıraq nənənin nağılları» (1983), «Cırtdanla Azmanın yeni sərgüzəştləri» (1986), «Mavi dəniz sahilində» (1986), «Salam, Cırtdan!» (1986), «Dünyanın ən balaca nağılları» (2002), «Orxan və dostları» (2004), «Qızlar şeir oxuyur sevgi yaşında» (2007) və sair əsərləri uşaq və gənclərin təlim-tərbiyəsində, onların bədii zövqünün formalaşmasında, mənəvi-estetik dəyərlərin bütövləşməsində mühüm rol oynamışdır. Uşaqlar bu kitabları oxuduqca özlərini Z.Xəlil poetikasının*

*sehrində, nağıllar dünyasının sirli aləmində hiss edirlər. Ayrı-ayrı epik şeir və hekayələrdəki müxtəlif xarakter və psixologiyaya malik olan uşaq obrazları ilə tanış olurlar.*

*Azərbaycan uşaq nəsrinin inkişafında öz yaradıcılıq axtarışları ilə seçilən Z.Xəlil uşaq dünyasının, uşaqların xəyal aləminin bədii inikasını yaratmaq üçün poeziyanın sehrli və sirli boyalarından məharətlə istifadə etmiş, uşaqların estetik-bədii zövqünü formalaşdırmaqdan ötrü bütün imkanlardan* ustalıqla yararlanmışdır.

**Füzuli Əsgərli**
*F.e.n., dosent*

# UŞAQ ŞEİRLƏRİ

## UZUN YOL

- Damcı, hara gedirsən?
- Bulağa qarışmağa.
Damcılar sıralandı
Bir buz bulaq yarandı.

- Bulaq, hara gedirsən?
- Kür çayına çatmağa.
Bulaq Kürə qovuşdu
Kür də sevindi, coşdu.

- A kür, hara gedirsən?
- Zəmilərə, bağlara!
Kür axdı boz çöllərə
Yaşıllaşdı dağ - dərə.

- Uzun yollar keçərək
Damcı xoş gəldin bağa!
İndi hara gedirsən?
- Bax o uca budağa.

Budağın lap başında
Onun keyfi saz oldu.
Sallandı başaşağı
Yumru bir gilas oldu.

Gün vurdu, sırğalandı,
Meh əsdi, yırğalandı.

## ÇİYƏLƏK

Çil - çil xallı çiyələk
Tapılmayır nə edək?
- Aha, - aha, bir baxın,
Yarpağını görmüşəm!
- Mən o qırmızıdonun
Saplağını görmüşəm.
Topasına baxın bir!
Bunu tapan oğuldu.
Görən bu çiyələkdi
Ya qırmızı noğuldu?!

## ULDUZLAR

Göyün mavi üzündə
Gör nə qədər ulduz var.
Qorxuram bir - birinə
Dəyər, sınar ulduzlar.
Ulduz var düymə - düymə
Ulduz var damla - damla.
Göz qırpıb söhbət edir
Bu ulduzlar adamla.
Yaşar, Vüqar, Şəlalə,
Gülnur, Zəlihə, Lalə...
Bu balaca ulduzlar
Ulduzlardan danışır:
- Ulduzlar dənizdəki
Balıqların gözüdür?!
- Yox göydə tonqal yanıb
Parıldayan ulduzlar
O tonqalın közüdür.
- Saymaqla da qurtarmaz
Neçə yüzdür ulduzlar.
Bəlkə elə nə közdür,
Nə də gözdür ulduzlar?!
Günəş ucsuz göylərə

Muncuq səpələyibdi.
Ya da ki, Ay səmada
Buğda xəlbirləyibdi?!
Atam deyir insanlar
Uça bilər ulduza.
Bəs niyə dayanmışıq
Onda gəlin, biz uçaq
Səhər - səhər ulduza.
Ucadan dindi Vüqar
Sevindilər uşaqlar.
O parlaq ulduz mənim,
Yekəsi Şəlalənin,
Balacası Gülnurun,
Gözvuranı Lalənin,
Bax o ulduz oxşayır
Zəlihənin gözünə.
Onu da bağışlayaq
Dəcəl qızın özünə.
Ulduzların altında
Altı ulduz danışır.
Göyün yeddi qatında
Ağ ulduzlar sayrışır.
Körpələr ulduzlara
Baxır məhəbbət ilə.
Ulduzlar körpələrə
Göz vurur həsrət ilə.

## TORAĞAYLAR OXUYUR

Bahar gəldi, bahar gəldi,
Şəlalələr çəkdi haray.
Quşlar uçdu dəstə - dəstə,
Quşlar uçdu alay - alay.
Çöllər bahar həvəsiylə
Həzin - həzin səslənəndə,
Bir quş verdi torpağa hay.
Bunu görən başqa quşlar
Ona ad qoydu: “Torağay”!
İlk baharın gəlişinə
Torağaylar nəğmə dedi.
Torağaylar bu torpağın
Quşa dönmüş nəğməsidi...

## ARI VƏ KƏPƏNƏK

Çəməndə bir kəpənək
Arını qoydu lağa:
- İynəsi iti, acı,
Qanadları lüt bacı!
Nəyə gedirsən bağa,
Gəl gedək oynamağa!
Cavab vermədi arı,
Getdi dağlara sarı.
İşlədi axşamacan
Pətəyə bal daşıdı.
Çiçəklərin şehindən
Qanadları yaş idi.
Gördü xallı kəpənək
Arının inadını,
Çiçəklərin içində
Gizlətdi qanadını.

## QATIR

Qatıra bax, qatıra,
Deyir:
- Qoşun qatara,
Onu çəkib aparım.
Dedilər ki, a qatır,
Sən eşşəksən, yoxsa at?
Dedi: - Heç tələsməyin
Başa salım bu saat:
Anam at, atam eşşək
Gəl bu sualdan əl çək.
İstəsəm lap maşını
Təkbaşına dartaram
Eşşəkdən də, atdan da
Qüvvətliyəm, qatıram!

## BİLDİRÇİN

Yaşıl kolun dibində
Oxuyurdu bildirçin:
“ Ovçu bizim yerimizi
Bildi neyçin, bildi neyçin.
Mənim körpə balalarım,
Uçun, qaçın! Uçun, qaçın! ”
Birdən körpə bildirçin
Oxudu için - için:
“ Anam hayanda qaldı
Bir... bir...bir dinsin.”
Körpəsinin səsinə
Haray verdi bildirçin:
“ Ovçu yoxdu, beçələr
Öz yerini bildirsin.”

## QIRQOVUL

Ovçu dedi astadan:
Qırqovuldu, vur oğul!
Bu sözdən heç qorxmayıb
Dedi körpə qırqovul:
- Məni tutmaqdan ötrü
Gərək qova qırx oğul.
Ana onu danladı:
Ovçulardan qorx, oğul!
Axı, quşlar qorxaq olur,
Sən də quşsan, qorxaq ol.
Gizlən arxın döşündə
Saxlar bizi arx, oğul.
Anan səni qoruyar,
Sən də ona arxa ol!

Su arxının döşüylə
Qaçdı körpə qırqovul.
Balaca bir təpəni
Aşdı körpə qırqovul.

## DAMCILAR

Bir - birindən yapışan
Damcıya bax, damcıya
Bir - birindən tutanda
Oxşayırlar qamçıya.
Damcılar gör nə çoxdu,
Beşdi, ondu, yüz idi...
Damcılar mirvaridi, -
Damcılar quş gözüdü.
Bircə - bircə düşürdü,
Damcılar yavaş - yavaş.
Baxıb o damcılara
Lovğalanırdı bir daş:
- Damcılar bir - bir damıb
Bulaqlara yığılar.
Damcılar bərk deyil ha
Əl vursanız dağılar.
Amma mən möhkəm daşam
Qayalara yoldaşam...
Bu sözləri eşidib
Damcılar qəzəbləndi,
Bir - birini qovaraq
Qayalardan ələndi.
Onlar növbəylə durub
Eyni yerə düşdülər
Axırda bu lovğanın
Təpəsini deşdilər...

## HACILEYLƏK

Gəl qon bizim bağçaya
Hər il gələndə bahar
Ağacların başında
Səbət boyda yuvan var.

İlanları görəndə
Fikirləşmə bircə an.
Şaqqıldat dimdiyini
Yapış düz boğazından.
Axı ilan quşların
Yuvasını tez görür.
Yeyir yumurtasını,
Körpəsini öldürür.

Sən ilanın qənimi,
Biz də sənin dostunuq.
Dağıtmarıq yuvanı
Gəl həmişə dost olaq.

## HESAB

Bir qoz düşdü ağacdan
Ortasından bölündü.
İki parça ləpəni
Üç qarğaya böl indi.
İkisinə düşdü pay
Birisi saldı haray.
Düşdü yenə iki qoz
Hər qoz iki üz oldu.
Qarğalar sevindilər:
- Hesabımız düz oldu!
Babam dedi: - Uşaqlar,
Qarğanın sayı üçdü:
Altı dənə ləpədən
Hər qarğaya nə düşdü?

## BÜLBÜL

Nə qəşəngdir bülbülün
Gözlərinin qarası.
Bapbalaca sinəsi -
Yumurtanın sarısı.
Tükləri bənövşənin
Ləçəyindən incədir.
Ayağını güllərin
Tikanları incidir...

## QORUQ

- Bax, bu gördüyün dağın
Döşü tamam moruqdu,
Amma gedə bilmədik...
- Niyə?
- Çünki qoruqdu!
- Belə də qoruq olar,
Harda görünübdü bu?!
- Qonur ayı yaradıb
Bu gördüyün qoruğu.
Deyir ki, qoy yetişsin
Sonra yüyək moruğu.

## KƏKLİK

Qovduq
Yorduq
Kəkliyi.
Quyruğu
Yoluq
Kəkliyi.
Üstünün
Naxışları
Çaylağın daşı kimi
İçməyə
Su axtarır
Duru göz yaşı kimi.

## DAVAKAR SƏRÇƏ

Ayağının altında
Qarı əzirdi sərçə
- Mən hamıdan güclüyəm
Deyib gəzirdi sərçə.
- Aha, buzun altında
Başqa bir sərçə də var
Yaxşı düşdün əlimə
Səni döysəm nə olar?!
Zoğal boyda dimdiklər
Birdən uc - uca gəldi.
Buzun üstəki sərçə
Coşub lap gücə gəldi.
Dimdiyi sındı birdən
Tələsik uçdu yerdən
Buza düşən şəkliymiş
İndi anladı sərçə.
Özünü ürəyində,
Möhkəm danladı sərçə.

## KÜR ÇAYI

Gör nə qədər enlidi,
Çox dərindi Kür çayı.

Sahildə qatarlanan
Ağaclar sevir çayı.

Necə də qucaqlayıb
Ağ qovaqlar gör çayı.

Azərbaycan elinin
Həm uzun, həm gur çayı.

## LƏPƏLƏR

Köpüklənib göy dəniz,
Ləpələr ağbaşdılar.
Qaçdı - tutdu oynayan
Bir neçə yoldaşdılar.
Bir - birini qovdular,
Göy təpələr aşdılar.
Başlarının üstündə
Qağayılar uçdular.
Qəşəng qanadlarıyla
Ağ yelkənlər açdılar.
Xırda - xırda balıqlar
Bu oyunda çaşdılar.
Dəcəllərin yolundan
Bir kənara qaçdılar.
Sahildə göy ləpələr
Möhkəm qucaqlaşdılar.

**CÜLLÜT**

Gör nə balaca quşdu,
Boynu azacıq lütdü:
Qondu bir gölməçəyə
Cüllütdü bu,cüllütdü.

Qulaq asıb hər səsə,
O tələsə - tələsə,
Balaca gölməçədə
İstəyir balıq gəzə.

Körpə balıqlar isə
Bir anda ondan qaçdı.
Cüllüt heç nə tapmadı
Burdan əliboş uçdu.

## QƏLƏMİM

Köynəyi al lalədən,
Qırmızırəng qələmim!
Gəl mənim dəftərimə
Xoruz çəkək qələmim.

Onu elə çəkək ki,
Tükləri çiçək olsun.
Lələyi qövsi - qüzeh
Gözü mərcimək olsun.

Dimdiyi əyri olsun
Dəhrəburun xoruzun
Caynağı qarmaq kimi
Quyruğu da lap uzun.

Sinəsini qabardıb
Ayağını cütləsin.
Mənim qəşəng xoruzum
Çox uzağa getməsin.
Başla, xoruzu çəkək,
Di bir az tələs görək!

## QURBAĞA

Bir yekə "M" hərfinə
Oxşayır bu qurbağa.
Tərpənməyir, elə bil
Yapışıbdır torpağa.

## ALÇA

Asılıbdı ağacdan
Yaşıl - yaşıl muncuqlar
Gün çıxanda parlayır
İşıl - işıl muncuqlar.

## YAXMA

Gülnur yedi
Yağ yaxması
Yağa batdı
Ağ yaxası.

## GÖZMUNCUĞU

Bir şeh damlası
Dedi böcəyə:
Gözmuncuğuyam
Gülə - çiçəyə!

## QAZAYAĞI

Mahir yaşıl çəməndə
Gördü qazayağını:
Dedi: - Yəqin itirib
Bir qaz öz ayağını.

## GİLAS

Bax, bu ağac gilasdı,
Yaz gəldi bu ağacın
Budağından gül asdı.
Sonra güllər büküldü,
Ləçəkləri töküldü.
Yaşıl - yaşıl düymələr
Böyüdü gilas oldu.
Sırğa - sırğa damcılar
Budaqlardan asıldı.

## DOVŞAN VƏ KÖPƏK

Sarı dovşan bostandan
Qarpız oğurlayanda
Keşik çəkən boz köpək
Duyuq düşdü bir anda.
Yüyürdü hürə - hürə:
“ Bu bostana kim girə? ”
Yumaq kimi büzüşüb
Dovşan kola girmişdi.
Boz köpək ona baxdı
Elə bildi yemişdi.
Bir az sərçəyə hürdü,
Bir az kölgəyə hürdü,
Gəlib çardağın altda
Yenə yerinə girdi.

## İYDƏ

Gör neçə salxımlanıb,
Onun adı iydədi.
Ayağı yerin altda
Budaqları göydədi
İynəsilə öyündü
İynələri düyündü
Gəl yığaq düymələri
Gəl yığaq iydələri
Neynirik iynələri

## KEÇİ VƏ ƏZİZ

- Mənim saqqallı keçim,
Bir badya süd ver içim.
 - Ay mənim dostum, Əziz
Gəl belə şərtləşək biz:
Otar şehli çəməndə
Süd verim sənə mən də.
Razılaşdı bu sözlə
Əziz: - Lap yaxşı, - dedi.
O, keçini otardı
Hər səhər qaymaq yedi.

## DİLARƏNİN DANASI

Dilarənin danası
Hər gün qaçır naxırdan.
Bu qəşəng qız neyləsin,
Təngə gəldi axırda.
İstəmədi danası
Danalarla görüşə.
Hirslənib danasını
Buraxmadı örüşə.
Dana damda tək qalıb
Axşamacan mələdi.
Dilarəyə: “Bircə an
Mənə yaxın gəl” -  dedi.
Dilarə də buraxdı
Onu damdan axırda.
İndi dana qaçmayır
Axşamacan naxırdan.

## KÜLƏK VƏ MƏLƏK

Mənim adım Mələkdi
Onun adı Küləkdi.
Küləklə dost olmaram
Çünki işi kələkdi.
Qızılgüllər əkmişdim.
Görün bir neçə ləkdi!..
Yolub tökdü onları
Yaman dəli küləkdi.
Külü küllükdən aldı
Hər tərəfə kül əkdi.
Yenə də bel götürüb
Bağçamızı bellərəm.
Əkərəm, suvararam
Hər tərəfi güllərəm
Hasarlaram bağçanı
O külək girə bilməz,
Nə tutu, gilənarı,
Nə gülü görə bilməz.
Onun adı küləkdi
Mənimki də Mələkdi.
Dəli - dolu küləyə
Ancaq belə gərəkdi.

## GÜNƏŞ VƏ NAR

Payız çoxdan yetişib,
Hər yana qırov düşüb.
Qızarıbdır nar kolu
Onu küləklər yolur.
Üstündə bircə nar var
Bəs günəş haçan doğar?!
Payız günəşi doğdu
Qıpqırmızı şar kimi.
Göydən asıla qaldı
O da yekə nar kimi.
Nar dedi: - Çox sağ ol, sən
Belə tezdən gəlmisən.
Gözləməkdən yoruldum
Darıxmışdım az qala.
Küləklər istəyirdi
Məni budaqdan sala.

## FƏRRUXUN DİŞİ

Dişi mırıqdı, Fərruxun
İşi fırıqdı, Fərruxun
Armud demir,
Alma demir,
Çəkir dişə,
Dişi də ki,
Düşür bir - bir
Gəlmir işə.
Heyvaya bir
Dişdəm çaldı
Dişdəmdə bir
Dişi qaldı.
Dişi mırıqdı, Fərruxun
İşi fırıqdı, Fərruxun.
Dedim: - Fərrux,
Çəkmə fikir.
Çıxacaqdı
Dişin bir - bir.
Çıxacaqdı iynə dişlər.
Balta dişlər,
Düymə dişlər.
Onda heç kəs
Deyə bilməz:
Dişi mırıqdı, Fərruxun
İşi fırıqdı Fərruxun.

## İSGƏNDƏRİN İŞLƏRİ

Tərsinədir deyəsən
İsgəndərin işləri.
Uşaqlar qışqırırlar:
- Yoxdu qabaq dişləri.

Çantasını düz tutub
Hər şey edir tərsinə.
Dərsdən qaçıb İsgəndər
Evə gedir tərsinə!

Tərsdir ayaqqabısı,
Köynəyi dal - qabaqdır
Görən bu İsgəndərdi,
Yoxsa ki. balqabaqdır?!

- Müəllim bəs nə dedi
Yazmadığın dərsinə?
Cavabına baxın bir:
- Mən beş aldım, tərsinə!

## M A Y

Şeh səpdi may günəşi
Uçuşdular böcəklər.
Meh əsdi göy çəməndə
Uğundular çiçəklər.

Puçurlamış ağaclar
Sevindi uşaq kimi.
Lalələr çəmənlikdə
Yelləndi bayraq kimi.

Gül - çiçək səpə - səpə
Nə xoş gəlib bu il may!
Bir gümüşü lent kimi
Çəmənliyə düşüb çay.

Bu gün hamı bəzənib,
Hər uşaq bir çiçəkdi.
Qızların ağ lentləri
Elə bil kəpənəkdi.

Şöləsini günəşdən
Alıb bizim bayraqlar.
Onları əllərində
Möhkəm tutub uşaqlar.

## YALAN – PALAN

Gəlin yalan danışım,
Yalan – palan danışım.
Yalan – yalan içində,
Köhnə palan içində.
Ulağı çək qırağa,
Palanı qoy ulağa.
Çapaq Araz boyunca,
Yalan deyək doyunca.

## YALANÇI MEŞƏ

Bir yalançı meşə var,
Burda nə var yalandı.
Ağ dələlər yalandı.
Boz çaqqallar yalandı.
Yoxdu ağıl - kamalda
Ayının tayı burda.
Cəbrdən, həndəsədən
Dərs deyir ayı burda.
Bu meşənin işləri
Kökündən baş – ayaqdı.
Burda dovşanlar qoçaq,
Canavarlar qorxaqdı.
Xoruzlar, qarışqalar
İgiddi, pəhləvandı.
Bu meşənin işləri
Lap kökündən yalandı.

## DOVŞAN VƏ CANAVAR

Qaçırdı boz canavar
Bir dovşanın əlindən
Deyən patrondan asıb
Həmin dovşan belindən.
Boz canavar bağırır,
Köməyinə çağırır.
Yoldan ötüb - keçəni:
- Dovşanda insaf hanı,
Öldürəcəkdir məni!
Dovşanın keyfi sazdı.
Yellənən qulaqları
Hərəsi bir palazdı.
Dovşan qurdu haqladı,
Quyruğundan saxladı.
Gəldi boz qoç, ağ qoyun,
Başlandı min cür oyun.
Oynaqla ha, oynaqla!
Çoban gəldi çomaqla.
Canavarı götürüb
Bir qazana basdılar.
Qaldırıb bu qazanı,
Gur tonqaldan asdılar.
Qışqırırdı canavar:
- Ölürəm mən, ay havar.
Deyirdi: - Ürəyimdə
Qalmasın qoy bir arzu.

Heç olmasa son dəfə
Verin bir körpə quzu.
Çəkim onu dişimə
Çıxıb gedim işimə.
Kəlbətin gətirdilər,
Çəkdilər dişlərin.
Dedilər qoy bu gündən
Tərgitsin işlərini.
Sonra qazan qaynadı,
Qoyun, keçi oynadı.
Meşəyə düşdü haray
Çaldılar, çağırdılar.
Vay dədəm vay, nənəm vay,
Bu boyda yalan olar?!

## TÜLKÜ VƏ BEÇƏLƏR

Gəlib çıxıb bu gecə
Meşəyə xoruz – beçə.
Görən kimi kürkünü,
Tanıdılar tülkünü.
Ayağından tutdular,
Quyruğundan tutdular,
Onu yerə yıxdılar
Sinəsinə çıxdılar.
- Nə vaxtacan sən bizi
İncidəcəksən bizi?
Görəydiniz tülkünü
Qabartmışdı tükünü.
Xırıldayırdı səsi,
Kəsilmişdi nəfəsi.
Sökülmüşdü boz kürkü
Tülkülənirdi tülkü,
Bir az ları xoruza,
Bir az qara xoruza…
- Bir də hinə gəlmərəm,
Sinə - sinə gəlmərəm.
Daha məni buraxın,
Taqətim yoxdur, axı!
Xoruzlar aşıb daşır
Beçələr qaqqıldaşır.
Eh nə gözəl gecədi,
Söylə görüm necədi
Aran belə yalanla?
Bu da yalan – palandı
Lap doğrudan yalandı.

## İKİ YUMURTA

İki dümağ yumurta
Yumru, yumaq yumurta
Oynadılar, qaçdılar
Oynadılar, coşdular.
Kiçik çıxıb böyüyün,
Çiynində durdu səssiz
Bu iki ağ yumurta
Çevrilib oldu səkkiz.

Sən bir bax, birə bax!
Yekəburun, təkayaq.
Gəlib dedi səkkizə:
- Mən də qoşulum sizə.
Çönüb səksən bir olaq
Səkkiz dedi: - Sən birsən,
Yoxsa əyribaş çomaq?
Bir yamanca hirsləndi
Birdən dindi, nə dindi:
- Sən də lap yumrubaşsan,
İki xırdaca daşsan!
Səkkizlə bir dalaşdı
Eh, bir qaçdı, nə qaçdı!
Yüyürdü yorta - yorta,
Onun da arxasınca
Qaçdı iki yumurta.
Döngənin lap başında

Bir - birinə çatdılar.
Yumurtalar axır ki,
Dəcəl biri tutdular.

Dayandılar yanaşı
Sıraları düz oldu.
İşə baxın, ay aman,
Onlar çönüb yüz oldu!
Sevindi yumurtalar
Lap sevindi çomaq da
Eşidib əhvalatı
Mən də -  yazdım bu haqda.

**“ 2 ” ӘHVALATI**

Bir buna bax, buna bax,
İki yumrubaş çomaq
Dayanıbdır üz – üzə,
Onlar söyləyir bizə:
- Baxın, iki çomağıq,
Biz ki, yekə çomağıq.
Ayrılsaq bir olarıq
Lap tək - tənha qalarıq.

İlana bax, ilana,
Görən gedir hayana?
Çomaqları görəndə
İstədi qaça ilan.
Gözləri qara nöqtə,
O dili haça ilan.
Dərisi qıpqırmızı,
Qıvrılıb gedirdi o.
Çomaqlar elə bildi,
Qırmızı kəndirdi o.
Başını dik qaldırıb
Əydi üstdən aşağı.
Quyruğunu qatlayıb
Durdu “2” sayağı.

Dedi ki, “2” yəm mən
Çomaqdan yekəyəm mən

Uşaqlar, fikir verin
Nə danışır bu qoçaq?
- İki çomaq toplansa
Bircə ilan olacaq?

Eşidib bu sözləri
Çox hirsləndi çomaqlar.
İlanın üzərinə
Hücum çəkdi qoçaqlar.
Qırmızı kəndir ilan
Görəndə çomaqları
Başını dik qaldırıb
Qaçdı meşəyə sarı.

## SÜNBÜL

İki balaca siçan
Bir buğda tapdı yoldan.
Baxdılar xeyli səssiz:

- Bunu necə bölək biz?
Biri söylədi: - Sən böl!
O biri dedi: - Sən böl!
“ Sən böl” - deyib coşdular,
“ Sən böl” deyib qaçdılar.

Elə tələsmişdilər,
Yel kimi əsmişdilər.
Unutmuşdular çoxdan,
Çöldə qalmışdı buğda.
- Bəs hanı noğul buğda?
Onlar isti otaqda
Düşündülər bu haqda.

Hanı, qızılı muncuq,
Burnu şiş, özü arıq,
Hanı o qarnıyarıq?!
Hardadı sənbölümüz
- O oyanda qaldı Sənböl!
- Bu yanda qaldı Sənböl!
Hayanda qaldı Sənböl?!

Ana coşdu, nə coşdu
Siçanlardan soruşdu:
- Ay çil, nə tapmışdınız,
Ay şil, nə tapmışdınız.
Şil söylədi ki, "Sənböl"
Çil söylədi ki, "Sənböl".

Qalıb torpağın altda
" Sənböl " cücərib qalxdı.
Qalxıb yaşıldon oldu,
Buğdası on – on oldu.

Gəlib çıxdı siçanlar
Onu qoyub qaçanlar:
- Bu ki, bizim " Sənböldü "
Görməmişik bir ildi.

Ana görüb sünbülü,
Onlara bərkdən güldü.

- Ay canım, "Sənböl" nədi
Bu ki, sarı buğdadı,
Çörək bişəndə ondan
Bilirsiniz nə dadır?!

Ana dedi: - Buğdadı,
Onlar "Sənböl" dedilər.
Sonra necə oldusa
Ona sünbül dedilər.

Görün necə boy atıb
Başı günəşə çatıb.
Dövrəsində siçanlar
Oynadılar, çaldılar:
- Ayağı düz sünbülüm,
Saçı biz – biz sünbülüm,
Çoxlu – çoxlu dən gətir,
Sevinək biz, sünbülüm.

## ŞƏLALƏ

Sıldırımdan sallanır –
Elə bil dağ yoludur.
Yamaclara dırmaşan
Keçinin ağ yoludur.
Suyu dupduru, təmiz,
Çağlayıb hər an axır.
Yolçular heyrət ilə
Ayaq saxlayıb baxır.

## TAYALAR

Düzülüb qatar – qatar
Bir az gendə tayalar.
Elə bil keşik çəkir
Bizim kəndə tayalar.
Səhər parlaq görünür,
Yanır gündə tayalar.
Təyyarədən baxanda
Kündə - kündə tayalar.

## NƏRƏ ÇƏKDİ DALĞALAR

Dəniz necə mavidi
Göy dəftər üzü kimi.
Parıldayır damlalar
Balığın gözü kimi.

Birdən tufan başladı,
Qalxdı, yatdı dalğalar;
Nərə çəkdi, hayqırdı,
Sanki atdı dalğalar.

Guruldadı göy dəniz,
Dalğalar qaya oldu.
Qayaların dibində
Köpüklər taya oldu.

Hey axırdı dalğalar
Coşğun dağ çayı kimi.
Ağ yelkənli qayıqlar
Görünürdü sahildən
Nəhəng qağayı kimi.

## ABİDƏ

Şəhərin qucağında
Bir abidə ucalır.
Onun lap zirvəsində
Durur gəmi peykimiz.
Elə bil ki, indicə
Əngin göyün üzünə
Şığıyacaq
qartal kimi peykimiz.
O, başını dik tutub
Dayanıb nəhəng kimi.
Torpağın ulduzları
Səpilib ayağının
Altına çiçək kimi.
Vətənimin göylərə
- Salam - deyə
Uzatdığı əlidir.
O,
Kosmik fikirlərin
Poladdan heykəlidir.

## YAY

Gəldi yenə, gəldi yay.
Çəkdi sahillərinə
Adamları dəniz, çay.
Aldı, aldı bizi də
Öz qoynuna göy Xəzər.
Döşəyimiz narın qum,
Yorğanımız ləpələr.
Qaçırıq sahil boyu,
Cumuruq göy dənizə.
Bilirik ki, səhərlər
Tez oyanmaq gərəkdir.
Qışda sağlamlıq üçün
Yayda yanmaq gərəkdir.

**KƏPƏNƏKLƏR**

Kəpənəklər uçdular,
Bir çəmənə düşdülər;
Bəzisinin payına
Sarı çiçək düşmüşdü.
Biri öz qanadını
Zambaq üstə sərmişdi.
Biri də qərənfilin
Fincanına girmişdi.
Gün işığı yayıldı.
Şirin yuxularından
Kəpənəklər ayıldı.
Gördülər qanadları
Dönüb çiçək rənginə.
Sevinib uçuşdular
Dağa - dərəyə yenə.
O vaxtdan kəpənəklər
Gör necə rəng olublar.
O vaxtdan kəpənəklər
Uçan çiçək olublar.

## QARANQUŞ

Rəngi qara, döşü ağ,
Ay quyruğu haça quş.
Sən göylərdə uçanda
Balaca təyyarəyə
Oxşayırsan qaranquş.

## ŞANAPİPİK

Dimdiyi var
İynə kimi.
Gözləri var
Düymə kimi.
Ayaqları
Bapbalaca.
Qonar hərdən
Bir ağaca.
Nəğmə deyər:
"Bup - bup, bup - bup.
Meşəmizdə
Nə var, nə yox?!"

## QARTAL

Şappıldadıb qanadını
Baxdı göyə,
Qayadan bir qartal uçdu.
Elə bildim bu qayanın
Bir parçası qalxdı göyə.

## ŞƏFFAF SIĞIR

Hey axır,
Burulur
Dağ çayı.
Göz kimi
Durulur
Dağ çayı.
Dağlardan
Köçür o.
Yarğandan
Keçir o.
Əlləri
Üzülür,
Qayadan
Süzülür.
Yağışda
Qayanı
Yıxırdı
Dağ çayı.
Günəşdə
Elə bil
Bir şəffaf
Cığırdı
Dağ çayı.

## GİCİTKAN

Hasarların dibində
Gördüm tala-taladı.
İstədim yığım onu,
Əllərimi daladı.
Uşaqları incitmə
Ay davakar, gicitkan,
Tikanların var deyə
Niyə lovğalanırsan?

## GÖBƏLƏK

Göbələk, ağ göbələk,
Ay ağ papaq göbələk!
Dağlarda qar əriyib
Qarışanda sellərə,
Çimib yaz yağışında
Səpələn bu çöllərə.
Kol dibində bitirsən,
Elə bil ki, çətirsən.
Gizlənmə uşaqlardan,
Qoy hər an görək səni.
Səbətlərə doldurub
Evə gətirək səni.

## AĞACDƏLƏN

Rəngi qara,
Gözləri ağ
Ağacdələn.
Qonar bir-bir
Ağaclara
Ağacdələn.
Təpəsinin
Düz ortası
Qırmızıdır.
Lələkləri
Pırpızlıdır.
Budaqları
Dələr hərdən
Ağacdələn.

**HÖRÜMÇƏK
VƏ MOZALAN**

Bir tor hördü hörümçək
Deşik - deşik ağ ipək.
Yaşılgöz bir mozalan
Görüb qəşəng pərdəni,
Dedi ki, mən deşərəm
Bu ağ ipək pərdəni.
O qurtarıb sözünü
Vızıltıyla özünü
Çırpdı bu qəşəng tora,
Amma ilişdi ora.

## AYI BALASI

Bir boz ayı balası
Çıxdı yaşıl təpəyə.
Gördü bal arıları
Düzülübdür pətəyə.
Yerdən bir daş götürüb
Atdı pətəyə sarı.
Ayı qəzəbləndirdi
Çalışqan arıları.
Cumub onu sancdılar
Qulağından, belindən.
Ayı zorla qurtardı
Arıların əlindən.

## SƏRÇƏLƏRİN NƏĞMƏSİ

Dayanıbdır qoynunda
Qatar - qatar.
Cik - cirik.
Cik - cirik.
Yaşıl papaq
Çinarlar.
Cik - cirik,
Cik - cirik.
Uca boyu
Dəyir göyə.
Geniş qoynu
Yaşıl dəyə.
Yarpaqları
Yumşaq ipək,
Budaqları
Yorğan - döşək.
Cik - cirik,
Cik - cirik.
Göy çinarlar
Obamızdır.
Budaqları
Yuvamızdır.
Cik - cik edib
Obamızda,
Dincəlirik
Yuvamızda.

Uçuşuruq
Uzaqlarda,
Yaşayırıq
Yaşıl - yaşıl
Otlaqlarda.
Cik - cirik,
  Cik - cirik.

**FİLLƏRİN ÇADIRI**

Bir parça bulud kimi
Dayanıb düzdə çinar.
Onun nəhəng gövdəsi
Yaşıl yarpaqları var.
Elə bildim bu çinar
Fillərin çadırıdı.
Əyilmiş budaqları
Lap torpağa çatırdı.

**TUT – BİT**

Bir quş qondu bağçaya.
Ucaltdı şən səsini,
Oxudu nəğməsini:
- Tut - bit, tut - bit,
Tut - bit, tut - bit.
Ağ tutlar ağardılar,
Qara tutlar qızardı.
Bedana tut sulandı,
Çəhrayı tut bozardı.
Dırmaşdılar uşaqlar
Ağacların başına,
Tut yedilər o ki var...
Quş da fikirləşdi ki,
Qoy uşaqlar doysunlar,
Mənə də pay qoysunlar.
Yayda gəlib yeyərəm...
İyulda gəldi o quş.
Eh, tut çoxdan sovuşmuş.
Quş ucaltdı səsini,
Oxudu nəğməsini:
- Tut - yox, tut - yox,
Tut - yox, tut - yox..

## DURNALAR

Təkcə uçardı göydə,
Gəzərdi çöldə durna.
Yekə qara nöqtəyə
Bənzərdi göldə durna.
Bir gün durnalar dedi:
- Niyə nöqtə olaq biz?!
Gəlin uca göylərə
Yolumuzu salaq biz.
Başlarını ox kimi
Tutub havalandılar.
Onlar təyyarələr tək
Göydə qatarlandılar.
O vaxtdan nöqtə deyil,
Düz xətt oldu durnalar.
Yerlə göy arasında
Sərhəd oldu durnalar.

## QANQAL

Qanqal bir gün söylədi:
Tikanım var, kirpiyəm.
Dəvəyə bax, dəvəyə
Ayaqları tərəzi.
Elə bil ki. lampadı
Gözlərinin hərəsi.
Bu vaxt dəvə qanqalın
Lap yanına çatırdı.
Qanqal isə gizlicə
Dəvənin ayağına
Tikanını batırdı.
Eh, dəvəyə nə var ki,
Dəyişmədi heç halı.
Otların arasından
Tapıb yedi qanqalı.

## GÜN ÇIXDI

Dan söküldü
Səma güldü.
Gecə qaçdı
Necə qaçdı!
Bulud qaçdı
Duman qaçdı,
Yaman qaçdı!
Göy üzündə
Günəş yandı.
Dəniz güldü,
Göy allandı,
Nur ələndi,
Çəmənliklər
Sığallandı.
Gündü, çıxdı!
Gündü, çıxdı!
Kəhər ata
Mindi çıxdı!

## ŞƏLALƏNİN CAVABI

Səhər - səhər qızımla
Doğan günəşə baxdıq.
Mən söylədim: Hilaldı
Amma Şəlalə dedi:
- Yox!
Yekə portağaldı!
Yekəor

## BALDIRĞAN

Körpə vaxtı uzun olur
Baldırğan.
Baldır kimi yoğun olur
Baldırğan.
Başında ağ çiçəklərdən
Çətiri var...
Baldırğanda ilk baharın
Ətiri var.

## ÇAŞIR

Kəlbəcər dağlarının
Yaşıl tacı çaşırdı.
Onu çiy - çiy kim yesə
Deyər: - Acı çaşırdı.
İşdi, ondan yığsanız,
Heybənizə doldurub
Çiyninizə aşırın.
Axı ləzzətli olur,
Şorabası çaşırın.

## QUŞƏPPƏYİ

Quşəppəyi səpilib
Çəmənliyə, yamaca.
Duza batırıb yesən
Dadlı olar yamanca.
Gülnur quşəppəyiylə
Doldurdu ətəyini.
Dedi: - Quş kimi mən də
Sevdim quşəppəyini.

## ÇƏMƏN

Bizim bağçamıza
Bir çəmən düşüb.
Sürüşüb baharın
Çiynindən düşüb.
Gündüzlər nə qədər
Quzu var orda,
Xırphaxırp otlayır
Quzular orda.
Səhər otlar üstə
Şehdən inci var.
Şehlər quzuların
Gözü tək parlar.
Düzü başdan - başa
Tərifdir çəmən,
Quzu tükü kimi
Zərifdir çəmən.
Gəlin, siz də görün
Çəmənzarımı,
Amma ürkütməyin
Quzularımı.
Bizim bağçamıza
Bir çəmən düşüb.
Sürüşüb baharın
Çiyindən düşüb.

## DƏNİZƏ AXŞAM DÜŞÜR

Yenə büllur şəfəqlər
Ayrılır boz sulardan.
Günün son gülüşüylə
Alovlanır asiman.
Dalğalar şəfəqlərlə
Qucaqlaşır, öpüşür,
Dənizə axşam düşür.

Buruqlar arasında
Gör nə qədər adam var.
Dənizin qucağından
Çay keçirdir adamlar.
Çoxu növbədən çıxır.
Bir - biriylə görüşür,
Dənizə axşam düşür.

İndi neçə min işıq
Suya qızıl səpələr.
Köynəyini dəyişər,
Göy köynəkli ləpələr
Qağayılar rəqs edir,
Qağayılar ötüşür,
Dənizə axşam düşür.
Sular göy kimi əngin,

Səma dəniz rəngində.
Gör neçə ulduz yanır
Dənizin çələngində.
Buludlardan ay çıxır,
Sulara ağ şam düşür,
Dənizə axşam düşür,
Dənizə axşam düşür.

## UŞAQLARIN SƏHVİ

Ay səmadan sürüşüb,
Mavi dənizə düşüb.
Onu çin - çin ləpələr,
Ağ göyərçin ləpələr,
Qucağında oynadır.
Dəniz sanki anadır.
Uşaqlar qışqırırlar:
- Deyin kim tutar onu?
Balinalar, balıqlar
Tutmasaq udar onu.
Sərxan deyir:
- Doğrudan,
Göylərdə ay yanmasa
Gecə qaranlıq olar.
Çərkəz deyir:
- Səsini kəs,
Necə, qaranlıq olar?
Bəs neon lampaları!
Kamran deyir:
- Ay aman,
Birdən aya ilişər
Balıqçı qarmaqları
Fikrət
Fikr edir bir an,
Deyir: - Gəlin, tor atıb
Onu çıxaraq sudan –

Dənizdə qalmasın Ay...
Uşaqlar salır haray,
Gəlir ata – analar
Başa salır onları:
- Ay qopmayıb yerindən!
Xəzərin sularına
Onun əksidir düşən.

**TONQAL**

Hər axşam şən uşaqlar
Gur tonqallar yandırır.
Onun qızıl dilləri
Mənim qalstukumun
Qollarını andırır.

## DƏVƏLƏR

Belləri yəhər kimi,
Gözləri fənər kimi.
Uzunayaq dəvələr,
Yekədodaq dəvələr.
Beş gün ac da gəzərlər,
Susuzluğa dözərlər.
Ancaq incitsən bir az,
Düz yeddi il unutmaz.
Beli yəhər dəvələr,
Gözü fənər dəvələr.

## ZOĞAL

“Al” sözünün mənası
Qırmızıdır ay Alı.
İstəyirsən bu sözə
Misal çəkək zoğalı.

Zoğalın meyvəsi al,
Budağı, zoğu aldır.
Bax elə buna görə
Onun adı zoğaldır.

**QAR**

Qar yağıb çiçək - çiçək,
Qar yağıb lopa - lopa.
Qar geyinmiş təpələr
Bənzəyir bir ağ topa.
Atıb yaşıl kürkünü,
Ağ bürünüb ağaclar.
Baxırsan elə bil ki,
Qar gətirib ağaclar.
Hələ Muğana, Milə
Nə qədər qar düşübdür.
Deyirsən, bu düzlərə,
Ağ buludlar düşübdür.
Görün, necə parlayır
Qar dümağ ipək kimi.
Evlər qarın altından
Çıxıb göbələk kimi.

## QOVUT

Buğdani qovur,
Lap narın üyüt.
Şirin südə qat,
Qoy olsun qovut.

## SƏBİRLİ OL, SƏBİRLİ

Bu hissədə verilən
Şeri sürətlə oxu,
Həm də diqqətlə oxu.
Çalış, dilin çaşmasın,
Hərflərin heç biri
Gözlərindən qaçmasın.
Əgər görsən çaşmısan,
Səbirli ol, səbirli.
Yenidən oxu şeri.
Səni yanılda bilməz
Yanıltmacın heç biri.

## KÜNDƏ

Günəş kəndə
Gün əlädi.
Nənəm kündə
Kündəlädi.

## BOZBAŞ

Bozbaşı
Boş boşqaba
Boşaltdılar.
Qazanı
Bir tərəfə
Boş atdılar.

## LEY VƏ YEL

Ley uçurdu,
buludlara
Qalxmaq üçün
 tələsirdi.
Yel əsirdi,
həmin Leyi
yıxmaq üçün
tələsirdi.
Yel əsdikcə
ley uçurdu.
Ley uçduqca
yel  əsirdi.

## DALAŞAN DOLAŞALAR

Dolaşalar dalaşdı
Gəldi neçə dolaşa,
Budaqlara doluşdu.
Ara yaman qarışdı.
Dalaşan dolaşalar
Görün bir necə çaşdı.
Pırpızlanmış tükləri
Bir - birinə dolaşdı.

## ÇƏPİŞ

Çəpişdən qaçdı çəpiş,
Çəpəri aşdı çəpiş.

## CÜCƏ VƏ CÜCÜ

Cücü baxdı cücəyə.
Cücə qovdu cücünü.
Qaçdı cücü,
Qovdu cücə
Cü – cü – cü.

## BUĞA VƏ BAĞA

O dağda bir buğa var,
Bu dağda bir bağa var.
Buğa görmür bağanı,
Bağa görmür buğanı.

## QIRA

Çox kiçiyəm, qırayam.
Hələ yetişməmişəm.
Böyüyüb saralanda,
Gəl gör necə yemişəm.

## QORA

Gördüm bağda üzümü,
Tez yetirdim özümü.
Yaman xoşuma gəldi
Gilələrin düzümü.
Bilmədim bu nə işdi,
Yedim ağzım büzüşdü.
Gilənin bir üzü göy,
Bir üzü də qaradı.
Anam dedi: - Qoy üzüm
Lap yetişsin, ay oğul,
Bu ki, hələ qoradı.

## ÇƏKİL

Bağçaya tut əkildi.
Hər qayğısı çəkildi.
Amma ki, bar vermədi,
Dedilər bu, çəkildi.

## ŞALLAQ VƏ ŞILLAQ

Faytonçu kəhərləri
Lap bərk sürmək istədi.
Şallaqladı o ki var.
Amma birdən bu atlar
Dözəmməyib şallağa,
Başladılar şıllağa.

**KÜRÜ VƏ KƏRƏ**

Nehrəyə qatıq töküb
Bir xeyli çalxadılar,
İçindən kərə çıxdı.

Uzunburun balığın
Qarnını yardım o gün.
İçindən kürü çıxdı.

## ÇƏLƏ VƏ TƏLƏ

At quyruğundan
Hörüldü çələ.
Çoxlu quş tutdu
Bizim Şəlalə.

Möhkəm dəmirdən
Qayrıldı tələ.
Xəbəri yoxdur
Tülkünün hələ.

Gözləyir Səfər,
Acgöz vəhşilər.
Uyub kələyə
Düşər tələyə.

## KÜRÜK, QULUN, DAYÇA, AT

Kürən atın balası
Anasının dalınca
Düşdü hər axşam - səhər.
Ona kürük dedilər.

Kürük bir az böyüdü
Ayağı uzun oldu.
Dünənki körpə bala
Qırmızı qulun oldu.
Yalmanı parıldadı,
Boyu lap uca oldu.
Aylar keçdi, bu qulun
Bir qəşəng dayça oldu,
Qoşuldu dayçalara.
Gəzdi çəmən boyunca,
Göy ot yedi doyunca.

Bir gün gəlib ilxıçı
Dayçaya kəmənd atdı.
Dedi: - Daha yekəlib,
Görüm nə təhər atdı.
Səyirtdi göy çəməndə.
Hamı dedi: - Afərin!
Bu ki, lap kəhər atdı.

## HƏRFLƏR

Əlifba kitabını
Açdı balaca Əsəd.
“A” hərfi söylədi:
- Məni yazmaq istəsən,
Sözlərimə əməl et.
Bir nöqtədə birləşən
İki qolum var mənim.
Ortamdan bir xətt keçir,
Sağım – solum var mənim.
“O” hərfi söylədi:
Təkərə oxşayıram.
“C” dedi ki, amma mən
Kəmərə oxşayıram.
“T” dedi: - Eh teleqraf
Ağacıyam elə bil.
Məni yazmaq, oxumaq
O qədər çətin deyil!
Əsəd dedi: - Dayanın
Axı, bu səs - küy nədir?!
Öyrənərəm bu gündən
Hamınızı birbəbir.

## ÜÇ RƏFİQƏ

Biz üç qızıq,
Üç ulduzuq.
Lalə mənəm.
Bu, Qərənfil,
O da Nərgiz.
Üç rəfiqə,
Üç bacıyıq.
Üçümüz də
Birinciyik.
Üçümüz də
Əlaçıyıq.
Kimi deyir
Biz çiçəyik,
Kimi deyir
Bir inciyik.

## TƏYYARƏDƏ

Göy üzünə bir anda
Yol aldı təyyarəmiz.
Göyün göy yanağında
Ağ xaldı təyyarəmiz.

Bizdən xeyli aşağı,
Təpə - təpə buludlar.
Taya - taya buludlar,
Topa - topa buludlar.

Başımızın üstündən
Qızılı günəş baxır.
Yəqin bizdən aşağı
Qar yağır, yağış yağır.

Təyyarə ev kimidi
İsti, yumşaq və rahat.
İstəyirsən söhbət et,
İstəyirsən söykən, yat.

Bir qızla tanış olduq,
Onun adı Nataşa,
Mənim adım Xuraman.
Moskvadan gəlirdi
Nənəsinin yanından.

Biz bu mehriban qızla
Söhbət etdik doyunca.
Şəhərlərə, kəndlərə
Baxdıq yollar boyunca.

## ÇOBAN HƏSƏN

Həsən əmi çox qoçaqdır,
Həsən əmi mehribandı.
Yapıncını geyinəndə
Deyirsən ki, pəhləvandı.

Çalışır ki, hər bir quzu
Tez böyüsün qoyun olsun,
Onun bizə hədiyyəsi
Saçaq - saçaq ağ yun olsun.

Axı hər il qış gələndə
Yundan paltar geyirik biz,
"Çox istidir, çox yumşaqdır
Bu paltarlar" deyirik biz.

Yun geyinir incə bala,
Yun geyinir qönçə bala.
Paşa bala yun geyinir,
Şöşü bala yun geyinir.
Bax bununçün çoban Həsən
Bəzən yatmır lap sübhəcən.

Çobanlarçün otlaqları
Nizamlayır.
Sürülərçün yataqları
Nizamlayır.
Axı həm də baş çobandı
Çoban Həsən.
Qayğıkeşdi, mehribandı
Çoban Həsən.

## KÖRPÜ İLƏ SÖHBƏT

Gülnur dedi: - A körpü,
Sən nə qəşəng körpüsən.
Körpü dedi: - A Gülnur,
Sən nə qəşəng körpəsən.
Gülnur dedi: - Gör necə
Belini qabartmısan,
Sən dirəklər üstündə
Lap rahatca yatmısan.
Gəlib belindən keçir
Avtobuslar, maşınlar.
Hamı deyir "Yaxşı ki,
Bakıda bu körpü var".
Sanki nəhəng gəmisən,
Lap balina kimisən.
Körpü dedi: - Qəşəng qız,
Ay saçları ipək qız,
Məni insanlar qurdu...
Onlar əvvəl torpağa
Polad dirəklər vurdu.
Sonra nəhəng maşınlar
Sement, beton gətirdi.
Qaldırıcı kranlar
Yükü ton - ton götürdü.
Körpüsalan ustalar

Gecə - gündüz o ki var
İşlədilər, durdular.
Yavaş - yavaş quruldum
Axırda körpü oldum.
Gülnur dedi: - Yaxşı ki,
Belə qəşəng körpüsən.
Körpü dedi: - Sən də ki,
Saçı ipək körpəsən.

**AYAUÇAN**

Gülnur rəngli kağızdan
Ayauçan qayırdı.
Hey atırdı göylərə,
Amma o uçmayırdı.
Tez özümü yetirdim
Ayauçanı götürdüm.
Burnuna pər bağladım,
Altdan təkər bağladım,
Bağda pusquda yatdım,
On - on beş sərçə tutdum.
Yamanca səs saldılar,
Bu səs - küyə baxmadım.
Onları ayağından
Ayauçana bağladım.
Sərçələr uçdu - uçdu,
Buludda gözdən itdi.
Yəqin ayauçanla
Onlar da Aya getdi.

## ALI VƏ GAVALI

Bağçaya girdi Alı
Onu gördü gavalı.
Dedi: - Alı, ay Alı,
Sənin də adın Alı,
Mənim də adım Alı.
- Yox, sən Alı deyilsən,
Gavalısan, gavalı.
- Doğru deyirsən Alı,
Mən gavalı, sən Alı.
Bir vaxt məni uşaqlar
Belə çağırırdılar:
- Göy Alı ha, göy Alı!
İllər ötdü o vaxtdan
Adım qaldı gavalı.
Gəl dost olaq, ay Alı,
Sən Alı, mən gavalı.

## ARABAYA QOŞULAN DOVŞAN

Bir araba düzəltdim,
Qoşdum bala dovşanı,
Gözü ala dovşanı.
Qulağını şəklədi,
Bığlarını diklədi.
Aralayıb kolları
Çəkdi meşəyə sarı.
Dovşan bir tülkü gördü,
Arabanı qaçırtdı.
Qaçdı - qaçdı, qorxudan
Arabanı aşırtdı.

## PİŞƏN

Bir pişiyim var mənim,
Onun adı pişəndi.
Amma yaman dəcəldi,
Hey atılıb düşəndi.
Körpədi, lap baladı,
Gözləri tünd yaşıldı.
Hamı deyir aladı.
Səhərdən axşamacan
O, topumu oynadır.
Deyirəm: - Ay pişənim,
Yorularsan oyna, dur.
Baxın - baxın pişənə:
Topu qoydu təpəyə.
Ayağıyla toxundu.
Dözəmməyib təpiyə
Diyirlənir top indi,
Görün haraya getdi.
Birbaşa çaya getdi.
Pişən də qaçdı, qaçdı.
Kolların üstdən aşdı.
Vay sürüşdü pişənim,
Çaya düşdü pişənim.

## GÜNƏŞİN ZARAFATI

Alatoran çəkildi,
Səhər gözünü açdı.
Bənövşənin boynundan
Bir şeh muncuğu asdı.
Bir azdan doğdu Günəş,
Şeh muncuğu əritdi.
Küsdü körpə bənövşə,
Boynunu əydi tutdu.

## ÇOBANYASTIĞI

Səhər çobanyastığı
Şehdə yudu üzünü.
Günəşə baxmaq üçün
Geniş açdı gözünü.
Birdən gözü qamaşdı,
Bəbəkləri saraldı.
Tez qapadı üzünü,
Kirpikləri ağ qaldı.

## SIRĞAÇİÇƏYİ

Yazda, sırğaçiçəyi
Qızıl düymələr kimi
Parıldadı, açıldı.
Zəlihənin, Gülnurun
Qulağından asıldı.

## QAYMAQÇİÇƏYİ

Sarı qaymaqçiçəyi,
Çiçəklərin göyçəyi.
Dedi: - Ya sarı qaymaq,
Ya da məndən yağ istə.
Ondan bir dəstə yığıb
Qoydular nəhrə üstə.
Çalxadılar yağ oldu,
Qaymaqçiçəklərinin
Gördüm kefi çağ oldu.

## QANTƏPƏR

Kiçik günəbaxana
Oxşayır bu qantəpər.
İncə ləçəklərində
Xallı böcəklər gəzər.
Onun rəngi sarıdır,
Yaxın dostu arıdır.
Bu çiçəyi qurudub
Çay dəmləyər nənələr.
Deyərlər: - Neçə dərdin
Dərmanıdır qantəpər.

## LALƏ

Baxmayıb çəməndəki
Dostlarının sözünə,
Lalə qara gecədən
Bir göz aldı özünə.
Sonra qızıl günəşin
Paltarını geyindi.
Bu qara gözlü qızı
Hamı sevdi, bəyəndi.

## KEÇİSAQQALI

Dovşan keçisaqqalı
Gördü yaşıl çəməndə.
Söylədi: - Hələ saqqal
Deyirəm buna mən də -
Bu, eləcə yemlikdir,
Bir az yarpağı çildir.
Dilimə də vurmuram
Onu bir neçə ildir.
Saqqala bax, saqqala,
Daranmayıb, pırpızdır.
Dilim - dilim yarpağı
Mənim bığımdan azdır.
Əgər bu düz deyilsə
Qoyun uşaqlar desin.
Şirin, südlü saqqalı
Dəcəl çəpişlər yesin.

## İNCİÇİÇƏYİ

İnciçiçəklərinin
Parıldar ləçəkləri.
Gözləri şehli - şehli
O, yarışa çağırar
Gülləri, çiçəkləri.
Onun incə üzündə
Şeh çiçəyə oxşayır.
Ləçək şehə oxşayır,
Şeh ləçəyə oxşayır.

## DƏCƏL ÇƏPİŞ VƏ QUMRAL QUZU

Ay uşaqlar, uşaqlar,
Gəlin sizə indi mən
Deyim qumral quzudan,
Bir də dəcəl Çəpişdən.
Onlar yoldaş idilər.
Çəpiş –
Keçinin oğlu,
Quzu –
Qoyunun qızı.
Çəmənliyə bir gəlib,
Qoşa otlayardılar.
Nə qorxu bilərdilər,
Nə kədər duyardılar.
Quzu çox sakit idi.
Amma ki, dəcəl Çəpiş
Özündən deyən idi.
Döşünə döyən idi.
Bir gün çəpiş söylədi:
- Qayalara dırmaşıb
Döşə çıxam mən gərək.
Keçəm arxın üstdəki
Ensiz körpüdən gərək.
Yalvardı qumral Quzu,
Söylədi ki, gül - çiçək

Gör necə də qəşəngdir,
Burda atılaq düşək.
Çəpiş tərslik elədi
Dönmədi öz sözündən.
Dağa çıxıb su içdi
Bulaqların gözündən.
Nə qorxdu dəcəl Çəpiş,
Nə də ki, sözə baxdı
Gah dərəyə qaçdı o.
Bəzən uca zirvəyə
Çıxmağa da tələsdi.
Uzaqdan qumral Quzu
Baxıb qorxudan əsdi.

Axşam qaş qaralanda
Evə qayıtdı onlar.
Keçi
oğlu Çəpişi
Danlamağa başladı.
- Məə! Mən demişəm.
Dağa - qayaya çıxma!
Gəz quzuyla çəməndə
Başqa heyvanlar kimi
Sakitcə otla sən də.
- Məə, məə, məə, məə!..
Çəpiş qorxdu, deyəsən.
Anasının
Hərbə - zorba səsindən,
Keçi isə oğlunun
Tutaraq çənəsindən
Hirslə deyirdi:
- Əgər

Bir də dəcəllik etsən,
Qaçıb uzağa getsən,
Çənəndən tutub hər gün
Beləcə çəkəcəyəm.
Ağladı dəcəl Çəpiş,
Ağladı qumral Quzu.
Dedi:
- Ay keçi xala,
Sənin oğlun heç zaman
Dəcəllik etməz daha.
Bağışla çəpişi sən.
İnan, söz verirəm mən,
Qoymaram ki, uzağa –
Nə qayaya,
nə dağa,
Qaçsın sənin bu oğlun.
Keçi qumral Quzunu,
Sakit, gözəl Quzunu
Dinləyib, azad etdi.
Çox danladı Çəpişi
- Bir də təkrar etməsin –
Dedi, - gərək bu işi.

Qaranlıqlar çəkildi,
Göyün üzü açıldı.
Hər çiçəyin boynundan
Neçə muncuq asıldı.
Yaşıl donlu çəmənlər
Doldu yenə böcəklə.
Xortumlu arılarla,
Al - əlvan kəpənəklə.
Gəldi dəcəl Çəpiş də,

Gəldi qumral Quzu da.
Burda onlardan başqa
Var idi şən uşaqlar.
Çiçəklərin içində
Atılıb - düşdü onlar.
Anasının sözünü
Çox tez unutdu Çəpiş,
Çıxdı dağa - qayaya,
Atıldı - düşdü Çəpiş,
Bulağa düşdü Çəpiş.
Anası səhər - axşam
Yapışıb çənəsindən
Danlayardı Çəpişi
Bir mərəkə qurardı,
Çəpişsə qışqırardı:
- Yaman pis oldu halım!
Lap uzandı saqqalım...

O vaxtdan keçib aylar,
Ötüşüb neçə illər,
İndi daha saqqallı
Doğulurlar çəpişlər.

## ÇƏMƏNİN XALI

Göy çəmənlər yamaca
Sərilmiş bir xalıdır.
Qızıl – qızıl lalələr
Yanağının xalıdır.

## ARILAR

Vızıldayıb çəmənləri
Gəzir bir – bir arılar.
Çiçəklərin qulağına
Nəğmə deyir arılar.

## MƏN RƏNGLƏRİ TANIYIRAM

Mən rəngləri tanıyıram
Deyir Elman;
Səma mavi,
Yumurta ağ,
Sapsarıdır günəbaxan.

Qırmızıdır gülöyşə nar,
Yarpaq yaşıl,
Kömür qara,
Dəniz göydü,
Qızılıdır boranılar.

## CİNCİLİM

Elə bildim, kolluğa,
Sərilib yaşıl kilim.
Yarpaqların xırdadır,
Cincilim, ay cincilim.

## ÇADIR

Göbələyin papağı,
Ayağına çatırdı.
Böcəklər elə bildi,
O, ağ rəngli çadırdı.

## UÇAĞAN BÖCƏK

Balacadır bu böcək,
Arıdan da xırdadır.
Üstündəki xalları,
Darıdan da xırdadır.

Qırmızıdır, yumrudur,
Sanki qız muncuğudur.
Görsən elə bilərsən
Uçan gözmuncuğudur.

**GÜNƏŞ**

Dağlar dalında batar,
Dənizdən çıxar Günəş.
Bir şeh damlasından da,
Boylanar, baxar Günəş.

Günəş yaşıl çəməndə,
Sarı çiçəyə dönər.
Lumuya, naringiyə,
Hər cür meyvəyə dönər.

## GÜNƏBAXAN

“Mən də Günəş olum” deyə,
Günə baxar, günəbaxan.
Sarı - sarı ləçəyiylə
Yanar par - par günəbaxan.

## GECƏ

Gecə ulduza baxdım,
Elə bildim noğuldu.
Birdən göydən ay axdı,
Dedim: - Yekə qoğaldı.
Günəş açdı gözünü,
O, hamını oyatdı.
Noğul da getdi, yatdı,
Qoğal da getdi, yatdı.

## KİRPİ

Meşədə kirpi gördüm,
Dedim yəqin ayının
İynəsi, sancağıdı.
Ya da kolluqda qalan
Bir çoban papağıdı.

## GÖY QURŞAĞI

Şimşək çaxdı
Qarı nənə
Hanasını
Qurdu yenə.

Yağış kəsdi.
Günəş göydən
Bəzəkli bir
Kilim asdı.

## ƏN ŞİRİN ŞEY

- Ən şirin şey nədir, de?!—
Soruşdum Şəlalədən,
Bircə anlıq durdu o,
Amma cavab vermədi.
Əmziyini sordu o.

## CIĞIR

Bir nazik cığır
Dağlara çıxır,
Dərəyə enir,
Şəffaf su kimi.
Hey şaxələnir,
Yekə bir maral
Buynuzu kimi.

## PALMA

Palmaya bax, palmaya,
Az qalıb çata aya.
Əyilmiş yarpaqları
Yaman yaraşır ona.
Elə bil ki, yepyekə,
Papaq qoyub başına.

## ULDUZ

Çəkilibdir buludlar,
Zil qaranlıq gecədi.
Göydə ulduz nə çoxdu,
Sayammıram neçədi.

## TÜSTÜ

Evin üstü bacadı,
Baca damdan ucadı.
Ordan tüstü çıxırdı,
O, göylərə dırmaşan,
Əyri - üyrü cığırdı.

## AY VÜQAR

Necə dəcəlsən, necə
Ay Vüqar.
Anan gələr indicə
Ay Vüqar.
Dibçəkdəki çiçəkdir,
Ay Vüqar.
Gör onlar nə qəşəngdir,
Ay Vüqar.
Mənə qulaq as bir az,
Ay  Vüqar.
Gülləri üzmək olmaz,
Ay Vüqar.

## AFATIN KUKLASI

Kiçik Afatın
Bir kuklası var,
Özü boydadır.
Qəşəng kuklanın
Həcərdir adı.
Afat qışqırır:
- A kukla, tez yat!
Amma yatanda
Tanımaq olmur
Hansıdır kukla,
Hansıdır Afat.

## QƏLƏMƏ

Qələmələr yan - yana
Düzülüb çəpər olub.
Bağa keşik çəkirlər
Hər biri sipər olub.

## MAYAK

Mayak suyun üstündə
Yanıb - sönür bayaqdan.
Elə bil gəmilərə
O, göz vurur uzaqdan.

## FİL

Zooparkda fil gördüm,
Elə bildim qayadı.
Xortumu nə yekədi,
Ayaqları payadı.

## QATAR

Qatara bax, qatara
Taraq, taraq, taq, taraq.
Görəsən gedir hara
Taraq, taraq, taq, taraq?

Yaşıl, yumşaq vaqonda
Yol gedir neçə adam.
Məni də mindiribdir,
Bir gün qatara atam.

Göy meşələr keçəcək
Taraq, taraq, taq, taraq.
Neçə şəhər keçəcək
Taraq, taraq, taq, taraq.

Saymışam bu qatarın
18 vaqonu var.
Hələ gözdən itməyib
Gör nə uzundur qatar!

## ANAM TRAMVAY SÜRÜR

Anam tramvay sürür
Yekə,
qəşəng,
qırmızı.
Gəzdirir axşamacan
Neçə oğlanı, qızı.
Hələ sökülməmiş dan,
Anam durur yuxudan.
Deyir:
\- Gecikmək olmaz!
Gərək tez gedim bir az.
Camaata lazımdı
Tramvay səhər - səhər.
Axı, gərək adamlar
İşə gecikməsinlər.
Anam tramvay sürür
Yekə,
qəşəng,
qırmızı.
Gəzdirir axşamacan
Neçə oğlanı, qızı.

## ARABA

Şaqq - şuqq,
Xırt - xurt...
Yol gedir
Araba.
Köhnəlib
Çarxları.
Keçəndə
Arxları
- Cırr - cırr,
Elə bil
Söylənir,
Darıxır.
Deyirəm:
- Araba,
Söylə bir
De neçə
Yaşın var?
Bəlkə yüz,
Bəlkə çox?!
Dillənmir
Araba.
Yox!
Kəllər də
Qocalıb,
Kəlləri
Sürən də.
Doludur
Araba

Odunla.
Qışqırır
Baba:
- Ha, belə
Tez olun,
Mənzilə
Çataq biz.
Axşamdı
Dincələk,
Yataq biz.
Hər səhər
Baba,
Öküzlər,
Bir də ki,
Araba
Oyanır
Yuxudan.
Yollanır
Dağlara
Ya odun,
Ya da ot
Yüklənir,
Daşıyır
Araba.
Beləcə
Dağlarda
Yaşayır
Araba.

## YUVALAR

Ay uşaqlar, meşədə
Görün nə çox yuva var.
Yarpaqların içində
Yumaq - yumaq yuvalar.

Yuva var ki, dayazdı,
Qazan qapağı kimi.
Yuva var ki, dərindi,
Çoban papağı kimi.

## QƏCƏLƏ

Ay qəcələ, qəcələ,
Bizim bağda gecələ.

## QIZIL QAZ

Tüklərim çəhrayıdı,
Qanadım neçə rəngdi.
Ayaqlarım uzundu,
Qırmızıdı, qəşəngdi.
Göllərin bəzəyiyəm,
Bir qızılı quşam mən.
Baxan elə bilir ki,
Günəşdən qopmuşam mən.

## TOVUZ QUŞU

Zərlidir, rəngbərəngdir
Elə bil ki, ipəkdir,
Sərilib çəmənliyə.
Tükü bənzər nərgizə,
Qəşəngdir tovuz quşu
Baxan deyir: Elə bil
Qərənfilə, laləyə.
Bahar çiçəklərindən
Çələngdir Tovuz quşu.

## QARTAL

Şappıldadıb qanadını
Baxdı göyə,
Qayadan bir qartal uçdu.
Elə bildim bu qayanın
Bir parçası qalxdı
göyə.

## QIRĞILAR

Quşlar haray qoparır:
“ Özünüzü qoruyun
Göy üzündə qırğı var ”.
Qanadını düz tutub
Ov üstünə şığıyar.
Qırıcı təyyarəyə
Oxşayırlar qırğılar.

## QAĞAYILAR

Dənizin qucağında
Yaşayır qağayılar.
Yemini də dənizdən
Daşıyır qağayılar.
Səhərdən axşamacan
Dalğalarla rəqs edir,
Deyirsən qağayılar
Qanadlı ləpələrdir.

**SONA**

Heç bilmədim
Beşdi, ondu,
Dəstəsiylə
Gölə qondu
Ağ sonalar.
Ay uşaqlar,
Görün göldə
Bir nə qədər
Ağ sona var.
Elə bil ki,
Ağ zanbaqlar
Üzür suda.
Gözəl olur
Sonaların
Qarası da.

## QUTAN

Baxdım göldə qutana,
Balıqları udana.
Dimdiyi lap yekədi,
Ayaqları uzundu.
Onu tanımayanlar,
Elə bilir quzğundur.

## ANQUT

Anquta bax, anquta,
Qonubdur bataqlığa,
İstəyir balıq tuta.

**SƏRÇƏ VƏ ŞAR**

Kiçik Gülsarı
Qırmızı şarı,
Buraxdı göyə,
Şar qalxdı göyə.
Dedi: - Uşaqlar,
Mən indən belə
Şar deyiləm ha!
Günəşəm daha.
Hardansa gəldi,
Eylədi cik - cik.
Bir dimdik vurdu
Ona sərçəcik.
Vay, gumbulum - gurp
Partladı o şar.
Güldü uşaqlar,
Sevindi quşlar.

## AYININ TELEQRAMI

Yamanca kələkbazmış
Bu balaca arılar.
Onlar pətəklərini
Sıldırımda qururlar.
Armud ağaclarısa
Unutmur bu "dayı" nı.
Payızın sonunacan
Saxlayırlar payımı

## DOVŞANIN TELEQRAMI

Canavardan qaçmışam,
Qar üstə iz açmışam.
Ovçuların əlindən
Gizlənmişəm kolda mən.
Qoy gəzsinlər meşəni,
Tapa bilməzlər məni.
Aclıq canavarları
Yaman hala salıbdı.
Ovçuların itləri
Hürə - hürə qalıbdı.

## TÜLKÜNÜN TELEQRAMI

Meşələrdə gəzməkdən
Düzü, doymuşam daha
Bicliyi, tülkülüyü
Yerə qoymuşam daha.

Meyvəylə dolanıram,
Dəyməyirəm quşlara.
Məndən salam deyərsən
Xoruza, hinduşkaya.

## CANAVARIN TELEQRAMI

Gözüm yamanca qorxub
Çoban dəyənəyindən.
Üzükə bilməyirəm,
Ona görə kəndə mən.

Qara köpək də yaman
Əngəl olub işimə,
Qumral quzu, boz oğlaq
Daha keçmir dişimə.

## ÇAQQALIN TELEQRAMI

Gecə ova çıxıram
Sıxlaşanda duman, çən.
Meşədə azmamaqçın
Ulayıram sübhəcən.

## ATƏŞBÖCƏYİNİN TELEQRAMI

Mən fanaram, amma heç
Asmayırlar budaqdan.
Hər tərəfə uçuram,
Görünürəm uzaqdan.

## ÖKÜZLƏR

İki öküz dalaşdı,
Əyri - üyrü buynuzlar
Bir - birinə dolaşdı.
Yaman qızdı gözləri,
Yeri qazdı dizləri.
Hər ikisi əzildi.
Dincəlməkçün hərəsi,
Bir tərəfə sərildi.

## GÖLMƏÇƏ

Güzgüyə bənzəyirdi,
Balaca bir gölməçə.
Gülər dedi:
- İndicə
Sınayaram gücümü,
Sındıracam güzgünü.
Bir anda gölməçənin
Ortasına tullandı,
Üstü - başı bulandı.

## ÇƏPİŞ

Çəmənlikdən çay keçir,
Üstündə körpü də var.
Ordan adlayıb gedir,
Göy meşəyə uşaqlar.
Çəpiş dedi:
- Körpü nədi?!
Dalı - dalı çəkildi,
Sıçramaqçün o taya.
Tullananda yıxıldı,
Arxası üstə çaya.

## BALIQ VƏ QARMAQ

Uzunburun bir balıq
Lap dərində üzürdü.
Birdən suyun altında,
Bir kiçik qarmaq gördü.
Qarmağa lağ elədi,
Öz - özünə söylədi:
“Balıqlar niyə bundan
Görəsən qorxur axı?!
Mən indicə udaram,
Əyriburun qarmağı”.
Balıq qarmağı uddu,
Qarmaq balığı tutdu.

## TUTU

On iki yaşlı Tutu,
Çıxıb çırpırdı tutu.
Bir quş isə uzaqdan
Hey oxuyurdu: Tu - tu.

## AŞIR

Bu da qonşu Aşırdı,
O, çəpərdən aşırdı.
Birdən necə oldusa
Çəpəri də aşırdı.

## AT

- Ata, ay ata,
Ata bax, ata
Ramiz istəyir
Ona daş ata.

## ÇALIŞ ÇAŞMA

### I

Qəribə qızdır Almaz;
Nə versən ona, almaz.
Alça da versən almaz,
Alma da versən almaz.
Ata işdən gələndə
Səslənir ki, ay Almaz,
Papağımı ala as.
Alar, Almaz.
Asar, Almaz.

### II

Qazanı
Qaza
Asdılar.
Qazana
Bir qaz
Basdılar.
Qazın
Qılçı
Qırıqdı.
Qazanın
Qulpu
Sarıqdı.

### III

Ağ kəli
Ağ kəndirlə
Bağladılar.
Ağ kəli
Dağ kəndinə
Yolladılar.

### IV

Qu göləndə
Qurbağalar
Quruldayır.
Qular deyir:
“Qur - qur” ağalar
Quruldayır.

### V

Süleymanın
Sarı kəhəri var idi.
Sarı kəhərin
Sarı yəhəri var idi.
Süleymanın
Sarı kəhəri
Satıldı.
Sarı yəhər
Samanlığa atıldı.

## QIRXBUĞUM

Hər il bahar gələndə,
Qaranquşlar gələndə
Çıxır torpaq altından.
Gövdəsi buğum – buğum,
Elə bil neçə yerdən
Düyünlənib qırxbuğum.
Yığır ordan bir ətək
Uşaqların hərəsi.
Axı, ləzzətli olur
Qırxbuğumun kətəsi.

## QARIŞQALAR

Ağacların
Gövdəsində
Yuvası var.
Qatarlanar
Kənd yoluna
Cığır salar,
Qarışqalar.
Bütün yayı
Zəmilərdən
Dən daşıyar,
Qış uzunu
Onu yeyər,
Şən yaşayar,
Qarışqalar.

## GÖBƏLƏK

Göbələk, ağ göbələk,
Ay ağpapaq göbələk!
Dağlarda qar əriyib
Qarışanda sellərə,
Çimib yaz yağışında
Səpələn bu çöllərə.
Kol dibində bitirsən,
Elə bil ki, çətirsən.
Gizlənmə uşaqlardan,
Qoy hər an görək səni,
Səbətlərə doldurub
Evə gətirək səni.

**PAYIZ**

Yarpaq saralır,
Susur torağay.
Dağlar dumandan
Örtür kəlağay.
Çöllər bir sarı
Kürkə bürünür.
Səhər bağlarda
Qırov görünür.
Ağaclar üstə
Sarı heyvalar
Oxşar lampaya.
Yoxsa, bağça - bağ
Hazırlıq görür
Şaxta babaya?!

## ÇOBANYASTIĞI

Üzü girdədir,
Yanağı sarı.
Gör nə qəşəngdir
Ağ saçaqları!
Gecələr yerə,
Gündüzlər günə
Baxandır
Çobanyastığı.
Sanki balaca
Günəbaxandır
Çobanyastığı.

## YALANÇI İMRAN

İmran mətbəxə qaçdı,
Qabın ağzını açdı,
Mürəbbəni yedi o,
Amma gəlib yavaşca
Anasına dedi o:
- Quyruğunu buladı,
Pişik gəlib yaladı.
Anası baxdı ona,
İnanmadı sözünə.
Mürəbbənin şirəsi
Bulaşmışdı üzünə.

## OYNAYIRAM BEŞİKDƏ

Mənim adım Cəmalə,
Özüm bir qəşəng qızam.
Atam - anam deyir ki,
Gül qızam, çiçək qızam,
Hələ çox uşağam mən,
Deyirlər şıltağam mən.
Oynayıram beşikdə,
Nə işim var eşikdə.

## SEVİNC VƏ İLQAR

Sevinc yazır, oxuyur,
Kitabı, dəftəri var.
Amma oxuya bilmir
Bizim balaca İlqar.
Sevinc deyir İlqara:
- Axı, hələ uşaqsan,
Mənim kimi böyüyüb
Məktəbə gedən zaman
Sən də oxuyacaqsan.

**BUIAQLAR DONMUR**

Qış hücuma keçibdir
Aranlara, dağlara.
Öz gücünü göstərir
Bağçalara, bağlara.
Ağaclardan sallanıb
Qışın qarlı ayağı
Çeşmələrin, çayların
Qaysaqlanıb dodağı.
Amma bizim “Buz bulaq”
Gecə - gündüz hey axır.
O nə soyuqdan qorxur,
Nə yağan qara baxır.

**QAR**

Qar yağıb çiçək - çiçək,
Qar yağıb lopa - lopa.
Qar geyinmiş təpələr
Bənzəyir bir ağ topa.
Atıb yaşıl kürkünü,
Ağ bürünüb ağaclar.
Baxırsan elə bil ki,
Qar gətirib ağaclar.
Hələ Muğana, Milə
Nə qədər qar düşübdür.
Deyirsən bu düzlərə,
Ağ buludlar düşübdür.
Görün, necə parlayır
Qar dümağ ipək kimi.
Evlər qarın altından
Çıxıb göbələk kimi.

**TEZ GƏL, BUZOV**

Səhər tezdən
Çəmənliyə
Ötürdüm mən.
Qaş qaraldı,
Harda qaldın?
Tez gəlməsən,
Gedib çöldən,
Gəzib səni
Taparam mən.
Dəcəl, buzov,
Təpəl buzov,
Tez gəl, buzov..

## KƏPƏNƏKLƏR

Kəpənəklər uçdular,
Bir çəmənə düşdülər.
Bəzisi göy otların
Üstünü bürümüşdü.
Bəzisinin payına
Sarı çiçək düşmüşdü.
Biri öz qanadını
Zanbaq üstə sərmişdi.
Biri də qərənfilin
Fincanına girmişdi.
Elə ki, gün yayıldı
Şirin yuxularından
Kəpənəklər ayıldı.
Gördülər qanadları
Çönüb çiçək rənginə.
Sevinib uçuşdular
Dağa – dərəyə yenə.
O vaxtdan kəpənəklər
Gör neçə rəng olublar.
O vaxtdan kəpənəklər
Uçan çiçək olublar.

## DƏLƏ

Niyə xırdasan belə,
Ay dələ?!
Amma quyruğun
Yumşaq bir şələ.
Qaçıb çıxırsan
Budaqların başına.
Gözlə, birdən düşərsən
Uşaqların başına!

## UÇAN ÇIRAQLAR

Möcüzədir möcüzə,
Uçar, gəzər, çıraqlar.
Meşələrə, düzlərə,
İşıq salar, nur salar.
Tanış olun,
Çırağın
Adı Atəşböcəyi.
Otların yaraşığı,
Ağacların bəzəyi.
Çəmənlərə - çöllərə
Şölə salar bu böcək.
Yanırsa - yaşayır o,
Sönübsə - ölüb demək.

## AY DƏNİZƏ DÜŞÜBDÜR

Ay səmadan sürüşüb,
Mavi dənizə düşüb.
Onu çin - çin ləpələr,
Ağ göyərçin ləpələr,
Qucağında oynadır.
Dəniz sanki anadır.
Uşaqlar qışqırırlar:
- Deyin, kim tutar onu?
Balinalar, balıqlar
Tutmasaq udar onu!
Sərxan
Deyir:
- Doğrudan
Göylərdə ay yanmasa
Gecə qaranlıq olar.
Çərkəz
Deyir:
- Səsini kəs,
Necə, qaranlıq olar?
Bəs neon lampaları?!
Kamran
Deyir:
- Ay aman
Birdən aya ilişər

Balıqçı qarmaqları.
Fikrət fikr edir bir an.
Deyir: - Gəlin, tor atıb
Onu çıxaraq sudan,
Dənizdə qalmasın Ay...
Uşaqlar salır haray,
Gəlir ata - analar
Başa salır onları:
- Ay qopmayıb yerindən,
Xəzərin sularına
Onun əksidir düşən.

## MƏKTƏB YOLLARI

Dünyada əziz nə var,
Məktəb yolları kimi?!
Açılır qarşımızda
Ana qolları kimi.

Cığırlar boyunbağı,
Cığırlar sapa bənzər.
Uşaqlar muncuq kimi
Bu saplara düzülər.

Baxın bizim məktəbə,
Dayanıbdı dağ kimi.
Bu dağdan axıb gedir,
Cığırlar bulaq kimi.

Dünyada əziz nə var,
Məktəb yolları kimi.
Açılır qarşımızda
Ana qolları kimi.

## BİZİM MƏKTƏB

Bizim gözəl məktəbin
Günəşə bənzəri var.
Büllur şüşələrində
Al şəfəqdən zəri var.

Məktəb cığırlarında
Neçə mirvari, inci.
Yerə - göyə sığmayır
Bu gün onun sevinci.

Qapıları açıqdı
Göyərçin qanadı tək
Elə bil ki, indicə
Göylərə yüksələcək.

Səhərlər qucaqlayır
Nə qədər gülbənizi.
Hər uşaq bir çiçəkdi,
Məktəbsə gül dənizi.

## UŞAQLAR DƏRSƏ GEDİR

Məktəbin qapıları
Açılıb dəftər kimi.
Uşaqlar səpələnib,
Yollara gövhər kimi.

Uşaqların səs – küyü
Məktəb zənguləsidi.
Burda ən gözəl nəğmə,
Müəllimin səsidi.

O səs bizi mindirir
Koroğlunun atına.
O səs bizi qaldırır
Göyün yeddi qatına.

O səs ana laylası,
O səs gurlayan cəngi.
O səsin ahəngində
Çalınır məktəb zəngi.

Şagirdlərin qəlbində
O nəğmənin sehri var.
Həmin səsə tuşlanıb,
Dərsə gedir uşaqlar.

Hər körpə sinəsində
Bir təmiz ürək gedir.
Hər ürəyin üstündə
Bir dəstə çiçək gedir.

## GİL PİŞİK

Adiləyə hədiyyə
Verdilər bir gil pişik.
Gil pişik,
Çil-çil pişik.

Yaşıl muncuq gözləri
Elə hey par-par yanır.
Oturub pəncərədə
Bucaqlara boylanır.

A gil pişik, gil pişik,
Gəl oynayaq gəl, pişik.
Sakit otur yerində
İşlərini bilmişik.

Quyruğunu şeşləyib,
Tüklərini qabartma.
Siçan yoxdu bu evdə,
Gözlərini bərəltmə.

Birdən düşdü taxçadan,
Yerə dəydi tappadan.
Çiliklәndi gil pişik,
Gil pişik çil – çil pişik.

Eh nə yaman kövrəkmiş,
Səfehmiş bu gil pişik.
Adilənin göz yaşı
Çönüb oldu sel, pişik!

Yalançı pişik üçün
Qız doğrudan ağladı.
Əydi yerə başını
Axıtdı yana - yana,
Doğruçu göz yaşını.

Gəlib çıxdı dostları,
Gətirdilər ağ pişik.
Quyruğu zolaq - zolaq,
Gözləri parlaq pişik.

Bu doğruçu pişiyin,
İgid Məstandı adı.
Ora - bura boylandı,
Doğrudan miyoldandı.

Pişik çıxıb taxçada
Bığını yağlayanda,
Adilənin göz yaşı
Qurudu bircə anda.

Amma ki, gil pişiyi
Unutmadı uşaqlar.
Ortaya kağız gəldi,
Cızıldı ağ varaqlar.

Çox əlləşib, axırda,
Bir məqsədə çatdılar.
Gil pişiyin çox qəşəng
Şəklini yaratdılar.

O gil pişik indi də
Kağızdan boylanırdı!
Yaşıl muncuq gözləri,
Yenə par - par yanırdı.

Şəklinin alt yanında
“Qoy yaşasın, Gil pişik!”
Sözlərini yazdılar.
Yenə evin əvvəlki
Taxçasından asdılar.

Daha onu uşaqlar
Çağırmadı: Gil pişik,
Gil pişik, çil - çil pişik.
Təkcə belə dedilər:
- Gözəldi Şəkil pişik.

## HAMI YATIR

\- Daha yatmaq vaxtıdır,
Ay şəkərim, nabatım!
\- Quşlar çöllərdə qaldı
Mən evdə necə yatım?
Görən gedib tapdımı
Yuvasını kəpənək?
Ulduzlara çatdımı
Düzəltdiyim çərpələng?
Çöldə canavarmı var
Ağaclar tir - tir əsir?!
\- Yat ay bala həyətdə
Axı qurd - quş nə gəzir?!
Dağlar da mürgüləyir,
Quş da, ilbiz də yatır.
\- İndi sən deyəcəksən,
Hətta dəniz də yatır?!
\- Əlbət ki, yatır, oğlum,
Onu oyatmaq olmaz!
\- Ləpələr guruldayır,
Heç belə yatmaq olmaz!
O, yatmayıb, oyaqdır,
Elə coşur - çağlayır!
\- O da sənin kimidi
Yatan zaman ağlayır.

- Bəlkə də böcəklərdən
Yolda izdə azan var?
Yoxsa niyə vurnuxur,
Yenə işıldaquşlar?!
- Quşun da, dənizin də,
Qurdun da, ilbizin də,
Göylərdə anası var,
İndi gəlib çatacaq.
Şirin lay - lay deyəcək,
O dəcəllər yatacaq.
Anasının səsindən
Kirpikləri qovuşdu.
Bir az xəyala daldı,
Sonra nəsə soruşdu.
Deyəmmədi sözünü...
Ay parladı üfüqdə
Uşaq yumdu gözünü.

## AĞ

Bir rəssam hey düşünür,
Baxır fırça dəstinə.
Ağ rəngi necə çəksin,
Ağ vərəqin üstünə?
Axı, o necə çəksin,
Yumurtanı, qaymağı,
Tabaşiri, əhəngi,
Bulamanı, qatığı.
Birdən gördü bayırda
Ağır - ağır qar yağır.
Dedi: - İndi Sibirdə
Sevinir ağ ayılar.
Göy Xəzərdə sevinir,
Sonalar, qağayılar.
Nə vaxtdı qar gözləyən
Uca dağlar sevinir.
Ağ atlar, ağ qoyunlar,
Bütün ağlar sevinir.
Ağaclar ağ geyindi,
Canavarlar deyindi:
- Necə tutum dovşanı?
Axı, hər tərəf ağdı?
Tülkülərin quyruğu
Elə bil ki, çomaqdı.
Nə ov var,
Eh, nə də ki,
Ovdan bir soraq gəlir.
Sübhəcən ulamaqdan

Gözlərimə ağ gəlir.
Bu qış lap ağ elədi,
Hər tərəfi qar aldı.
Yollar, izlər tutuldu,
Ağ günümüz qaraldı.
Çöllər, düzlər ağardı,
Yollar, izlər ağardı.
İslanmamaqçün hinə
Qaçışdılar toyuqlar.
Sərçə yumurtasını
Gizlədirdi oyuqlar.
Qar üstünə düşsəydi,
Yumurtalar itərdi.
Gələcək ətcələrin
Onda işi bitərdi.
Rəssam fikirləşirdi:
Gərək ayını çəkək,
Ağ kürkdə, ağ papaqda.
Dovşanlar keyf eləsin
Bir ağ mərmər otaqda.
Ağaclar rəqs edirdi,
Yağan qarın səsinə.
Ağ çiçəklər açmışdı,
Onlar qış həvəsinə.
Körpə rəssam deyəsən,
Nahaq əziyyət çəkdi.
Çünki, qışın şəklini,
Çöldə təbiət çəkdi.

## MAVİ

Dəniz necə təmizdi,
Mavi göy üzü kimi.
Damlalar parıldayır,
Bir balıq gözü kimi.

Küləklər pozsa əgər,
Dalğanın ahəngini.
Dəniz də dəyişəcək,
Həmin saat rəngini.

Xəzri güclənsə bir az
Coşacaq,
            Deyinəcək.
Hirsindən göyərəcək,
Tünd yaşıl geyinəcək.

Günəş sakitləşəndə,
Geyinər mavi paltar.
Gəlib sahillərində,
Oynaşar şən uşaqlar.

## QIRMIZI

Qırmızılar cürbəcür,
Qırmızı çeşid - çeşid.
Gör neçə qırmızı var,
Mən deyim, sən də eşit:

Gün doğanda laləyə,
Batanda şara bənzər.
Qan qırmızı nara bax,
Neçə süfrəni bəzər.

Bax, bu da Göyqurşağı -
Qoy rəngləri solmasın.
Özü yaşıl, çəhrayı,
Qıpqırmızı çalması.

Günəş gizlənən zaman
Buludların dalında,
Solğunlaşar qırmızı
Kəpənəyin xalında.

Pomidorlar kollardan
Yorğun - yorğun sallanar.
Lalə boynunu əyər,
Çiyələklər allanar.

Qırmızılar qışqırar:
- Kömək edin, ay aman,
Ana günəş boylansın,
Buludların dalından.

## NARINCI

Gəlin bir az düşünək:
Görək nədir narıncı.
Çəmənlikdə ən zərif
Bir çiçəkdir narıncı.

Narıncı naringiyə
Mandarin də deyirlər.
Bu qızılı meyvəni,
Gül balalar yeyirlər.

Qırmızıyla sarının,
Qarışığı narıncı.
Göyün, ağın, qaranın
Yaraşığı narıncı.

Ox kimi göyə qalxan
Qızıl qazdı narıncı.
Dəvənin boğazında
Bir qotazdı narıncı.

Ağ almanın günəşə
Düşən üzü - narıncı.
Günün son şüasında,
Bulud özü narıncı.

Bir narıncı süfrəyə
Düzün, qoy görək onu,
Narıncı mandarini,
Portağalı, limonu.

## YAŞIL

Türkün ana dilində
Yaşıl – cavan deməkdir.
Yaşıl – meşə, yaşıl - çöl,
Yaşıl – orman deməkdir.

Hər il bahar gələndə
Yaşıllaşır təpələr.
Elə bil ki, günəş də
Yerə yaşıl səpələr.

Yaşılın çox növü var:
Sarıya çalan yaşıl,
Açıq yaşıl, tünd yaşıl,
Qaraya çalan yaşıl.

Ətrafına yaxşı bax,
Seyr elə yaşıl bağı.
Sarı ilə şərikdi,
Limonun yaşıllığı.

Gavalının, alçanın
Rəngi qara yaşıldı.
Əriyin, ağ gilasın
Rəngi sarı yaşıldı.

Təzəcə salxımlanan
Qora – zümrüd yaşıldı.
Tağa yenicə düşən
Qıra – lap tünd yaşıldı.

Bu sözün mənasını
Babalar demiş olar.
Qoralar üzüm olar,
Qıralar yemiş olar.

Bu - əncir yarpağıdı,
İri pəncəyə bənzər.
Bu küknar budağıdı,
Yaşıl pencəyə bənzər.

Sən rənglərə yaxşı bax,
Gəzəndə göy çəməni.
Çinar yaşıl çadırdı,
Çəmən - yaşıl səməni.

Görürsənmi almanı,
Tutu, gilası, narı?
Yaşıl ağac yetirir,
Bu neməti, bu barı.

## BORANI

Bu nə addı qoyublar
Söylə görək Boranı?!
Çoxdan yola salmışıq
Soyuq qışı, boranı.

Arxın təmiz suyuyla
Doldurmusan qarnını.
Çox çəkirsən özünü
Dik tutmusan burnunu.

Niyə belə şişmisən,
Elə bil ki, tabaksan?!
De görək, boranısan,
Yoxsa ki, balqabaqsan?!

Tutub yaşıl tağından
Dırmaşırsan hasara.
Bir azdan səni dərib
Apararlar bazara!

## KİTABLARIN ANASI

“Əlifba” kitabıdır,
Kitabların anası.
Hər hərf bir göyərçin,
Hər hərf su sonası.

Nə çox səs var dünyada
Adam səsi, quş səsi.
Təbiətin dili var,
Düşündürür hər kəsi.

Səslərdən söz yaranır,
Sözdən gözəl cümlələr.
Sözə “qızıl” deyibdi,
Söz qədrini bilənlər.

Böcəyin də səsi var,
Küləyin də səsi var,
Hər səsin də yazıda
Bir cür işarəsi var.

Səs yazılsa vərəqə
Çönüb hərf olacaq.
Qanaq çalıb havada
Dəftərimə dolacaq.

“A” da  “ana” deyirəm,
“V” da “vətən”  kəlməsi.
Vətən ulu babamdır,
Vətən atamın səsi.

“Əlifba” xəzinədir,
Onda min inci yatır.
Hər şirin kəlməsində,
Uşaq sevinci yatır.

Gəlin heç tələsməyək,
Öyrənək “Əlifba” nı.
Bu dünyada onun tək
Əziz bir kitab hanı?!

## XOR

Bilirsənmi, xor nədir,
İnsanların birliyi!
Dənizlərin birliyi,
Ümmanların birliyi.

Xora qoşulmusansa,
Kimləsə həmfikirsən.
Deməli bir amalın
Qeyrətini çəkirsən.

Nəğmənin rəngi ağdı -
Günəşin rəngi kimi.
Qoy səsimiz ucalsın,
Nəğmə fişəngi kimi.

Xor oxuyur meşələr,
Xor oxuyur dənizlər.
Bir mahnı ürəkdəki
Milyon dərdi təmizlər.

Toplardan titrəməsin
Meşə, yamac, dağ, dəniz.
Xor oxuyaq titrətsin
Qoy dünyanı nəğməmiz.

Kim deyir ki, xor deyil

Min – min çiçək dəstəsi
Bir  “ağ qızıl”  tarlası,
Bir kəpənək dəstəsi.

Dostun mahnı oxusa,
Onun səsinə səs ver.
Qoy gurlasın nəğməniz,
Ona yeni həvəs ver.

Bilirsənmi, xor nədir,
İnsanların birliyi!
Dənizlərin birliyi
Ümmanların birliyi.

## NOTA DÜŞƏN NƏĞMƏLƏR

Nota düşən nəğmələr –
Hələ uyuyan quşdu.
Bir də görəcəyik ki,
Əngin səmaya uçdu.

Keçdi bütün dünyanı,
Gül üstə şehə döndü.
İnsanlara ruh verən
Bir sərin mehə döndü.

Hər not bir quş lələyi,
Hər not bir quş gözüdü.
Not nəğmənin şəklidi,
Not nəğmənin özüdü.

Bax, bu not albomudu -
Nəğmələrin yuvası.
İstəyirsən, buyur, çal,
Səsi göyə ucalsın.

Uçun, bizim mahnılar,
Uçmaq sizə yaraşır.
Bu şirin ahənginiz
Ölkəmizə yaraşır.

## SALAM, MƏLİK!

Salam, Məlik,
Varmı ərik?
- Torpağımız əriklidi.
Soyadımız Məliklidi!
Üç qardaşıq,
Üç sirdaşıq.
Qar Məlikdi bu ağbəniz,
Göy Məlikdi gözü dəniz.
Mən də ki, Sarı Məliyəm.
Özüm boyda bir əriyəm.
Əkilibdi, daranıbdı,
Bizim ərik bağlarımız.
Koroğludan yadigardı,
Bu kəlbuynuz bığlarımız.
Bu bağlarda qızıldüymə,
Sarıgilə əriklər var.
Əliaçıq, qəlbiaçıq,
Şeşəbığlı Məliklər var.
Limon, ərik sulanıbdı.
Ağ əriklər ballanıbdı.
Qızarıbdı, allanıbdı,
Salxım - salxım sallanıbdı.
Dərilməsə, hələ günün
Şüasını əməsidi.
Yaşılpaltar ağacların
Zərli, qızıl düyməsidi.
Hərəsi bir xırda günəş
Tez ol, Həsən,
Tez ol, Minəş,

Xəbər verin uşaqlara.
Dırmaşın göy budaqlara
Yeyin dadlı ərikləri
Şad eləyin məlikləri.
Ərik doldu səbətlərə.
Vaxt qalmadı söhbətlərə.
Hamı sevdi, Məlikləri,
Dadlı – dadlı ərikləri.

***

- Ay Ağ Məlik,
Ay Göy Məlik
Sarı Məlik.
Varmı ərik?
Yumru ərik, ballı ərik,
Yanaqları xallı ərik.
- Payız gəlib, ərik yoxdu!
Yer soyuqdu, göy soyuqdu.
Bax, gör necə sallanıbdı
Bizim şeşə bığlarımız!
Az qalır ki, ərik kimi
Yerə düşə bığlarımız.

***

Ay uşaqlar, yaxın gedin
Salam verin Məliklərə.
Bel götürün, su gətirin,
Qulluq edin əriklərə.
Tək yayda yox, bütün ili
Yada salın Məlikləri
Onda hər yay yeyərsiniz
Şəkər kimi ərikləri.

## BULUDLA SÖHBƏT

Buludlar, ağ buludlar,
Ay ağpapaq buludlar,
Deyin, hardan gəlirsiz?
- Lap uzaqdan gəlirik.
Hələ ağarmamış dan
Qalxmışıq okeandan.
Ağ yelkənlər açmışıq,
Göy üzüylə qaçmışıq.
- Nə gördünüz yollarda?
Çox ellərdən keçmişik,
Biz Sibirdən keçmişik.
Dələ gördük, Tayqada
Ağ dələ, sarı dələ.
Hündür Ayzberkləri
Seyr etdik gələ - gələ.
Ayzberk - buz dağıdı,
Dənizlərin içində.
Az qalmışdı toqquşaq,
Biz üstündən keçəndə.
- Yəqin ki, yorulmusuz,
Durun, dincəlin bir az.
Yox, ay qardaş, dayanmaq
Doğrusu heç yaramaz.
Biz yağış aparırıq

Zəmilərə, bağlara.
Suya həsrətli qalan
Ağaclara, tağlara.
Bir bax, yarpaqlarıyla
Əl edir bizə otlar.
Söhbətin vaxtı deyil,
Sağ olun əziz dostlar

**GÜLNAR VƏ GİLƏNAR**

Mayda bağçaya gəldi,
Bizim balaca Gülnar.
Gördü ki, budaqlardan
Asılıb göy sırğalar.

Yayda gəlib baxdı ki,
Burda ayrı büsat var.
Çönüb günəş rənginə
Həmin yaşıl sırğalar.

Yumru, qəşəng yanağı
Gör nə gözəl allanıb.
Muncuq - muncuq sırğalar,
Budaqlardan sallanıb.

Bir sırğa qıza dedi:
-  Dadlıyam, ləzzətliyəm.
Bir tamıma baxsana,
Şirəliyəm, ətliyəm.

Necə olub görəsən
Qızarıbdı gilənar?
Bu suala bir cavab
Tapa bilməyir Gülnar.

## ÇƏRKƏZ

Çərkəzə bax, Çərkəzə,
Qaraqabaq Çərkəzə.
Yayın düz ortasında
Çəkmə geyinib Çərkəz.
Göydən isti tökülür
Yüngül geyinib hər kəs.
Ona deyirlər:
- Qardaş,
Qar yağmayıb ha dizdən.
Bu nə geyimdi belə
Qorxmursanmı istidən.
Girir yağış gölünə,
Şappıldadır suları.
Vecinə də almır ki,
Üstü - başı bulanır.
Laqqıldayır çəkmələr,
Laq, laq, laq.
- Ay axmaq,
Lap nahaq,
Bizi batırdın suya.
İndi səni götürüb
Atacağıq biz çaya.
Çəkməni çəkə - çəkə,
Suyunu tökə - tökə,
Evə gedir bu oğlan.,
Bizim pinti Qəhrəman.

**QOY SƏRBƏST BÖYÜSÜN
BİZİM BALALAR**

Haraya dırmaşır bu körpə görən,
Yaxşı ki, istəyi, fikri qətidi?!
Dırmaşmaq, düşünmək, qalxıb - yüyürmək,
Uşağın böyümək əlamətidi.

Qoy sərbəst böyüsün sənin gül balan,
Heç kəs sərbəstlikdən peşiman olmaz.
Sərbəst böyüyərsə bir körpə fidan,
Sonra ata - ana nigaran olmaz.

Düşünən uşaq da xoşbəxtdi, məncə.
Düşüncən yoxdursa, köməyin yoxdur.
Ən böyük xoşbəxtlik - sərbəst düşüncə
Öz fikrin yoxdursa heç nəyin yoxdur.

Həyatda hər şeyə qalib gəlməyə
Kimin ağlı varsa, demək bəsidi.
Qartal qanadıyla millənər göyə,
İnsanın qanadı düşüncəsidi.

## KİTAB

Mənimkidir bu kitab, bax
Açıram varaq - varaq.
Möcuzəyə baxın bir,
Meşə nağıllar deyir.
Yağış yuyur tarlanı,
Çimizdirir hər yanı.
Gülür otlar, çiçəklər,
Uçuşur kəpənəklər.
Traktor nərə çəkir
Həm şumlayır, həm əkir.
Nəğmə deyir el - oba
Görən necə sığışıb,
Meşə, yağış, traktor
Bu əl boyda kitaba.

## HESAB DƏFTƏRİ

Bu vurma cədvəlidi,
Bu vurulan, bu vuran.
Yeddi çox gülməlidi,
Onun beli əyridi.

Sən birə bax, birə bax,
Uzundıraz, yaramaz.

Hansı rəqəmə vursan,
Ona təsiri olmaz.

Çəmbərquyruqdu iki,
Yoxsa əyribaş atdı?
Kimə vurdu özünü,
İki dəfə çoxaltdı.

İki dəfə üç altıdı,
İki səkkiz on altı.

İki dördə vuruldu,
Dördün keyfi duruldu.
İki dənə dörd oldu,
Dörd dənə iki oldu.

Altı qaz üzür göldə,
Bu da ki, ovçu İki.
Çaxmağı çəkən kimi
Qazlar oldu on iki.

Sehrli çubuğunu
Üçə sarı uzatdı.
Üç qıvrıldı, açıldı,
Çevrilib oldu altı

**DURNA VƏ MƏN**

Payız gəldi, saraltdı
Çölü, düzü, çəməni.
Uçub gedir durnalar,
Yalqız qoyurlar məni.

Uzun qanadlarıyla,
Onlar mənə əl edir.
Qəmlənir çöl, tarla, düz,
Quşlar köç edib gedir.

O yerlərə yəqin ki,
Təzəcə gəlib bahar.
Məni də özünüzlə
Aparın, ay durnalar!

Quşlar üzü aşağı,
Yerə həsrətlə baxır.
Uça bilməyirəm mən
Qanadım yoxdu, axı.

## PAYIZIN PAYI

Sudan arı payızım,
Donu sarı payızım!
Nə yaman yükləmisən,
Ağacları, payızım!

Alma budaqlarına
Düzübdü var - yoxunu.
Armudun qanadları
Ayağına toxunur.

Yanır qızıl şaftalı,
Sarı üzüm ballanıb.
Muncuq - muncuq gilələr,
Tənəklərdən sallanıb.

Payıza bax, payıza
Gətiribdir pay bizə.

## SÜLH GÖYƏRÇİNİYİK BİZ

*Musiqisi: Rəşid Şəfəqindir*

Xor - Göyərçinik biz,
Sülh quşuyuq biz!
Solo - Gülsün gül kimi,
Xor - Gül kimi,
Solo - Üzü ellərin,
Xor - Ellərin
Gülsün hər oğlu,
Qızı ellərin.
Xor - Göyərçinik biz,
Sülh quşuyuq biz!
Solo - Hərbin dadını
Xor - Dadını.
Solo - Ellər görməsin,
Xor - Görməsin
Hərbin odunu
Çöllər görməsin!
Xor - Göyərçinik biz,
Sülh quşuyuq biz!
Solo - Düşək dillərə,
Xor - Dillərə.
Solo - Bayram qoy, olsun,
Xor - Qoy olsun,
Bütün yer üzü
Nəğməylə dolsun!

## NOVRUZ GƏLİB, YAZ GƏLİB!..

*Musiqisi: Rəşid Şəfəqindir*

Bizim bağçamıza bir çəmən düşüb,
Sürüşüb baharın çiynindən düşüb.
Gündüzlər nə qədər quzu var orda,
Otlayır, mələyir quzular orda.

*Nəqərat*

Novruz gəlib, yaz gəlib,
Söhbət gəlib, saz gəlib.
Bülbüllər cəh - cəh vurur,
Çöllərə avaz gəlib.

Yaşıl çəmənlikdə qönçələr gülür,
Evlərdə bəzəkli xonçalar gülür.
Hər yanda tonqallar göyə yüksəlib,
Noğullu, qoğallı bir bayram gəlib!

*Nəqərat*

Şəkərbura ətri, paxlava ətri
Qonaq gəlsin kimin istəyir xətri
Göylərə qaldırıb dağlar çəməni
Çəmən özü boyda yaşıl səməni.

*Nəqərat*

## TELEFON

*Musiqisi : Oqtay Zülfüqarovundur.*

Zırınq
Zırınq
Zınq
Telefonam mən.
Gülnar,
Dəstəyi
götür yerindən.
Lazımsan yaman
dostun Kamala
Zırınq
Zırınq
Zınq
Lap yoruldum a...

## ANALARIN SÜLH ARZUSU

*Musiqisi: Hökumə Nəcəfovanındır***.**

Anaların sülh arzusu,
Sökülən dan, açan səhər.
Anaların arzusundan
Qanadlanır göyərçinlər.

Bir ananın təbəssümü,
Neçə topu yox eləyər.
Hərb başlasa düşməninə,
Kirpiyini ox eləyər.

Bir ananın gülüşündən
Milyon çiçək bitə bilər.
Bir ananın göz yaşında
Bütün dünya itə bilər.

## HEYVANLARIN NƏĞMƏSİ

*Musiqisi: Aytən İsmixanovanındır*

***CEYRAN***

Yel səsindən
Qorxuram.
Kəl səsindən
Qorxuram.
Xışıldayır
Zəmilər.
Çöl səsindən
Qorxuram.

**DOVŞAN**

Yerkökü
Yerə batıb.
Kələmlər
Harda
Yatıb?
İstəyirəm ki, sizi
Evimizə

Aparam.
Nə qədər
Gizlənsəniz
Gəzib
Gəzib
Taparam.

**AYI**

Qaçın, qaçın,
Yol verin.
Mən acmışam.
Bal verin.
Qoy yetişsin
Armudlar.
Demirəm ki,
Kal verin.

**CANAVAR**

Sözüm
Qətidi.
Dişim
İtidi.
Yediyim
Ancaq
Quzu ətidi.

## TÜLKÜ

Mən gözələm,
Nazlıyam.
Söhbətliyəm
Sazlıyam.
Mahnı da
Oxuyuram.
Lap şirin
Avazlıyam.

## GÜLSÜN TƏZƏ İLİMİZ

*Musiqisi: Rəşid Şəfəqindir*

Sevinir uşaqlar bu səhər,
Bürüyür hər yanı şəfəqlər.
Yolkamız bir yaşıl dəyə,
Mahnımız ucalır göyə.

*Nəqərat*

Çölümüz gülsün,
Elimiz gülsün.
Bu təzə gələn
İlimiz gülsün.

Sayrışır işıqlar budaqda,
Alışır nəğmələr dodaqda
Yollara yağan qar təzə,
Oyanan duyğular təzə.

*Nəqərat*

Hər yerdə uşaqlar gözləyir,
Məktəblər, bağçalar gözləyir.
Sevinclə döyünür ürək,
Hər uşaq bir canlı çiçək.

**QIZIL QAZ**

*Musiqisi: İqor Yegikovundur*

Yaz gəlib bax, yaz gəlib
Çöllərə
Ördək gəlib, qaz gəlib
Göllərə

Şirin – şirin yatmışdılar
Ləpələr
Qazlar göy sulara
Səpələr

Ey qızıl qaz
Ey qızıl qaz
Ey qızıl qaz
Qızıl qaz.

Bu qızıl ada
Hey üzür suda.

## SÖZDƏN SÖZ DÜZƏLDƏK

“Azərbaycan” sözündən,
Gəl təzə söz düzəldək.
Çaşmayaq, çaşdırmayaq,
Hər şeyi düz düzəldək.

Bu sözün həm CANı var,
Həm də ki, AZƏRi var.
Adında, ünvanında,
Pozulmayan ZƏRi var.

Bir basılmaz qaladı,
Nə desən ona AZdı.
Bir NƏR oğlu ƏRdi o,
YANAR dağdı ARAZdı.

Hər tərəfi gözəldi,
Gül - çiçəkli YAZ ı  var.
Payızda qızıl NAR ı,
Son baharda NAZ ı var.

Bir gün sökdük “Maralgölü”,
Yerə tökdük “Maralgölü”.
Ondan təzə söz düzəltdik,
Hər birini düz düzəltdik.

Gör nə gəldi başımıza;
MARAL çıxdı qarşımıza,
LAMA çıxdı qarşımıza.
MARAL qaçdı ARAL gölə,
LAMA qaçdı MARAL gölə.

Bir sözdə çox söz gizlənir,
Sözdə sözlər əzizlənir.
Sözə baxın; UZUNHOQQAR
Bu sözdə gör neçə söz var?!
Söküləndə UZUNHOQQAR
Birdən çıxdı neçə HOQQA
Üzdü göldə neçə NAQQA
Bir sözdə çox söz gizlənir,
Sözdə sözlər əzizlənir.

## KÜÇƏ MƏNƏ DAR GƏLİR

Paltarım par - par yanır,
Ürəyim alovlanır,
Dünya zərə boyanır,
Küçə mənə dar gəlir.

Saçlarıma gül taxım,
Şimşəklər kimi çaxım.
Gün çıxmasın, mən çıxım.
Küçə mənə dar gəlir.

Üzüyüm ay şöləsi,
Muncuğum gün dənəsi.
Sırğam zümrüd giləsi,
Küçə mənə dar gəlir.

Qabağıma kim çıxar?
Çəkilin, ay adamlar!
Küləyim sizi yıxar,
Küçə mənə dar gəlir.

Geri çəkil, ay oğlan,
Qarşımda xar olarsan.
Ayaq altda qalarsan,
Küçə mənə dar gəlir.

Söylə, nə qaşqabaqdı,
Sevgi - mevgi nahaqdı.
Dünya kefdi, damaqdı,
Küçə mənə dar gəlir.

Ürəyim mənə deyir,
Səni yüz oğlan sevir.
Onları külə çevir
Küçə mənə dar gəlir.

Sevmərəm bir oğlanı,
Mənim kimi qız hanı?!
Gəzərəm bu dünyanı
Küçə mənə dar gəlir.

Kiminin gözü yaşdı,
Kim küsdü, kim barışdı.
Sevgi bir aldanışdı,
Küçə mənə dar gəlir.

# BUNLAR DA Kİ NAĞILDI

## ÇİNARLARIN YUXUSU

*Dostum Məmməd İsmayıla*

Yüz ildə bircə dəfə
Yuxu görər çinarlar.

Qoca çinar bu səhər
Dedi: - Əziz pöhrələr,
Yuxumda gördüm göyü
Qatı duman alıbdı.
Leyləklər yaralanıb
Yarı yolda qalıbdı.
Qəşəng – qəşəng leyləklər.
Uzunboğaz leyləklər,
Qızıl lələk leyləklər.
- Bəs neyləyək ay baba,
Pöhrələr silkələndi.
İri yarpaqlarından
Şeh muncuqlar ələndi.

Çinarlar bircə anlıq
Nəfəs aldı dərindən.
Necə güc vurdularsa
Çıxdılar yerlərindən.

Hər çinar öz kökünü
Geyindi ayağına.
Onlar bir an içində
Düşdü yolun ağına.
Asta gedən namərddi,

Addımları nə bərkdi!
- Bir, iki,
Qıvraq ol,
Bir, iki,
Yaxşı yol.
Gedir, gedir çinarlar.
Qorxmurlar ki, qəfildən
Tufan qopar
Sınarlar.
Bərk tutublar
Yuvanı,
Qolları yarım qalıb.
Kötüklərin izindən
Yollarda şırım qalıb.

Yorulanda arabir
Bir - birini çəkirlər.
Bilmirsən yol gedirlər
Yoxsa ki, şum əkirlər.
Bir, iki qıvraq ol,
Bir, iki yaxşı yol.
Onların ayaq səsi
Çölü, düzü oyatdı.
Axırı ki, bu dəstə
Gəlib vağzala çatdı.

Bələdçi kəsdi yolu,
- Hara belə, qulaq as!
Bu boyla, bu buxunla,
Qatara minmək olmaz.
- Axı, yolda qalıbdı,
Qəşəng - qəşəng leyləklər,

Uzunboğaz leyləklər.
Tükü ipək leyləklər...
Tələsirik onların
Köməyinə çatmağa.
İki - üç kupe verin
Bir neçə gün yatmağa,
Yollar yaman uzaqdı.
- Bilirsiniz, yağlı dil
Tökməyiniz nahaqdı!
Bu uca boyunuza
Vaqonlarda yer hanı?
Qolunuz - qanadınız,
Tutub bütün dünyanı!
- Gərək vaxtında çatsın
Yuvalar leyləklərə...
- Vaqonlarda yer yoxdu,
Başa düşün bir kərə!
Bu söhbəti eşidib
Fısıldadı paravoz.
Dedi: - Sizin işiniz.
Deyən vacibdir, ay dost.

Gözündə şimşək çaxdı,
Başından tüstü çıxdı.
Ağ bığlı, ağ saqqallı
Bir qocaymış paravoz,
Mərd imiş, kişi imiş
Şir qocaymış paravoz
Düşünüb dedi:
- Qardaş,
Duydum ürəkdən sizi.
Hara istəsəydiniz

Aparardım mən sizi.
Heyif ki, qocalmışam
O əvvəlki güc hanı?!
Bir azca töyşüyəndə
Tüstüm tutur dünyanı.
Gedə bilmərəm daha
Uzaq – uzaq səfərə.
Öz hissimlə, tüstümlə
Necə çıxım şəhərə?!
Yoxuşa dirənəndə
Dumanım başdan çıxır,
Çörəyim daşdan çıxır...
Sizi geri qaytarmaq
Gəlmir üzümdən mənim.
Qoy oğlumla danışım
Çıxmaz sözümdən mənim.

Bilirsiniz heç neçə
Fil gücü vür canında
Sizin o nağıldakı
Divlər nədi yanında!

Gücü əmər telindən,
Qüvvəti belindədi.
Hara desən şütüyər
Hər tərəf əlindədi.
Heç nə çatmaz dalından
Külək nədi, yel nədi.
Telinə toxunmayın,
Onun canı teldədi.

Teli, bu teldən deyil,
Toxunsan vurar səni.
Qaraldar kömür kimi,
Yandırar, yaxar səni.

Gəldi o telli oğlan
Dedi: - Minin, ay çinar
Ehtiyatlı olun ha,
Dağılmasın yuvalar.

Dəmir yol oxşayırdı
Bir cüt poladdan qola.
Elektrovoz getdi
Bərkdən fit çala - çala.

Səhər gün doğan kimi
Boz ayılar ayıldı.
Onların hayı - küyü
Hər tərəfə yayıldı.

Bir - birini qovurdu
Sarı ayı, boz ayı
Birdən çuxura düşdü
Yekə qonurgöz ayı.
Qaldı bir an yarımçıq
Ayıların oyunu.
Dedilər kim gödəldib
Bu meşənin boyunu?!
Kim qırıb buraları
Meşə çala - çaladı.
Dələ gəlib ayının
Ayağını yaladı.

Gözləri yaşla doldu,
Dedi: - Bizim meşədə
Bir qəribə iş oldu.
Dünən bütün çinarlar
Yola çıxıb yeridi.
Düşdüyünüz çalalar,
Çinarların yeridi.

Eşidib bu sözləri
Donquldandı ayılar.
İçi boş qazan kimi
Dınqıldandı ayılar.

Qışqırdılar: - Tez olun,
Qaçıb bütün çinarlar.
Birdən yolu azarlar,
Birdən yolda sınarlar.
- Hayana gedib onlar
Yuvaları başında?!
- Ya qatara miniblər
Ya gediblər maşında?!
- Bu gün - sabah gələcək
Meşənin qonaqları.
Yuvasız axı, necə
Qarşılayaq onları?

Qaçdı bütün ayılar,
Qaçdılar yorta – yorta.
Təyyarə meydanında
Mindilər vertolyota

Vertolyot guruldadı,
Göyə qalxdı bir anda.
Ayılar dedilər ki,
Düşəcəklər Muğanda.
Hə, uşaqlar, indi mən
  Sizə nədən danışım,
Yolda yorulub qalan
Leyləklərdən danışım.

Afrika torpağından
Elə ki qalxdı onlar.
Heç deməzdin quş uçur
Deyərdin oxdu onlar.

Başlarını düz tutub,
Göyə havalandılar.
Günəşin işığında
Çıraq kimi yandılar.

Yox, onlar uçmurdular,
Eləcə süzürdülər.
Göy nəhəng bir dənizdi –
Gəmi tək üzürdülər.

Başları dor ağacı
Yelkəndir qanadları.
Uçdular yorulmadan
Möhkəmdir qanadları.
-  Gör yer necə uzaqdır,
Meşə yaşıl kölgədir.
Görən o hansı dağdır,
Bura hansı ölkədir?!

- Afrikadan çıxmışıq
Bura başqa torpaqdı.
Görürsən, aşağıda
Bağlar papaq – papaqdı?!
O, xurma ağacıdı,
Budaqları lələkdi.
Burdan elə bilirsən
Nəhəng yaşıl pətəkdi.

Xurmaları oxşayır
Qızıl, qırmızı topa.
Meyvələr salxım - salxım,
Meyvələr lopa - lopa...

Ən hündür zirvələr də,
Onlardan aşağıydı.
Leyləklərin qatarı
Sanki göy qurşağıydı.
Birdən eşitdi onlar
Qızılquşun səsini:
- Ey leyləklər, dayanın!
Dərərək nəfəsini,
Qışqırırdı: - Bir durun,
Söz deyim dəstənizə!
Bu kənddə bir qarının
Ehtiyacı var sizə.

Yavaşıdı ağ qatar,
Gəlib çatdı qızılquş.
Leyləklər soruşdular:
- Söylə görək nə olmuş?
Xurma ağaclarına?

Sarılıbdı ilanlar.
Nə söz başa düşürlər.
Onlar nə də dil anlar.
Həmin bağın sahibi
Kimsəsiz bir qarıdı.
Onun varı, dövləti
Xurma ağaclarıdı.
İşdi yığa bilməsə,
Bağının meyvəsini,
Ağlayan nəvələri
Kəsməyəcək səsini.

Leyləklərin qəzəbdən
Əsdi dili - dodağı.
Qırıcı təyyarə tək
Şığıdılar aşağı.

Günəş yaman şaxıyır,
İstidi təndir kimi.
İlanlar da sarınıb,
Ağaca kəndir kimi.
Qarının bağçasında
Bir gör nə çox ilan var!
Yetişən xurmalardan
Yeyib yatır ilanlar.

Baxan yoxdu qocanın
Gözlərinin yaşına.
Axı kim çıxa bilər
Ağacların başına?!

İlanlar gördü bağda
Çoxalıbdır quş səsi.
Birdən hücuma keçdi
Leyləklərin dəstəsi.

Yumaq kimi yumrulub
Fısıldadı ilanlar
Dişiylə, quyruğuyla
Hücuma keçdi onlar.

İlanların dik başı,
Dayandı barmaq kimi.
Leyləklərin dırnağı,
Açıldı qarmaq kimi.

Qayçı dimdikləriylə
Tutdular ilanları
Qalxıb buluda kimi
Buraxdılar onları.

Daşa dəyib ilanlar
Yumaq tək yunuldular
Tərpənə bilmədilər
Yerlərində qaldılar.

Qarının nəvələri
Sevindilər,coşdular.
Bu qəhrəman quşlara
Belə nəğmə qoşdular:
- Sənə uğurlar olsun,
Ay hacıleylək baba!

Qanadları cüt çətir.
Qılçı dəyənək baba.

İşıq zılağı kimi
Süzüb getdi leyləklər,
Nəvələr gördü necə
Gözdən itdi leyləklər.

Bu döyüşdə leyləyin
Neçəsi yaralandı.
Baxdılar ki, çoxunun
Üstü qızılı qandı.
Düzdü, yaralıydılar
Amma xeyli şəndilər.
Onlar Muğan düzündə
Qamışlığa endilər.
Burda gözlədilər ki,
Qoy kəsilsin qanları
Həmin gecə yuxuda
Çinar gördü onları.

Düşüb elektrovozdan
Çinarlar gəzdi yolu.
Kür üstdəki körpüdə
Ayılar kəsdi yolu.
- Hara belə, ay çinar?
Donquldandı boz ayı.
Meşə necə olacaq,
Çinarsız bütün yayı?!

- Bilirsiniz, leyləklər
Yarıyolda qalıbdı.

Yuxuda gördüm onlar
Möhkəm yaralanıbdı.
- Leylək nədir?
Açmayın
Başımıza oyunu!
Hara aparmısınız
Meşəmizin boyunu?
Meşə yaman gödəlib
Yoxdu budaqlarınız
Oğurlayıb küləyi
Yekə yarpaqlarınız.

Meşə budaqsız qalıb,
Meşə yarpaqsız qalıb
Siz də ki, boş - boşuna
Minibsiniz maşına.
Veyil - veyil gəzirsiz,
Hər tərəfi əzirsiz.
- Yox, veyil deyilik biz
Hər sözə əyilək biz!
- Elə bilirsiniz ki,
Biz ayıyıq, axmağıq
Hara qaçacaqsınız
Heç yana buraxmarıq.
Ayı kimi tərs heyvan,
Meşələrdə az olur.
Onunçün də deyiblər
Ayılar qanmaz olur.
- Atmayın meşələri,
Tez olun, dönün geri!
- Tutmayın qolumuzdan.
Çəkilin yolumuzdan!

Axı, yolda qalıbdı
Qəşəng – qəşəng leyləklər,
Uzunboğaz leyləklər,
Tükü ipək leyləklər,
- Buraxmarıq!
- Çəkilin!
Dartınıb çıxdı onlar,
Ayıların əlindən.
Aşırılıb keçdilər,
Qanmazların belindən.
Bircə anda körpüdən
Keçdi nə qədər budaq
Ayılar qışqırdılar:
- Bunlardakı gücə bax!
Əvvəl boğazlarını
Hey bağırıb - yırtdılar
Sonra da çinarların
Arxasınca yortdular...

Çinarları görəndə
Leyləklər sevindilər.
Qayçı dimdiklərini
Şaqqıldadıb dindilər:
- Gör bir hara gəlibdir,
Bizim çinar babamız!
Uzaqlara gəlibdi,
Bizim çinar babamız!
Yuvamız da gəlibdi,
Evimiz də gəlibdi.
Obamız da gəlibdi!
Qondular yuvalara,
Geri döndü çinarlar.

Gəldikləri cığırla
Gedir indi çinarlar.
Hər tərəfi bürüdü
Leyləklərin şən səsi.
Bağça uşaqları tək
Gedir çinar dəstəsi.
Arabir də yuvada
Görünür ağ köynəklər.
Sağalıb yaraları
Rahatdılar leyləklər.
Görən başa düşdümü,
Ayılar bu nə işdi?
Çinarlar niyə qaçıb
Bu düzlərə gəlmişdi?
Yolun əziyyətini
Lap unudub çinarlar.
Elə bil yuvalardan
Xonça tutub çinarlar...

*1979*

**SİÇANLARIN KƏLƏYİ**

Siçan çox qorxaq olur,
Hamıdan qaçaq olur.
Qara nöqtədir gözü,
Yumru yumaqdır özü.
Xırdaca topa bənzər
Quyruğu sapa bənzər.

Bığı yağdı pişiyin
Keyfi çağdı pişiyin.
Parıldayan gözləri
Bir çıraqdı pişiyin.
Gündüz gəzər eşikdə,
Gecə durar keşikdə.
Harda istəsən yatar.
Yük üstündə, beşikdə.
Beli zolaq - zolaqdı
Qarnının altı ağdı.
Dırnaqları əyridi
Elə bil ki, qarmaqdı.

Bir gün bütün siçanlar
Yığışdılar bir yerə
Dedilər ki, pişikdən
Xilas olmaq gərəkdir.
Bir söz söylədi hərə
Yorğun - yorğun bir siçan

Bığı uzun bir siçan
Dedi: Pişik həmişə
Gəlir səssiz - səmirsiz.
Əgər onun boynundan
Bir zınqrov assaq biz.
Söz verirəm sizə mən,
Üstümüzü qəfildən,
Ala bilməz heç zaman.
Yeriyəndə bilərik
Hələ ona lağ edib,
Biz doyunca gülərik.
Bu söz lap xoşa gəldi,
Siçanlar coşa gəldi.
Badələr cingildədi,
Qonaqlar dingildədi.
Oynadılar, çaldılar
Hamısı xoşhaldılar.
Siçanların birisi
Lap yekəsi, irisi
Dedi: - Bir qulaq asın!
Pişiyin boğazından
Zınqırovu kim assın?
Bu necə sual oldu,
Elə bil ki, siçanlar
Bircə anda lal oldu!
Tir - tir əsdi əlləri,
Topuq çaldı dilləri.
Kimsədən çıxmadı səs.
Zınqrovu asmağa
Cürət etmədi heç kəs.
Lap balaca bir siçan
Bapbalaca bir siçan

Burnu xırda qırmızı
Gözü bir damcı siçan.
Bığları vergül kimi.
Quyruğu qamçı siçan.
Şəstlə gəldi qabağa
Boylandı sola - sağa,
Dedi ki, mən gedərəm
O pişiyin boynundan
Zınqrovu asmağa!
Badələr cingildədi,
Qonaqlar dingildədi.

O lap balaca siçan,
O bapbalaca siçan,
Zınqrovu yavaşca
Bir halqa ipə saldı.
Sonra da ehtiyatla
Onu çiyninə aldı.
Gecə hamı yatanda,
Bal yuxuya batanda,
Çıxdı stolun üstə,
Ordan keçdi divana,
Boylandı hər tərəfə.
Tullandı sandıqçaya,
Oradan çıxdı rəfə.
Rəfdən düşdü taxçaya.
Orda dincəldi bir az;
Birbaşa getmək olmaz.
Quyruğunu tərpədib
Sığal çəkdi qaşına.
Axırda gəlib çıxdı
Şifonerin başına.

Birdən pişik otağa girdi,
Ordan keçib yatağa girdi.
Öz - özünə deyinirdi:
- Burdan siçan iyisi gəlir,
Qorxub, qaçan iyisi gəlir.

Öz yerində
Durdu bir an.
Baxdı - baxdı
Körpə siçan.
Pişik durub
Şifonerin
Ayağında.
Bir qəzəb var
Dodağında.
Dırnaqları
Hey açılır,
Hey bükülür.
Gözlərindən
Od tökülür.
Bığlarını
Yana əyib,
Quyruğunu şeşələyib,
Düz dayanıb.
Susub bir an,
Zınqırovlu
Halqa ipi
Atdı siçan.
Göydən yekə
Çevrə kimi
Düşdü o ip.
Düz pişiyin

Boğazına
Keçdi o ip.
Axı, pişik
Gəzirdi ov.
Hardan düşdü
Bu zınqrov?!
Zınqrovun
Cır səsindən
Çaşdı pişik.
Şifonerin
Arxasına
Qaçdı pişik.

O bapbalaca siçan,
O lap balaca siçan.
Ara qarışan kimi
Şifonerin başından
Tullandı düz taxçaya
Ordan da sandıqçaya.
Sandıqçadan divana,
Divandan da o yana.
Düşdü çox cəsarətlə
Əyib kiçik boynunu.
Yüyürdü çox cürətlə
Pişik görmədi onu.

Bizim qəşəng pişiyin
Azalmışdı tamam ovu.
Yazıq bir az tərpənəndə
Səslənirdi zınqrovu.
Quzu ilə çəpiş ona

Çox həsədlə baxırdılar.
Onlar sarı çiçəklərdən
Zınqrov da taxırdılar.
Gözlərini çəkmirdilər
Bu pişikdən heç bircə an.
Deyirdilər: - Kaş bizim də
Olaydı bu zınqrovdan!

Ad günüdür çəpişin
Gəlib bütün heyvanlar.
Hərənin qoltuğunda
Qəşəng bir hədiyyə var.
Qapıdan girdi pişik
Söylədi: - Mən gəlmişəm.
Özünüz görürsünüz
Daha lap yekəlmişəm.
Deyirəm zınqrovu
Verim qəşəng çəpişə.
Səs salsın qaçan zaman
Çəpiş yamaca, döşə.
Sonra susub bir qədər
Dedi: - Əziz keçilər,
Bu gözəl hədiyyəni
Gəlin, açın boynumdan.
Çəpiş isə həmin an
Bir mayallaq da aşdı.
Sevindilər qonaqlar,
Keçi bir süfrə açdı.
Pişik sevinirdi ki,
Qurtardı zınqrovdan.
Əliboş dönməyəcək
Geriyə daha ovdan.

Çəpiş sevinirdi ki,
Zınqrovu var onun.
Barmaqla göstərəcək
Çöldə heyvanlar onu.
Bu vaxt yəqin siçanlar
Mışıl – mışıl yatırdı.
Onlar yuxularında
Pişiyin boğazına
Zınqrovlar atırdı...

## FIRLANCAQ

Bizim Dağüstü parkda,
Nəhəng bir fırlancaq var.
Gündüzlər gəlib burda
Uşaqlar fırlanırlarr.

Gecədən xeyli keçmiş
Dələ gəldi fırlana.
Fırlanmadı fırlancaq,
Çəkdi o yan - bu yana.

Gəldi bütün dələlər
Oynadılar, coşdular.
Bu nəhəng fırlancağa
Bir mahnı da qoşdular:
"Fırlancaq, ha fırlancaq,
Nə zaman fılanacaq?!
Yuvası xonça - xonça.
Hər yuva bir düyüncə!
Yeddibaşlı divdi bu.
Ya bir dəmir evdə bu?!
Fırlancaq, ha fırlancaq
Nə zamza fırlanacaq?!"
Onlar xorla dedilər:
- Yox, bu fırlancaq deyil!
Eşidib bu nəğməni
Gəldi pələng, gəldi fil!
Gəldi qonurgöz ayı
Bir yanını basaraq.

Dələlər qışqırdılar:
- Fırlanacaq fırlancaq!
Pələng bərk nərildədi,
Pələng bərk guruldadı.
Sınamaqçün özünü,
Yerə qoydu dizini.
Əl atdı fırlancağa.
Qışqırdılar dələlər:
-  Fırlancaq, ha fırlancaq,
Fırlancaq fırlanacaq!
Fırlanmadı fırlancaq...
Xortumunu dik tutub
Fil irəli yeridi,
Səs - küy salan dələlər
Bircə anda kiridi.
Qaldırıcı kran tək
Göyə tutdu başını.
Sanki qaldıracaqdı
Bir dəyirman daşını.
Qışqırdılar dələlər
-  Fırlancaq, ha fırlancaq,
Fırlancaq fırlanacaq!
Fırlanmadı fırlancaq.
Axı, daha neyləsin
Fil sakitcə dayandı.
- Canım, fırlancaq deyil,
Bu, nəhəng pəhləvandı!
- Filin gücü çatmadı!
Hamı düşdü təşvişə.
Timsahlar, kərgədanlar
Gəlib qarışdı işə.
Çoxaldılar, artdılar

Fırlancağı dartdılar.
Qışqırdılar dələlər:
- Fırlancaq, ha fırlancaq,
Fırlancaq fırlanacaq!
Onların üz - gözündən
Gör necə tər axırdı.
Yox, gücləri çatmadı,
Dedilər: - Çox ağırdı!
Eh, bunu dartmaq olmaz,
Bunu fırlatmaq olmaz.

Hakışta, ha hakışta,
Gəlib çıxdı qarışqa.
Soyundu pencəyini,
Çıxartdı əlcəyini.
Bığlarını yağladı
Fırlancağı yoxladı.
Ayı dedi: - A qardaş,
Özünü yorma nahaq.
Filin gücü çatmadı
Sənin gücün çatacaq?!
Bu sözümün üstündə,
İstəyirsən söy məni.
Dillənmədi qarışqa
Basdı kiçik düyməni.
Söylədi ki, fırlancaq
Bu saat fırlanacaq.

Fırlanırdı dəmir ev,
Nağıldan gələn bu dev.
Hamı dedi: - Ay aman,
Qarışqa pəhləvandı.

Sevindilər dələlər
Oynadılar, coşdular.
Qəhrəman qarışqaya
Belə nəğmə qoşdular:

Hakışda, ha hakışda.
Bu fildi, ya qarışqa?
Ayaqları bir metr
Dişləri bir qarışdı.

A mızmızı, mızmızı,
Gözləri qıpqırmızı.
Kirpiyi budaq -budaq
Bığları kəl buynuzu.

Qarışqa pəhləvandı,
Bu söz gəzdi - dolandı.
Mən bu nağılı yazdım.
Fırlancaq da fırlandı.

## SƏRÇƏLƏR

Civildəşir yuvada
Ətcəbala sərçələr.
Boylanırlar arabir
Sağa - sola sərçələr.
Onlar üç bacı - qardaş,
Onlar üç yaxın yoldaş.
Quyruqlarındakı tük
Gör nə yaman sarıdı.
Gözləri bapbalaca,
Elə bil ki, darıdı.
Uça bilmirlər hələ,
Civildəşirlər elə.
Quyruğu dik sərçələr,
Sarıdimdik sərçələr.

II

Otların arasından
Qıvrılıb çıxdı ilan.
Boylandı sağa - sola
Ağaca baxdı ilan.
Onun rəngi qırmızı.
Üstündə qara xal var.
Günəşin işığında
Parıldayır bu xallar.
Düymədən də balaca
Gözləri var ilanın.
Dişlərinin dibində

Zəhəri var ilanın.
Quşlar susdu o saat...
Qardaş - bacı sərçələr
Elə atıldı - düşdü.
Söylədilər:
- Nə işdi,
Nədən qorxdu ki, quşlar?
Birdən ağacın altda
Gördülər ki, ilan var.
Səslərini kəsdilər,
Əsim - əsim əsdilər.

III

İlan çıxartdı
Haça dilini.
O, qarmaq kimi
Əydi belini.
Dedi: - İndi mən
Yeyərəm sizi!
Onun qor kimi
Parladı gözü.
- Civ-civ, civ-civ, yox
Bizi yemə sən.
İndi anamız
Gətirəcək dən.
Hirsləndi ilan:
- Mən yaman acam,
İndicə sizi
Diri udacam.
Birdən qıvrıldı
Hazırlaşdı ki,

Sıçrasın ilan
Üç bala sərçə,
Üç körpə ətcə,
Əsdi qorxudan.
Çaşdılar onlar:
- Nə eyləyək biz?
Oldu bir anda
Tükləri biz - biz.

IV

Birdən kolun dibindən
Çıxdı qara bir yumaq.
Top kimi yupyumrudur
Amma iynəsinə bax!
Yumağın ortasından
Bir baş çıxdı bu zaman.
Gözü mərcimək kimi
Burnu qara böyürtkən.
Bu ki, bizim kirpidir
Amma hələ körpədir.
Görən gücü çatarmı
Bu qıvrılan ilana?
Aha, aha, kirpinin
Gözü sataşdı ona.

V

Balaca kirpi
Düz quyruğundan
Tutdu ilanın.
Əvvəlcə ilan

Saymadı onu.
Dedi:
- Uşaqdı.
Sonra gördü yox...
İşlər şuluqdu.
Bala kirpiyə
Sarıldı ilan.
Yumalandılar,
Eşələndilər.
Uçdu böcəklər,
Qaçdı böcəklər.
Əzildi otlar,
Zərif çiçəklər.

VI

Kirpi qəzəblənmişdi
İlanın bu işinə.
İlan da əlləşirdi, -
Bəlkə keçə kirpinin
Başı onun dişinə.
Amma kirpi elə bil
İynəli bir yumaqdı.
Elə diyirlənirdi,
Elə yumalanırdı,
İynələnən ilanın
Bəbəkləri yanırdı.
Bir azdan söndü onun
Alovlanan gözləri.
Nəfəsi də kəsildi.
Lap səsi də kəsildi...
Civildədi, sevindi

Qardaş - bacı sərçələr.
Yazıq körpə ətcələr.
Sarıdimdik sərçələr.
Quyruğu dik sərçələr.

VII

Qabardıb iynəsini
Silkələdi özünü.
Təmizlədi belinin
Torpağını – tozunu.
Bizim balaca kirpi,
Pəncəsi haça kirpi
Cığıra düşdü, getdi,
Meşədə gözdən itdi...

## OVÇU PAŞABALANIN MACƏRALARI

Tanış olun, ovçunun
Adı Paşabaladı.
Amma onun işləri
Tamam başabəladı.
Uşaqlar, soruşursuz:
Ovçu hardan gəlibdir?
Qulaq asın söyləyim:
- Nağıllardan gəlibdir,
Yamanca sehrkardır.
Yüz tilsim açıb, gəlib.
Çox divləri aldadıb,
Uzaqdan qaçıb gəlib.
Belində patrondaşı,
Çiynində tüfəngi var.
Elə bil ki, hamıyla
Bu ovçunun cəngi var.
Çox qəribə adamdır,
Amma tuşqul atandır.
Axşam ovçuluq edir,
Gündüzləri yatır o.
Tüfəngə patron deyil,
Hərf qoyub atır o.

Bizim Paşabalanı
Yaxşı tanıyıram mən.
Gəlin bir az danışım

Onun əməllərindən.
Ağlayırdı “az” sözü
Əvvəl sözü,
Axır sözü bu idi
- Axı, niyə “az”am mən.
Evimizə gedəndə
Az qalıram azam mən.
Birdən, böyürdən
Çıxdı Paşabala.
Dedi: -Bala.
Ağlama.
Sonra bala – bala
Tüfəngini
Çiynindən çıxartdı.
“S” hərfini “az” ın
Vurdu düz təpəsindən.
“Az” qorxdu bir balaca
Tüfəngin gur səsindən.
“S” “az”a dəyən kimi
“Az” çevrilib “Saz” oldu.
Çaldı “ Yanıq Kərəmi ”,
Koroğludan danışdı.
Sazın şirin avazı
Bizə çoxdan tanışdı.
Birdən
“ S ” hərfi
Səssizcə
Sürüşdü.
Yerə düşdü, itdi.
Sazın da işi bitdi.
“Az” ağladı az qala.
Birdən,

Böyürdən
Çıxdı Paşabala.
Dedi: - Bala,
Ağlama.
Sonra bala - bala
Tüfəngini çiynindən çıxartdı.
“Q” hərfini “az”ın
Vurdu düz təpəsindən.
Bu dəfə “az” qorxmadı
Tüfəngin gur səsindən.
“Q” “az”a dəyən kimi
“Az” çevrilib “Qaz” oldu.
Gülüb dedi: - Mən qazam!
İstəyirsən bataqlığı qazım,
Özümə yer axtarım!
İstəyirsən dənizdə üzüm.
Nə versəniz yeyərəm:
Qarpız, şaftalı, üzüm.
Qaz yamanca qazdandı...
- Qabağımdan qaçın. – dedi.
Mənə tez yol açın, - dedi.
Qəfildən
“ Q ” hərfi
Qırıldı.
Quyuya düşdü, itdi.
Qazın da işi bitdi.
“ Qaz ” çevrilib “az” oldu.
“ Az ” ağladı az qala.
Birdən
Böyürdən,
Çıxdı Paşabala
Dedi: - Bala.

Ağlama.
Sonra da bala - bala
Tüfəngini çiynindən çıxardı.
“ Y ” hərfini “az” ın
Vurdu düz təpəsindən.
“ Az ” ın xoşu gəlirdi
Bu tüfəngin səsindən.
“Y”  “az” a dəyən kimi
“Az” çevrilib “Yaz” oldu.
Güllər, çiçəklər açdı,
Kəpənəklər uçuşdu.
Ləçəkləndi ağaclar,
Göyçəkləndi ağaclar.
Birdən necə oldusa
“Y” hərfi yumalandı
Yuxarıdan aşağı.
“Yaz” çevrilib “az” oldu,
Yazıq lap nasaz oldu.
Amma ağlamadı “az”.
Axı, o nə saz idi,
Nə qaz idi, nə də yaz.

“Az” girdi bir kitaba,
Sətirlərin içində
Rahat uzandı, yatdı.
Paşabala da axı,
Nağıllardan gəlmişdi,
Nağıllara qayıtdı.

## QARAQULAQ AĞ KÜÇÜK

I

Kədərliydi
Çil - çil fərə.
Çox dərdliydi
Çil - çil fərə.
Onun dümağ
Yumurtası,
Yumru, yumaq
Yumurtası.
Hər gün hindən
Yox olurdu.
- Tez tapılsın
Gərək oğru,
Axı, kimdi
Görək oğru?!
Qızıl xoruz
Quqquldadı.
Qanadları
Şaqqıldadı.

II

Qaraqulaq bir küçük,
Rəngi dümağ bir küçük.
Hindən xeyli aralı
Qısılmışdı çəpərə.

Axı, yumurtlayacaq
İndicə çil – çil fərə.
Gülməlidi bu küçük,
Quyruğu çox tüklüdü,
Qulaqları pələdi.
Deyirlər ya tülküdü,
Ya da ki, bu dələdi.
Qaraqulaq, ağ küçük
Mırıldadı astaca:
- Yesəm o yumurtanı
Qarnım tox olar bir az,
Bilirəm ki, heç kəsin
Bundan xəbəri olmaz.
Ağzının suyu axdı,
Boylanıb hinə baxdı.

III

Çıxdı yerindən
Bizim çil fərə
Küçük bir az da
Sindi çəpərə.
Sonra süründü
O, hinə sarı.
Fikirləşirdi:
"Toyuqlar məni
Görməyə, barı".
Açdı ağzını,
Soxuldu hinə.
Ağ yumurtanı
Götürdü yenə.
Birdən dörd yanı,

Aldı toyuqlar.
Onun üstünə
Gəldi toyuqlar!..

IV

Xoruz çıxdı ağaca
Banladı: quq - qulu -qu...
Qaraqulaq, ağ küçük
Bilin, oğ - ru-dur, oğ - ru!
Yanını basa - basa
Gələn qaza bax, qaza.
Qışqırdı ki, doğrudu,
Qa-raqu-lağ, ağ kü - çük,
Bə - li, bə - li, oğrudu!..
Sarıdimdik ördəklər,
Qanadları rəngbərəng
Bəzəkli kəpənəklər
Buraya gəlmişdilər.
Eşidib bu səs küyü
Haraya gəlmişdilər.
Haray saldılar: - Aman,
Qaraqulaq ağ küçük
Yaman oğruymuş, yaman!..

V

Qaraqulaq ağ küçük
Bircə anda yox oldu.
Qaçıb evin dalından
Zirzəmiyə soxuldu.
Bir az qulaq asdı ki,

Görsün bayırda nə var.
Qışqırırdı hələ də
Hinduşkalar, xoruzlar.
Ağ küçüyün əlləri
Tir – tir əsirdi elə.
Quyruğunu qısmışdı
Ayaqlarına hələ.
Yekə dodaqları da,
Pələ qulaqları da
Titrəyirdi qorxudan.
Bir azdan səs - küy yatdı,
O da özünə gəldi.
Əl - qolunu uzatdı.
Çənəsini qoluna
Dirədi, susdu xeyli,
Gözünü yumdu, yatdı.

## SƏMƏNDƏR

Yaşıl paltar Səməndər
Səhər yaşıl çəməndə

Otarır çəpişləri,
Axşam qayıdır kəndə.

Elə ki, qayıdırlar
Axşam geri çəpişlər.

Kəndə kimi qovurlar
Səməndəri çəpişlər.

Elə bilirlər onun
Paltarı göy çəməndi.

Səməndər bunu görüb
Çapır qarğı səməndi.

Gözü baxır zirvələrə
Uzun çomaq çənəsində.

Hər çəpişin bir adı var
Səməndərin sinəsində

Hansı çəpiş tez dırmaşsa
Göy yamaca: - Çəpik! - deyər

Dalda qalan çəpişlərə
Çəpişlərdən təpik dəyər

Lap yamacın zirvəsində
Otarar o çəpişləri.

Qırpar, qırpar göy otlardan
Çəpişlərin çəp dişləri.

Bir çəpişə çəpgöz deyər,
Bir çəpişə çəpdiş Pəri.

Yanıqlı bir ney də çalar
Otarar bu çəpişləri.

Səməndərin çəpişləri
Yekəldilər,
Kökəldilər,
Qoşabuynuz,
Şeşəbuynuz,
Keçi oldu.

Təzə - təzə nəğmə doldu
Səməndərin ürəyinə.

Bir qulaq as tütəyinə:
"Mənim qəşəng keçilərim,
Dar körpüdən keçənlərim.

Bulaqların lap gözündən.
Şəffaf sular içənlərim.
Ürəyində bir arzu var,

Dostunuz bu Səməndərin.
Göy yamacda otarmağa
Hərəniz bir çəpiş verin!”

Dinlədilər bu nəğməni.
Qırpdılar çəp gözlərini.

Onlar yerə salmadılar
Səməndərin sözlərini.

Hərəsi bir çəpiş verdi
Biri qonur, biri dümağ.

Səməndər bu çəpişləri
Çəmənliyə aparacaq.

Burnu gilas,
Gözü düymə.
Çox körpədi
Dəymə, dəymə.
Səməndərin
Çəpişləri.
Hələ yoxdu
Çəp dişləri.
Bərkiyəcək
Ayaqları,
Yer tutacaq
Dırnaqları.
Dırmaşacaq
Zirvələrə.
Baxacaqlar
Səməndərə.

Biri çəpgöz,
Biri çəpdiş.
Birisi də
Çəpik çəpiş.
Çapacaqlar
O dağ mənim,
Bu dağ sənin.
Aran mənim.
Yaylaq sənin.

Hələ neçə
Nəğmə yatır
Səmənd ərin
Ürəyində,
Səmənd ərin
Tütəyində…

## YEDDİRƏNGLİ MUNCUQ

Uşaqlar, sizə deyim
Gözü yaşıl böcəkdən,
Özü yaşıl böcəkdən.

O bir qəşəng böcəkdi.
Tərpənməsə elə bil,
Açılmamış çiçəkdi.

Kiçik lampaya oxşar,
İpəkdən paltarı var,
Tikmələri qızıldan.
Çəkmələri qızıldan.

Düyməsi çiyələkdən.
Balaca göbələkdən,
Fəs geyinib başına.
Fəsinə bax, fəsinə,
Tərs geyinib başına

Anasının yeddi rəng
Muncuğunu taxıbdı.
Gölməçədə özünə
Lap doyunca baxıbdı.

Otlar şehdə çiməndə
Uçdu yaşıl çəməndə.

Atıldı, düşdü böcək
Otda sürüşdü böcək.

Tapp yıxıldı,
Sap qırıldı.
Düşdü yerə,
Qızıl muncuq.
Yeddirəngli
Gözəl muncuq.
Bapbalaca
Fənər idi.
Quş gözünə
Bənzər idi.

O, noğuldu.
O, qoğaldı.
Yeddirəngli
Bir nağıldı.

Yupyumruydu
Yumaq kimi.
Qırmızıydı
Moruq kimi.

Yola düşdü,
Kola düşdü?
Hara getdi?
Muncuq itdi!

Sonra nə oldu görək:
Ağlayırdı bu böcək:

Hələ axşamçağıydı
Günəş göydən baxırdı.

Bu böcəyin gözündən
Yamyaşıl yaş axırdı.

**G ü n ə ş:**
Ağlama, böcək,
Bir danış görək,
Nə olub axı?

Yaşıl gözündən
Niyə yaş axır?

**B ö c ə k:**
İtirdim göy çəməndə
Anamın muncuğunu.
Hələ batma, ay günəş,
Axtarıb tapım onu.

**G ü n ə ş**
Axı batmaq vaxtıdır,
Mən dayana bilmirəm.

Bu gün lap yorulmuşam
Daha yana bilmirəm!

**B ö c ə k:**
Batma, bircə saat da
Gəl buraxma tək məni.

O muncuğu tapmasam
Anam döyəcək məni.

Nə yaman qızarmısan
Qan tökülür üzündən?!

**G ü n ə ş:**
Görürsən, axşam düşür?!
Getməliyəm daha mən.

Kəs telimin ucundan
Paltar geyin tacımdan.

Sən də parlaq olarsan
Gecə işıq salarsan.

Bir azdan günəş batdı
Dağın dalında yatdı.

Günəşin şüasından
Paltar geyindi böcək.
Elə ki axşam düşdü
İşıldadı çıraq tək.

Uçdu çəmənə, dağa,
Başladı axtarmağa.

Yumru, qəşəng muncuğu
O yeddi rəng muncuğu.

Yatır quşlar, böcəklər
Hər biri öz evində.

Xallı böcək yatmışdı
Qərənfilin dibində.

Birdən onun gözünə
Qəfildən düşdü işıq.

Dedi: - Balam, deyəsən
Lap doyunca yatmışıq?!

Elə bildi səhərdi
İstədi dura yerdən.

Qulağının dibində
Kimsə qışqırdı birdən:

- Tapmışam, mən tapmışam
Qırmızırəng muncuğu!

Qaraxallı muncuğu
O yeddirəng muncuğu!

Sevindi Atəşböcək
Silkələndi gül, çiçək.

Əyildi ki, götürsün
Qəfildən uçdu muncuq...
Bir cüt qanadı vardı
Elə bil quşdu muncuq...

Duydu Atəşböcəyi
Sevinibdi lap nahaq.

Muncuq deyil, böcəkmiş
Üstündəki xala bax!

**X a l l ı  b ö c ə k:**
Az qala tutdun məni
Yaman qorxutdun məni!

**A t ə ş b ö c ə y i:**
Bağışla, xallı bacı,
Elə bildim muncuqsan...

Yuxudan tez oyatdım,
Gəl incimə ancaq sən.

**X a l l ı  b ö c ə k:**
İncimirəm
Bura bax,
Qaçdı – tutdu oynayaq?

**A t ə ş b ö c ə y i:**
Eh, mənim vaxtım hanı?!
Gərək gəzəm hər yanı.

İtirmişəm anamın
Yeddirəng muncuğunu.

Axşamdan axtarıram
Tapa bilmirəm onu.

**X a l l ı  b ö c ə k:**
Axtar bağı, axtar sən
Muncuğu tapdın bəlkə?

Uçdu Atəşböcəyi
Qığılcım tökə - tökə.

Rahatca yatır dovşan
Çox gəzib dağı, düzü.

Parlayıb muncuq kimi
Yumru, qırmızı gözü.

Dolanıb hər tərəfi
Gəldi Atəşböcəyi.

Dovşanın gözlərini
Görüb dedi sevincək:

- İtirdiyim muncuğun
Yekəsini tapmışam!

Eh birinin yerinə
İkisini tapmışam.

Ay qara xal muncuğum.
Ay yeddirəng muncuğum!

Yumru yumaq muncuğum,
Yumru, qəşəng muncuğum.

Birdən vurdu özünü
Düz dovşanın üzünə.

Diksinib qalxdı dovşan
Sonra gəldi özünə.

**D o v ş a n:**
Az qala tutdun məni,
Yaman qorxutdun məni!

Üstün tamam alovdu,
Çırağı andırırsan.

Ehtiyatlı ol bir az
Kürkümü yandırarsan!

**A t ə ş b ö c ə y i:**
Alovum yoxdu, qorxma
Elə işıq saçıram.

Bir muncuq itirmişəm
Hər tərəfə qaçıram.

**D o v ş a n:**
Daha durdum, nə edək
Gəl bir dəfə ötüşək.

**A t ə ş b ö c ə y i:**
Doğrusu elə bildim,
Hər gözün bir muncuqdu.

Ötüşərdim səninlə
Heyif ki, vaxtım yoxdu.

Getdi Atəşböcəyi
Çiçəklər silkələndi.

Uçdu qanadlarından
Toz kimi nur ələndi.

Tapmır Atəşböcəyi
O yeddirəng muncuğu.

Deyirlər ki, hələ də
Gəzir qəşəng muncuğu...

*1979*

## SIFIRIN NAĞILI

I

Gecədən xeyli keçmiş
Qızışdı mübahisə.
Rəqəmlər bir – birilə
Yaman girmişdi bəhsə.
Doqquz deyirdi ki, mən
Hamınızın başıyam.
Səkkiz fəxr edirdi ki,
"Doqquzun yoldaşıyam".
Yeddi deyirdi: - Bir az
Keyfim yoxdu, xəstəyəm.
Altı dedi: - Doqquzam,
Amma başı üstəyəm.
Beş dedi: - Qiymətlərin,
Hamısından başam mən.
Dörd dedi: - Nə dərdim var,
Beş ilə yoldaşam mən.
Üç deyirdi:  Üçəm mən,
Kim deyir ki, heçəm mən?!
İki düşünüb dedi:
- İki dənə birəm mən
Yazsan böyür - böyürə,
On nədir, on birəm mən.
Bir də çevrildi sola,
Dedi: - Ay sıfır qardaş,
Gəl biz girək qol - qola,
On olaq, böyük olaq.
Rəqəmlər gülüşdülər,

- Sıfıra bax, dedilər.
Fağıra bax, dedilər.
Gör nə yaman xırdadır,
Tək dayananda yazıq
Hamımızdan xırdadır.
Qəmlənib, dodağını
Hey gəmirirdi sıfır,
Amma elə susurdu,
Heç nə demirdi sıfır.

II

Səhərə yaxın,
Oyandı sıfır.
Kitabın üstə
Dayandı sıfır.
Diyirləndi o,
Bir təkər kimi.
Çıxdı qapıdan,
Lap əsgər kimi.
Düzdə sel oldu,
Dağda yel oldu.
Keçdi çayları,
Aşdı dağları.
Diyirləndi bir
Meşəyə sarı.

III

"Hesabı açdı,
Kiçik Şəlalə.
Bütün rəqəmlər

Yatırdı hələ.
Birdən çığırdı:
- Vay – vay, bəs sıfır,
Yoxdur, kitabdan
Hara qaçıbdır?!
Gəldi Kəmalə,
Gəldi Cəmalə,
Orxan da gəldi,
Yox idi sıfır,
Dedilər görən
Hara qaçıbdır?!

IV

Rəqəmlər vurnuxdular,
Çox narahat oldular.
Bir o saat anladı.
Dostlarını danladı:
- Yəqin möhkəm inciyib.
Axşamkı sözdən sıfır...
Onunçün də qaçıbdır,
İtibdir gözdən sıfır.
Bir dedi: - Yel atımı,
Bu saatca çaparam.
Mən öz sıfır dostumu,
Harda olsa taparam.
Tapmasam,
            meşələrdə,
Qovağa çevrilərəm.
Bir çobanın əlində,
Çomağa çevrilərəm.
Tapmasam sıfırı mən,

Ox da ola bilərəm.
Meşələrdə itərəm,
Yox da ola bilərəm.

V

Bir meşəyə girəndə
Hay - haray saldı Turac:
“Vay, məni tutdular,
Şirin kabab etdilər”.
Dovşan kolun dibində,
Gözüaçıq dururdu,
Ayı öz kahasında,
Dabanını sorurdu.
Yekə, hündür budaqda,
Xor - xor yatırdı dələ.
Sağsağanlar, qarğalar
Qarıldaşırdı hələ.
Qəzəbli, xallı pələng,
Qolunu yalayırdı.
Yalquzaq bir canavar
Acından ulayırdı.
Tısbağalar yatırdı,
Qurbağalar yatırdı,
Çiçəklər də yatırdı,
Böcəklər də yatırdı.

VI

Bir kol dibində,
Yatmışdı sıfır.
Şirin yuxuya

Batmışdı sıfır.
- Sıfır, ay sıfır,
Birəm, gəlmişəm.
Nə bir an yatıb,
Nə dincəlmişəm.
Sıfır söylədi:
- Dostum, çox sağ ol,
Dostluqda var ol,
Qəmdən uzaq ol.
Xoşbəxt idilər,
Bax indi onlar.
Görüşdü onlar,
Sevindi onlar.

VII

- Dostum sıfır!
- Qardaş, nə var?
- Dur sağımda,
Biz on olaq.
-Yox, bura bax,
Sən dur sağda,
Kim uzaqdan
Baxsa bizə
“Bəh - bəh” desin
Hüsnümüzə.
- Sən dur sağda!
- Yox, sən, yox sən!
Tərslik elədi sıfır:
- Sən sağ tərəfdə dayan
Mən solda - dedi - sıfır:
Amma on deyil, çönüb

01 - oldu onlar.
Asıldılar qovaqdan,
Lap uca bir budaqdan.

VIII

Bir azdan bu meşəyə,
Yaman hay - küy yayıldı.
Qırmızı maşınlarda,
Dəmir papaq kişilər,
Dəmir qolçaq kişilər,
Tökülüşüb gəldilər
- Biz yanğın söndürənik,
Bəli, bəli - dedilər.
Bir lalə topasını,
Bir moruq talasını,
Suya tutdular onlar,
Dedilər ki, yanğın var.
- Ay canım, yanğın nədir?!
Donquldandı ayılar,
Vızıldadı böcəklər.
Qorxudan tir - tir əsdi,
Zərif, qəşəng çiçəklər.
01- i göstərib:
- Budur, budur, baxın bir
Bizim idarəmizin,
Telefon nömrəsidir.
Dələ gəldi uzaqdan,
Biri aldı budaqdan
Sıfırı da keçirdi,
Birin əyri başına
Dedi: - 01 - nədir,

Bu ki çətirdir, çətir!
Başlarını buladı
Dəmir papaq kişilər.
Dəmir qolçaq kişilər
Maşınlara mindilər,
Düz şəhərə döndülər.

IX

"Hesab" üçün darıxdı
Sıfırla, Bir meşədə.
Çox qala bilmədilər
Sakit, yaşıl guşədə.
Yenidən qayıtdılar,
Doğma kitablarına
Rəqəmlər sevindilər,
Vərəqlər sevindilər,
Kəmalə də sevindi,
Cəmalə də sevindi,
Şəlalə də sevindi,
Orxanın da yuxusu
O saatca dağıldı.
Bu da sıfır haqqında
Məzəli bir nağıldı.

## CÜTCÜ VƏ PƏLƏNG

I

Bayaqdan qamışlıqda
Pələng çəkirdi keşik.
Gördü kolun dalından
Baxır bir məstan pişik.

Pişiyin yaşıl gözü,
İti baxışı vardı.
Qolunda, ayağında
Pələng naxışı vardı.

Seyrək, uzun bağı da
Onunkuna oxşayır.
Belinin zolağı da
Onunkuna oxşayır.
Quyruğu da uzundur,
Caynağı da uzundur,
Elə bil ki, indicə
Hücum çəkəcəkdi o.
Heyvanlar elə bildi
Balaca pələngdi o.

II

Pələng dedi:
- Adın nədir?
Pişik dedi:

Adım pişik.
Elə bildim
Pələngsən.
- Pələng idim
Bir zamanlar.
İnsan əlinə düşdüm,
Çönüb bu günə düşdüm.
- Sən ki, doğma
Babamsanmış
Görən kimi
Tanıdım.
İnsanlara
Nəslimizi
Gərək, gərək
Tanıdam.
Nərildədi,
Xallı pələng.
Guruldadı,
Xallı pələng.
Qisasını
Mən alaram.
O insanı
Parçalaram.
Gedək, gedək
Göstər onu.
Anladım,
Kim olduğumu.

III

Xallı pələnglə pişik
Az getdilər, bilmirəm,

Çox getdilər, bilmirəm,
Dərələrdən aşdılar,
Yüz - yüz orman keçdilər.
Nə bir az dincəldilər,
Nə azacıq yatdılar.
Axırda gəlib onlar
Düzənliyə çatdılar.

IV

Bir qoca cütcü
Taxıl əkirdi.
Qoşa öküzlər
Kotan çəkirdi.
Torpaq da qəşəng
Zolaqlanırdı.
Elə bil dəftər
Cızıqlanırdı.
Pələnglə pişik
Yaxın gəldilər.
Salam verdilər.
Pişik söylədi:
- İnsan bax budur
Məni bu hala
Salan, bax, budur.
Ey güclü pələng,
Sına gücünü.
Tez ol, bir göstər
Ona gücünü.
Nərildədi
Xallı pələng,
Guruldadı

Xallı pələng.
Dünyagörmüş
Bir insandı
Bizim cütçü.
Ağıllıydı,
Mehribandı
Bizim cütçü.
Çox öyünür
Gördü pələng.
Dedi: - Bir az
Dayan görək!
Bir şərtimə
Əməl etsən,
Vuruşaram
Səninlə mən.
- Nə şərt, söylə
Nə şərt, söylə
Coşdu pələng
Bir mayallaq
Aşdı pələng.
- De şərtini
Tez ol, qurtar,
Yaşıl gözü
Yandı par - par.
Baxışında
Şimşək çaxdı.
Bəbəyindən
Alov çıxdı.
Cütcü dedi:
- Bu kotanı
Çəkə bilsən
Torpağı da

Əkə bilsən,
Bilərəm ki,
Qüvvətlisən.
Razılaşdı
Xallı pələng.
- Bu kotanı
Dedi - gərək
Sürüyəm tək,
Sürüyəm tək!

VI

Cütcü açdı kotanı,
Öküzləri ötürdü.
Sonra isə pələngi
Cütə yaxın gətirdi.
Boyunduruğu saldı
Onun xallı boynuna,
O sığallı boynuna.
Möhkəm - möhkəm bağladı.
- Di dart - dedi - kotanı
Çubuqla döydü xeyli
Kürəyinə, başına
Ayağına - qaşına
Birdən pələng cütçüyə
Hücum çəkmək istədi,
Boyunduruq qoymadı.
Ordan qaçmaq istədi,
Boyunduruq qoymadı.
Çox güc verdi, olmadı.
Çox dartındı olmadı.
Qışqırmağa başladı

Özündən deyən pələng,
Döşünə döyən pələng.

Pişik yamanca çaşdı
Ordan meşəyə qaçdı.
Cütcü öküz yerinə
Çox işlətdi pələngi, ,
Pələng yaman yoruldu.
Gördü ayrı yol yoxdur
Cütcüyə təslim oldu.

VII

Pələngə qalib gələn
O, cütcünün ağlıdı.
Bu da bir əfsanədi,
Bu da belə nağıldı.

## MƏN TÜLKÜYƏM

Əgər bicliklərimdən
Neçə kitab yazam mən,
İnanın ki, qurtarmaz
Yaman kələkbazam mən.
Vaxt olub ac qalmışam,
Vaxt olub tox olmuşam.
Uşaqlar, sizi gördüm
Bir az fikrim dağıldı.
Yaxın gəlin, söyləyim,
Sinən dolu nağıldı.
Ağıllı tülküyəm mən,
Nağıllı tülküyəm mən.

I

Bir gün gördüm tüklü ayı,
Hamımızdan güclü ayı,
Pəncələri çirkli ayı.
Mağarada xor – xor yatır,
Xorultusu göyə çatır.
Titrəmədim qorxudan mən,
Bu qanmazı , bu axmağı,
Bir az gəzdim solu – sağı,
Bir balaca fikr elədim.
Çöp gətirib qurdaladım
Ayağını, qulağını

O əsdirib dodağını,
Durub çığırdı:
- Ehey, sən kimsən?
Bu mağaraya
Neyçün gəlmisən?
Yenə bağırdı:
- Bir az tez söylə,
Nə cürət ilə,
Cəsarət ilə,
Gəlmisən bura.
Dedim:
- Ey güclü,
Dərisi tüklü,
Özü fil.
Bunu yaxşı bil,
Düşmənin bu gün
Öldürmək üçün
Səni gəzirdi...
Eşidib bunu,
Qəzəbləndi o.
Hirsindən səsi
Tir - tir əsirdi:
- Tez göstər onu
Onun boynunu
Sındıram gərək.
Mən xeyli qəmli,
Gözləri nəmli,
Söylədim: - Gedək.
Düşdüm qabağa,
Nə sola baxdım,
Nədə ki, sağa.
Apardım onu

Xeyli uzağa.
Biz az getdik, üz getdik,
Dərə - təpə, düz getdik.
Xeyli gedib yetişdik
Bir ağ mərmər qayaya.
Kim baxsaydı oraya
Öz əksini görərdi.
Adamlar bu qayaya
“Güzgü qaya” deyərdi.
Axı baxdı qayaya,
Şəklini gördü orda.
Fikirləşdi: “Düşmənim
Yəqin ki, bu ayıdı.”
Daha anlamadı ki,
Qarşıdakı qayadı.
Öz əksinin üstünə
Hücuma keçdi ayı.
Başı dəydi qayaya,
Qaya güldü ayıya.
Axırda əldən düşdü,
Yoruldu dildən düşdü.
Mən də elə bu zaman
Qaçıb çıxdım aradan.

II

Bir gün yaman ac idim,
Yeməyə möhtac idim.
Baxdım ki, bir səs gəlir
Bir avara canavar,
Ağzı qara canavar.

Keyfi kök, damağı çağ,
Çiynində bir kök oğlaq,
Xışıldadıb otları
Qaçır meşəyə sarı.
Gördüm ağzım sulandı,
Fikirləşdim ki, gərək
Burda işlədim kələk.
Bir şey düşdü yadıma
Barmağımı dişlədim.
Mən tələsə - tələsə
Yüyürüm ona sarı.
Dodağım əsə - əsə
Dedim: - Ey meşəmizin
Böyüyü, hökmdarı,
Hər ağacın dibində
Durub pusquda itlər.
Əmr eyləyin hücuma
Keçsin bizim igidlər,
Canavar qorxusundan
Oğlağı atdı, getdi.
Sizin tülkü lələniz,
Bu tümbəki lələniz,
O gün doyunca yedi.

III

Bir qarğa məni
Aldadır yaman.
Bir gün fikr edib
Axşama kimi
Topladım çiçək.

Ondan düzəltdim
Gözəl bir çələng.
Getdim qarğanın
Yanına birbaş.
Məni görəndə
Qışqırdı qa - qa,
Ay tülkü qardaş
Nəyə gəlmisən?
Nədir o çələng?
Yoxsa bir kələk
Qurmusan yenə?
Susdum mən xeyli
Əvvəl söylədim:
- Axşamın xeyir,
Qarğa, bu gündən
Kələkbazlığı
Yerə qoydum mən.
Sən çox ağıllı,
Fərasətlisən.
Bir də ki, axı
Sən qanadlısan.
Amma mən yerdə
Gəzirəm elə.
Qanadım olsa
Başqa məsələ.
Ona görə də
Yığmışam çiçək,
Düzəltmişəm mən
Gözəl bir çələng.
Gətirmişəm ki,
Çətinə düşsə
Bir gün heyvanlar

Kömək edərsən,
Tədbirlisən sən
Mənim felimə
Yağlı dilimə
Aldandı qarğa.
Eylədi qa - qa
Endi aşağı.
Atılıb tutdum
Düz boğazından
Xeyli nə dindi,
Nə danışdı o.
Başa düşdü ki,
Aldanmışdı o.
Sonra astadan
Söylədi qa - qa,
Ay tülkü qağa,
Nə ağıllısan!
Söylə görüm bir
Məqsədin nədir?
İstədim deyəm
Acam səhərdən.
“A” dedim birdən
Açıldı ağzım
Pırr edib qarğa
Qondu budağa.
O, güldü xeyli
Bu gülüş məni
Yanırdı, yaxdı.
Qarğa yenə də
Hiyləgər çıxdı.

Daha kəsək nağılı,
Gecə keçib yarıdan.
Ay uşaqlar, uşaqlar,
Yatın şirin - şirin siz.
Çox rahatdır yeriniz.
Gözləyirlər məni də,
Meşədə öz yuvam var.
Görüşərik yenə də
Sağ olun, ay uşaqlar!

*1969*

# RUS ŞAİRLƏRİNDƏN SƏRBƏST ÇEVİRMƏLƏR

*A.Barto*

## REZİN QIZ

Bazar günü bazardan
Bir rezin qız aldılar.
Zərli - bəzəkli qızı
Zər zənbilə saldılar.
Bu rezin qız sürüşdü,
Zənbildən zığa düşdü.
Zığıldadı rezin qız.
Zığ - zığ zığıldayaraq
Bizi gətirsə zara
Zərli zənbilə qoyub
Qaytararıq bazara.

*Yuri Kuşak*

## UŞAQLARIN AĞILLI DOSTU

*Demək olar ki, dünyanın bütün ağıllı adamları uşaqlar üçün əsər yazmağı ən çətin iş hesab ediblər. Bu bəlkə də tamamilə doğru fikirdi. Amma uşaqlar üçün yazmağın nə qədər ləzzətli bir iş olduğunu söyləmək deyəsən heç kəsin ağlına gəlməyib. İndi oxumağa başladığın bu şeirlərin müəllifi Yuri Naumoviç Kuşak mənim dostumdu. Moskvada yaşayır. Uşaqlar üçün çoxlu kitablar yazıb. Qafur Qulamın, Mustay Kərimin, Musa Cəlilin, M.Rzaquluzadənin və başqalarının kitablarını rus dilinə tərcümə edib.*

*Yuri Kuşak Azərbaycanın bir sıra yerlərində olub. Uşaqlarla görüşüb, onlara şeirlər oxuyub, balacalarla doyunca mübahisə də edib. Bir dəfə Şuşada idik. Cıdır düzündən qayıdırdıq. Küçədə atasının papağını başına keçirmiş balaca bir uşaq gördük. Yuri Naumoviç uşaqdan soruşdu:*

*- Bu istidə papaq niyə qoymusan?*

*Uşaq elə bil sualın cavabını əvvəlcədən hazırlamışdı. Fikirləşmədən dedi:*

*- Bilmirsiniz, igid papaq altında olar?!*

*Amma bu igidin əlləri tamam palçığa bulaşmışdı. Yuri Naumoviç ağıllı, mavi gözlərini mənə zillədi. O, hazırcavab uşaqlarla qarşılaşanda həmişə sevinirdi.*

*- Yaxşı. İgid, bəs bu əllərin niyə palçıqdı?*

*Uşaq yenə də fikirləşmədi:*

*- Bilirsiniz, mənim bu əllərim çox dəcəldir. Onlarla bacarmıram. Hara gəldi soxulurlar. Bu saat yuyaram.*

*Uşaq həyətlərinə qaçdı, biz də yolumuza davam etdik.*

*Bəlkə də belə hazırcavab uşaqlarla tez-tez görüşdüyünə görə onun şeirləri həmişə yumoristik olur. Onun fikrincə uşaq əsərinin birinci keyfiyyəti məzəli olmağındadı. Bu barədə söhbətimiz düşəndə o, həmişə S. Marşakı, S. Mixalkovu, çox zaman A Bartonu misal gətirirdi. Sizə deyim ki, uşaqların böyük dostu Anqiya Barto Yuri Kuşakın yaradıcılığını çox sevirdi. Onun şeirlərindən həmişə misallar gətirirdi.*

## BİRİNCİ QAR

Xəlbirdənmi ələndi
Birinci qar?!
Kəpək kimi
Səpələndi,
Birinci qar.

Bu gün onun bayramıdı
Sanki gedir birinciyə.
Ovcunda tut,
        parıldasın
Oxşasın o,
bir inciyə.
Paltonuzdan
Ağ boyunluq sallanar
Qar vurduqca
Yanağınız allanar.

Qıdıqlayar
Boynunuzu birinci qar,
Dostcasına sancar sizi
Birinci qar.

## GƏLİN, GƏLİN, SƏRÇƏLƏR

Səhərlər ağ taladan,
Gəlib keçir adamlar.
Axşamacan onların
İzini basdırır qar.

Amma diqqətlə baxsan
Görmək olar cığırı.
Balaca Vasya durub
Sərçələri çağırır:

- Gəlin, qəşəng sərçələr,
Qanadları ətcələr!
Şaxta sınıb bayaqdan,
Çıxmaq olar otaqdan!

## SÜPÜRGƏÇİ

Ağ başmaq, ağ papaqda
Gəlib çıxdı Qasırğa.
Qarı vurdu havada
Ağacdan asdı sırğa.

Lap qorxutdu deyəsən
Bu şaxtalı gecəni.
Başladı süpürməyə
Mürgüləyən küçəni.

Süpürüb atdı qarı,
Göydə oynatdı qarı.
Bir yüyrək at belində,
Bir külək at belində,
Kimsə çıxdı böyürdən.
Paçtalyondu,
deyəsən!
Nə durub, nə dincəlib:
- Bağışla, ay Qasırğa
Sənə bir məktub gəlib.

Kağızı oxumağa
Onun vaxtı yox idi.
Telefon dirəkləri
Bu məktubu oxudu:

- Salam, əziz Qasırğa
Kefin, halın necədi?!
Yəqin hələ iş yerin
Qarlı, buzlu küçədi.
İşini qurtaranda
Bir meşəyə gələrsən
Yarpaqların içində
Uzanıb dincələrsən.

Yaz gələr, göy üzünün
Gülər bəti - bənizi.
Sən də mehə çevrilib
Sığallayarsan bizi.

## QAR YAĞIR

Lopa - lopa qar düşdü,
Yer - göy tamam dəyişdi.
Ağ geydi süpürgəçi,
Qara pişik ağardı.
Uşaqlar kirşələri
Tez eşiyə çıxardı.
Qış dümağ xalı kimi
Sərib yollara qarı.
Əl vursanız bu saat
Pozular naxışları.
Tamam ağardı meşə
Ağ kürk geyindi şamlar.
Ayın ay işığında
Ağaracaq axşamlar.

## AYININ BAL YUXUSU

Külək qarı sovurdu,
Külək çaldı nağara.
Qaldı qarın altında
İsti, rahat mağara.
Yatmışdı körpə ayı,
Şirin qış yuxusuna,
Batmışdı körpə ayı.
Gördü ki, mağarası
Tikilib marmeladdan.
Kərpicləri armuddan,
Qapısı şokoladdan.
Sonra yağış başladı,
Buluddan bal damırdı.
Körpə ayı balası
Beləcə aldanırdı.
Dünya necə işıqlı
Ağaclar ağ zər idi.
Mağaranın belində
Qar deyil, şəkər idi.
Rahat yat, körpə bala
Yaxşı bil öz işini!
Durub yesən şəkərdən
Sındırarsan dişini.

## UÇMAQ İSTƏYƏN AĞACLAR

Neçə gündü yağan qar
Basdırıbdı damları.
Onun belə yağmağı
Qorxutmur adamları.

Vasya sürüşmək üçün
Qalxdı uca dağlara
Oğlan gördü,
ağaclar,
Bənzəyir dümağ şara.
Baxıb o ağaclara
Vasya dedi gizlicə:
- Bu ki, hava şarıdı
Uçub gedər indicə!
Ağaclar fikirləşir:
- Azacıq külək əssə
Buluda qalxmaq olar!
İllərlə eyni yerdə
Nə qədər qalmaq olar!

Əlvida deyir onlar
Adamlara
ay aman!...
Yoxsa hava şarları
Qırılıbdı buluddan?!

Fırfıratək fırlanıb
Qalxacaq göyə birdən.
Yəqin ki, köklərini
Qoparacaqlar yerdən.

Ağaclar baxır göyə
Baxır fikrə gedərək.
Uça bilmirlər onlar
Hələ ki, yoxdur külək.

## MAĞAZADA

Mağazaya girəndə,
Səs gəldi hər tərəfdən.
Əvvəl deyəsən qarmaq
Atılıb - düşdü rəfdə:
- Oğlanın gərək əvvəl,
Yaxşı qarmağı olsun.
Atandan xahiş eylə,
Məni səninçün alsın.

Satıcının dalından
Kimsə məni çağırdı.
Bu ki, bizim kirşədi,
Gözündən yaş axırdı.
Pıçıltıyla deyirdi:
- Boğuluram istidən
Al, çıxart məni, qardaş,
Dağın təpəsinə sən!
Hər tərəfi qar basıb,
Bizsə rəfdə qalmışıq.
Daha ağlamaz kirşə
Çünki onu almışıq.

## GECƏ HADİSƏ

Həyətin uşaqları
Çalışdılar səhərdən.
Burnu qırmızı kökdən,
Şiş papağı vedrədən,
Bir Qar qız düzəltdilər.
Ağacdandı qolları,
Əlində süpürgəsi,
Qoy süpürsün yolları.

Uşaqlar gedən kimi
Bərk asqırdı Qar adam.
Dedi: - Bəsdi durduğum
Daha çıxım aradan.
Hay saldı küçələrə
Cingiltili səsiylə.
Konserv bankasını
Qovdu süpürgəsiylə.
Gör dünya nə gözəldi,
Ulduzlar ağ çiçəkdi.
Dedi: - Yağan qar deyil,
Tutacam, kəpənəkdi!
Uşaqlar gəldi tezdən
Yox olmuşdu bu Qar qız.
Qaçıb itmişdi gözdən.

Deyin necə dözsünlər
Körpələr belə dərdə?!
Həyətin ortasına
Düşüb qalmışdı vedrə.
Bir baxın, köhnə köşkə
Söykənibdi süpürgə.
Süpürgəsiz, papaqsız,
Hara qaçıb o, hara.
Onun qırmızı burnu
Batıb qalmışdı qara.
- Düzəldək təzəsini,
Gəlin yığaq çoxlu qar! –
Deyərək, işləməyə
Başladılar uşaqlar.
Təkcə bir nəfər oğlan
Üzünü yan çevirdi,
Axı oğlan dünənki
O, Qar qızı sevirdi.

**QAR ƏRİYİR**

Qar əriyir, damlalar
Düşür üzüaşağı.
Balaca arxlar axır,
Naxışlayır torpağı.

Qışqırır qar damlası:
- Donduram mən soyuqdan
Gərək bütün şəhəri!
Qar olacam yenidən,
Gərək qış dönsün geri.

- Ay balaca damla, sən,
Nahaq yorma özünü.
Qəşəng boyunbağıdır
Damcıların düzümü.

Parçalanıb buludlar
Uşaq papağı kimi.
Damlardan buz sallanır
Leylək ayağı kimi.

Uzun, rezin çəkmədə
Gəlib keçir bir uşaq.
Damlardan buz əriyib
Yerə düşür şaq - şaraq!

- Kənar getmə, ay oğlan
Heç səni dondurmaram.
Yaxın gəl, damlalardan
Düzəlt bir qar qalağı.
Uzaqdan baxan desin:
- Qar dağıdı, qar dağı.

Əli buzdan üzüldü
Qurtarmamış sözünü.
Düşdü
Bir gölməçədə
Gördü damla özünü.

**PƏNCƏRƏDƏ QAR İZİ**

Rəssam gördü bir səhər,
Qış çəkib pəncərəyə
Qəşəng - qəşəng şəkillər.

Quşlar süzür havada,
Ceyran gəzir, çəməndə.
Tapdayıb çiçəkləri
Göy taladan keçəndə.

Meşələr ağ çiçəkdən
Hörüb qəşəng tacını.
Dənizdəsə bir gəmi,
Açıb dor ağacını.

Rəssam bir an dayandı,
Çəkdi bu mənzərəni,
Şəkil belə yarandı...

Bəstəkar səssizlikdə
Eşitdi bir zümzümə.
Pəncərə şüşələri
Mızıldanırmış demə.

Ağsaçlı bir dirijor
Durmuşdu pəncərədə.
Deyəsən skripka
Dil açdı pəncərədə.

Musiqiçi heyrətlə
Bircə anlıq dayandı.
Çaldı həmin havanı
Mahnı belə yarandı.

Görüb o pəncərəni
Şair bir an dayandı.
Misralar cərgələndi
Təzə şeir yarandı.

## MART

Göyün göy yanağından
Təmizlənib buludlar.
Torpağın alt qatından
Baş qaldırır göy otlar.

Qızıl günəş oyadır
Qarışqanı, böcəyi.
Baş əyib salamlayır
Günəşi qarçiçəyi.

Meşələrin içindən
Düşür təə cığırlar.
Palazqulaq dovşanlar
Cığırlara çıxırlar.
Gəlir turac,
Gəlir qaz.
Yazdır, yaz!

## CÜYÜR

Necə olub bilmirəm,
Anasız qalıb cüyür.
Gah ağlayır, mələyir.
Elə hey  “ana” deyir.

Sığalladım belini,
Yemək verdim ovcumda.
Bir azdan mürgülədi
Yatdı mənim qucumda.

Axşamacan dalımca
Qaçır belədən - belə.
Yəqin fikirləşir ki,
Anası mənəm elə!

## QONAQ GEDİR AĞ GƏMİ

Kağız yelkən açıldı,
Bənzədi ağ yumağa.
Ləngərlədi, düzəldi,
Gəmim üzdü uzağa.

Oxşayır göy dənizdə
Nöqtə boyda kölgəyə.
Üzüb getdi o gəmi
Nağılvari ölkəyə.
Orda məftil üstündə
Oynayır pəhləvanlar.
Gələnlərə ən dadlı
Kətə paylayır onlar.

Şəhərin qapısında
Qoca pələng bağırır.
Adamları çalmağa,
Oynamağa çağırır.

Mənim gəmim çatanda
Atılacaq fişənglər.
Üstündəki yazını
Oxuyub, deyəcəklər:
- Usta yoxmuş dünyada
Yəqin bu "Yura" kimi.
Nağılvari ölkəyə
Xoş gəlibdir ağ gəmi.

## BİR – BİRİNƏ OXŞAYANLAR

Təbiətə baxıram,
Gör nələr düşür yada.
Bir - birinə oxşayan
Çox şeylər var dünyada.

Qışda şam ağacları
Oxşayır pinqvinə.
Dayanıb dostlarını
Çağırır dönə - dönə.
Cüt qayaya baxın siz,
Yatmış dəvəyə oxşar.
Kürəyinin ucunda
Mürgüləyir buludlar.

Açılmış kitaba bax,
Elə bil kəpənəkdi.
Bir parça tala kimi
Vərəqi rəngbərəngdi.

Elə bil ki, otaqda
Kəpənəklər ötüşür.
Baxıram vərəqlərə,
İlk bahar yada düşür.

**YARASA**

Qaranlıqda -
Haradasa,
Ağlayırdı yarasa:
- Mən siçanam, ya quşam?!
Qoşa qanadlarım var
Hara desəniz uçum.
Heyf ki, tükdən deyil
Qulağım və lələyim.
Sivri burnuma baxıb
Mənə siçan deməyin.
Bir özünüz düşünün;
Siçanamsa mən əgər,
Niyə uçmur dalımca,
Onda məstan pişiklər?!

**XORUZ**

Dan yeri qızaranda
Xoruz banladı birdən:
- Günəşin keşiyini
Mən çəkirəm səhərdən.

Cəsur igidlər kimi,
Od yağdırdı gözündən.
Bir neçə yol banladı,
Hey danışdı özündən.

## ÜRƏKDƏN SÖHBƏT

- Yazmaqdan doymadınmı,
Arıdan, kəpənəkdən?
Sənə yaraşmır,
yazmaq,
Quşdan, itdən,
böcəkdən.
Doğrusu, lap
nahaqdan
Hər şeydə bir möcuzə,
Bir sehr axtarırsan.
Elə hey
Uydurursan.
Nə qədər yalan olar?!
Nə quş danışa bilir,
Nə də vəhşi heyvanlar.
- Bilirsən nə var, ay dost,
Dünən mənə
bir xoruz
Danışdı ki, sən karsan,
Həm də əməlli
Korsan.
Bu sözü pinqvinlər
Təsdiq etdi o saat.

Niyə mənim üzümə
Baxırsan belə mat - mat?!
İnanmırsan,
Get soruş.
Əgər quşlar sussalar,
Dillənməsə bəbirlər,
Deməli ki, səninlə
Danışmaq istəmirlər.

## QUŞLARIN BAZARI

Quşların bazarında
Haray salıb
sərçələr.
Qırıldaşır qarğalar
Civildəşir
Ətcələr...
Quzğun göyə millənir,
Qartal uçur
köndələn.
Qonub tut ağacına –
Dəf vurur
ağacdələn.
Bu gün quş bazarında
Alandan çox
satan var.
Bir söz,
Ağız deyəni
Eşitməyir qulaqlar.
- Ay alan, yaxşı mal var,
Nə desəniz
tapılar!
Çiyələk qıpqırmızı,
Baldan şirin
portağal.

- Uzaq getmə, müştəri,
Mal qurtarır
Tez ol al.
Görmürsənmi, qarpızı,
Həm dadlı, həm qırmızı?!
-  Yaxşı,
Bir qarıldama,
Qarpızın neçəyədi?
-  Birin alsan
müftədi!
Tez ol götür,
Siftədi!
-  Yox, qardaş, çox bahadı.
İkisini müftə ver.
Çəkim burda
dişimə.
Çıxım gedim
işimə.
Bəs hanı bu meyvələr,
Bura necə bazardı?!
Nə çiyələk,
Portağal,
Nə də ki, bir
meyvə var.
Haray salıbdı
quşlar.
Kim nə satır,
bilinmir.
Kim nə alır,
bilinmir.
Satılan malın pulu,
kimə çatır,

bilinmir.
Bayquş elə
bağırır.
Bildirçinlər
Çığırır:
- Qiymətli malımız var
Quşüzümü,
qarağat.
Gilas, şaftalı,
ərik.
Nə qədər istəsəniz
Bu saatca
verərik.
Nə tərəzi, piştaxta,
Nə də malın özü var.
- Ay bağıran
satıcı,
Bəs hardadı
bu mallar?!
Yırtır boğazlarını
Çalağanlar,
Qarğalar.
Havayıca qışqırır,
heç nə satmayır
onlar.

**GÖRÜŞ**

Qışqırır
ağ göbələk,
Onun nazik səsini
Yayır meşəyə
külək:
- Göstər yumru
başını,
Sevindir
qardaşını!
Bütün gecə qardaşlar
Bir - birini
gəzdilər.
Oyatdılar ayını
Çiçəkləri
əzdilər.
Yolu itirmişdilər.
Bayquş baxıb
gülürdü.
Onun yumru gözündən
Min hiylə
Tökülürdü.

Səhər getdik meşəyə
Topladıq
ağ göbələk.
Bozumtul, şabalıdı,
Yekəpapaq

göbələk.
Axır ki, bir səbətdə
Görüşdülər
qardaşlar.
Hey atılıb - düşdülər,
Öpüşdülər
Qardaşlar.

## DOST EVİ

Qumdan bir ev
tikmişəm.
Ev deyil o,
saraydı.
Gəlsin bütün qonaqlar
Gözləyirəm
bir aydı.
Hasarladım həyəti
Əkdim bağda
Əncir, nar.
Evimin lap içindən
Əlini atsan
çatar.
Yaxşı gəlib çıxıbsan
qarışqa,
ay qarışqa.
Gərək bağışlayasan
Otaq bircə
qarışdı.
Ürəyimiz genişdi!
Sən də gəl,
ay kəpənək,
Söhbət edək doyunca.
Bir oturaq,
dincələk.
Xoş gəldin, səyyah böcək!
Yorulmusan

Yolda sən.
Keç başa, ay çəyirtkə,
Nə durmusan
Dalda sən?!
Kim özünə
Dost gəzir,
Kim darıxıb
balaca,
Gəlsin ona qurbandı
Tikdiyim
qum - qalaça!

**DOVŞANIN LAYLASI**

Laylay, körpə uşağım
Laylay, Şeşəqulağım.
Lap rahat yat,
balacan.
Sənə tüfəng
alacam.
Hamını qova - qova
Çıxacağıq
biz ova.
Görsək sarı kürkünü
ovlayarıq
tülkünü.
Gələcəkdi boz ayı
düz
tüfəngin
tuşuna.
Ona güllə atmarıq
Çıxıb getsin,
işinə.

Gurum...
gurum...
gum, gurum...
Atarıq güllələri.

Meşəmizdən
qovarıq
bu acgöz vəhşiləri.
Eşidib bu xəbəri
şələquyruq dələlər.
Yəqin günü sabahdan
bizə
qonaq gələrlər.
Bişirərəm
Onlara,
Dadlı bir qoz
Halvası.
Çalarıq,
Oynayarıq.
Yum gözünü,
qadası!
Körpə dovşan dinləyib
Anasının sözünü
Azacıq xumarlandı
Sonra...
Yumdu gözünü.

## QARINQULU

Elə işləyir ağzı,
Balığa bax, balığa.
Burnu uzun, gözü boz,
Sinəsi ağ balığa.

Mən yatıram,
O yeyir.
Mən dururam,
O yeyir.
Mən yeyirəm,
O yeyir.
Mən yemirəm,
O yeyir.
Neçə ildi bizdədi
Yeyir, bir yol dikəlmir
Bizim bu qarınqulu
Yekəlmir ki, yekəlmir.

## QARIŞQANIN LAMPASI

Gecə düşür, ay batır,
Quşlar, böcəklər yatır.
Yatır yaşıl meşələr.
Qarışqanın lampası
Yanacaq sübhə qədər.
Durub atəşböcəyi
Lampa kimi havada,
Gərək rahat yatsınlar
Qarışqalar yuvada:
- Yuvarlanıb batdı ay,
Laylay, qarışqa laylay!
Parlaq qanadımızla
Örtmüşük üstünüzü.
İtigözlü quşlar da
Görə bilməzlər sizi.

## QƏRİBƏ PİŞİK

Bir pişik var dünyada,
Nə  ət yeyir, nə qaymaq.
Bığı var burum - burum
Dırnağı sanki qarmaq.
Pişiklərlə boğuşmaz,
Siçanlarla yox işi.
Xoruldamır yatanda,
İtdən qorxmaz bu pişik.
Səhərdən axşamacan
Onun kefi çağ olur.
Mənə deyirlər: - Qardaş,
Səninki lap ağ oldu.
Doğrudur ki, yaşayır
Çoxlu pişik dünyada,
Amma ki, beləsini
Görməmişik dünyada.
Sənə qulaq asırıq
Biz diqqətlə səhərdən.
Bir şey başa düşmürük
Bu dolaşıq şeirdən.

-  Demək belə, uşaqlar,
İnanmırsınız mənə siz?!
Bu sualtı qayığa,

Gərək onda minəsiz.
Gedək suyun dibinə
Çox şey görərsiz orda.
Tələsin, qayıq gedir,
Gecə sıfır sıfırda.
- Yoxsa suda boğulub
Pişik günün birində?
- Xeyr, heç tələsməyin,
Yaşayır o qəhrəman
Okeanın dibində.

Sular buz kimi soyuq,
Yaşıl yosun dağları.
Pəncərədən görünür
O pişiyin bığları.
Baxın, deyən bu pişik
Qonaq gedir Xəşəmə.
Evinə dəvət edir
Balinanı axşama.
Düşmənlər bu pişiklə
Bacara bilməz qəti.
Vuruşur quyruğuyla
Quyruq qılıncdan iti.
Bu qəribə quyruğun,
Hər tərəfi naxışdı.
Quyruğuyla bu pişik
Şirin nağıl danışdı.
Elə nağıl dedi ki,
Dinlədi qayalıqlar.
Düz bir həftə güləcək
Bu nağıla balıqlar.

Bu nağılda deyilir:
Hardasa, çox uzaqda
Qəribə pişik yaşar.
Gəzər damda, bacada
Bir siçan görsə coşar.
Varmı belə pişiklər?
- Var, var, var, əlbəttə var!

**TOĞLUNUN BAZARLIĞI**

Toğlu gedib bazara
Nələr - nələr alıbdı.
Şirin - şirin qoğallar,
Bal kökələr alıbdı.
Quzusuna suxarı
Doqquz dənə alıbdı.
Səkkiz süzməli bublik
Cəmi yeddicə çörək.
Altı kömbə, beş də çay –
Hər şey bol olsun gərək.
Dörd dənə yağlı fətir,
Üç kilo da paxlava.
Paxlavanı, a Toğlu,
Gəl sabaha saxlama!
Di bunu evə gətir...
Unutmadı özünü
Görən kimi tər yonca,
Aldı, yedi doyunca.
Günəbaxan almışdı,
Dostu kürən qoyuna
Bir də muncuq almışdı,
Quzuların anası
Taxsın gözəl boynuna...

**KƏPƏNƏYİN DƏRDİ**

Nə pis dərzisən,
İşıldaböcək?
Mənim donumu
Tikmisən gödək...
Küsərdin sən də,
Olsa əynində.
Acığı gələr
Çəyirtkənin də.
Hey mənə baxır,
Eşşəkarısı.
Kaman çalmaqla
Xoşdur arası.
Nəğmə oxuyur
Hey aram - aram.
Ölsə də ona
Qulaq asmaram...
Uzaq ellərdən
Gələnlər də var,
Mənim dərdimdən
Ölənlər də var.
Donum gödəkdir,
Bilənlər də var.
Həsəd aparan,
Gülənlər də var...

Peşman olma, gəl,
İşıldaböcək,
Səndən küsmərəm,
Mənim donumu
Tiksən də gödək.
Eşşəkarısı
Qoy vızıldasın.
Hey dızıldasın,
Hey mızıldasın.
Gül ləçəyimlə,
Gəl ləçəyimlə
Gözlərimi sil.
Yaxşı dərzisən,
Bunu yaxşı bil.
Xal - xal parçadan
Don tikdin mənə.
İşldaböcək,
Borcluyam sənə.

## SOYUQ YAĞIŞ

Yağış yağır,
Yağış yağır,
          Soyuq yağış.
Çöldə kim var,
Göldə kim var,
Evə çağır,
       Evə yığış.
                  Ayaqyalın
Qarışqalar
İslanırlar,
Üşüyürlər.
Yuvaları
Uzaqdadır,
Al günəşi
             Düşünürlər...

## ELAN

Tez gəlin yaxın,
Tez gəlin yaxın,
Bu divardakı
Elana baxın!
"Bir məzhəkəçi
Axtarır küçük.
Ancaq küçükdən
Olmasın kiçik"
Sirkdə yoldaşlı
Çıxış etsinlər.
Hara getsələr,
Qoşa getsinlər...

## ZƏNCİROTU

Mən güvənsəm özümə
Arzulasam bir qədər
Əməyim getməz hədər:
- Hava şarı olaram
Uçub göydə qalaram.
Yay gələndə bir səhər...

**İT DAMI**

İt üçün bir it damı
Tikmişdilər həyətdə.
İt damı xoş gəlirdi
Orda yatan bu itə.
Damın vardı peçi də
Qışda soyuq olmazdı.
Olmasaydı bu köpək,
Hində toyuq qalmazdı.
Hürüb, sonra dincəlmək
Xoş gəlirdi bu itə.
Ona görə həmişə
Sayıq keşik çəkərdi
Bu evə, bu həyətə...

## SAĞSAĞANLAR

*Yanıltmac*

Qırx sağsağan,
Qırx
        ağ sağsağan,
Qırx
Sağ sağsağan,
Qırx köynək toxuyurdu.
Qırx
        ağ sağsağan,
Qırx
        sağ sağsağan,
Qırx nəğmə oxuyurdu.
Oxudular,
Toxudular.
Toxudular,
Oxudular.
Bu sarsaq
Sağsağanlar,
Döşü ağ sağsağanlar,
Gözü sağ sağsağanlar.
Köynək hazır
Olanda
Savaşdılar

Bir anda.
Savaşdılar,
Dalaşdılar,
Bu sarsaq sağsağanlar,
Döşü ağ sağsağanlar.
Köynəkləri
Böləndə
Al qana
        Bulaşdılar.
Cırmaqlandı
Üzləri,
Al qan oldu
Üzləri...
Bu davanı kim saldı –
Sarsaqların
Özləri...

## MƏXMƏR TÜKLÜ İT

Məxmər tüklü itə bax,
Məxmər tüklü itə bax.
Çox acıqlı olsa da
Sənə hürmür o ancaq...
Demə səni görür o,
Demə, niyə hürür o.
Səni dostu bilibdi,
Səndən xoşu gəlibdi.
Hürmür ona görə də.
Quyruğunu bulayır,
Yaxşı adam görəndə...

## NƏ DÜŞÜNÜR, BU MEYMUN

Nə düşünür bu meymun,
Nə düşünür görəsən?
Bəlkə meymun istəyir
Ona zənbil hörəsən?
Gedib çiyələk yığa,
Təzə gül - çiçək yığa?
Yox, yox, belə deyildir:
- Gəl danışım sənə bil.
Nə düşünür gör meymun:
- Yer üzünün, dünyanın
İlk sakini mənəm, mən.
Gözəl - gözəl insanlar,
İnsanlar və meymunlar
Məndən doğulub, məndən.
İstəyimdən fil olub
Acgözlükdən, həsəddən,
Gonbul qaban doğulub.
Qorxaqlıqdan tısbağa,
Gedib girib tabağa.
Tənbəllikdən suiti
Yaman balıq yeyəndir,
Tanıyıram bu iti.
Gülüşümdən balıqlar.
Gör nə qədər balıq var.
Səhvimdənsə insanlar
Doğulublar bir zaman.
Gör necə səhv etmişəm,
O zamanlar, ay aman...

**ÇİYƏLƏK**

Ayağı nazik,
Yanağı lalə
Çiyələyə bax.
Sanki lalədi,
Al piyalədi.
Dər döşünə tax.
Bir zərif zənbil
Toxu ona sən.
Yığ kol dibindən
Yaşıl çəməndən.
Ona xoş gəlir
Baharın donu.
Gərək baş əyib
Yığasan onu.

## BALIQÇILAR

Su altında fırlanır
Səhər - səhər tilovlar.
Tilovlar balıq gəzər,
Tilovlar balıq ovlar.
Ovçularla doludur
Yenə çayın qırağı.
Biri gəlib soruşur:
- Hanı dabanbalığı?
Niyə çıxmır qırağa,
Niyə düşmür qarmağa?
Soxulcanı hanı bəs?
Niyə yoxdur bəs onun?
- Nəyə lazım soxulcan,
Əgər yoxsa tilovum?
- Bəs necə ov edirsən?
- Ov etmirəm. Burda mən
Xoşum gəlir sahildən.
Xoşlayıram oturub
Mavi çaya başmağı.
Evdə qoyub gəlmişəm
Soxulcanı, qarmağı.
Bir şey tuta bilmirlər
Başqa balıqçılar da.
Axı nəyim artıqdır
Belə balıqçılardan?..

## AĞCAQANADIN
## ŞİKAYƏT NƏĞMƏSİ

Kamançanı
Çalan tək
Atlar qaçır dördnala.
Cöngələr və inəklər
Yel tək uçur az qala.
Qulaq asan yox mənə, -
Mənim şirin nəğməmə...

Bilmirəm ki, heç nədən,
Qaçırsınız siz məndən?..
İnciyirsiz,
Küsürsüz,
Lap dodaq da
Büzürsüz.

Nədir mənim
Günahım –
Bundan belə bilərəm.
Yanınıza gələndə
Kamançasız
Gələrəm.

Batıraram xəlvətcə
Dərinizə
İynəmi.
Bundan sonra sevərsiz
İnanıram siz məni...
Eləmi?..

## TUTUQUŞU

- Tutuquşu,
Tut quşu,
Tut quşu, tutuquşu.

Cavan oğlan, etmə qəm,
Mən quştutan
Deyiləm.
Danışıb xısın - xısın,
Quşlar məndən
Qorxmasın.

Danışmağı xoşlayan
Döşü sarı
Quşam mən.
Ona görə çöllərdən
Evlərə uçmuşam mən.

## SƏRHƏDÇİ

Ulduzlu papağı,
Toqqanı, qılıncı,
Yarağı
Mənə ver, mənə ver,
Qardaşım.

Qoy səhər günəşlə
Birlikdə oyanım.
Qoy sənin yerinə
Sərhəddə dayanım.

- Bir - iki, bir - iki!
Sola dön, sağa dön.
Sərhəddə ayıq ol.
Vətənə dayaq ol!

Alınmaz dağa dön
Qoy mən də yeriyim
Əsgər tək sərhəddə.
Dolanım basılmaz
Çəpər tək sərhəddə.

Çiynimdə parlasın
Günəş tək poqonlar.
Düşmənə göz dağı,

Görünsün qoy onlar.
Qılıncı, papağı,
Tüfəngi, yarağı,
Mənə ver, qardaşım.
Qoy sənin yerinə
Sərhədi dolaşım.
Gözümdən quş belə
Yayınmaz, qardaşım.
Qardaşın, bir yol da,
Yanılmaz, qardaşıım.

Qılıncım, kəmərim,
Günəş tək parıldar.
Qarşımda dərə var,
Təpə var, çəmən var.
Qorxmaram düşməndən,
Əlimdə - silahım,
Arxamda - yenilməz
Ölkə var, vətən var...
Vətən var.

## ƏSGƏR OYUNU

Biz kişiyik, igidik,
Qorumaqçün Vətəni.
Bir gün cəbhəyə getdik
Yerdə, göydə, dənizdə
Düzülmüşdü polkumuz.
Əyilməzdi qolumuz.
Cavan idik, mərd idik,
Düşmənlərə dərd idik.
Bir dəfə gecəyarı
Sualtı qayıqları
İşə saldıq, nə saldıq,
Saldıq, qələbə çaldıq.

Biz kişiyik, igidik,
Keçdik, hücuma keçdik.
Qar - çovğunda, boranda
Qılınc çaldıq hər yanda.
Atdı minaatanlar
Yandırıcı bombalar.
Bombaların önündə
Düşmən durar?
      Dağ qalar?..
Top gülləmiz nə idi? –
Gilas çəyirdəyiydi...
Bu, mürəkkəbqabıdı,
Bu da divar saatı.
Bax, onların yanında
Sona yetib vuruşda,
Bir döyüşçü həyatı.
“Ana dili” kitabı

Yanında döyüş gedir.
Bu tarix kitabının
Vərəqində igidlər
Düşmənə hücum edir.

Düşmən keçir hücuma,
Bu hücumu nahaqdı.
Geri olmaz bir addım, -
Əldə qızıl bayraqdı.

Uçur bizim atlılar,
Atlılar, qanadlılar -
O şahin inadlıdır.
Od - alovun içində
Çapayevdir at çapan!
Pülemyotdur ağzından
Əjdaha tək od saçan.
Canavar sürüsü tək
Axıb gəldi düşmənlər.
Caynağına düşmənin
Bizimkidi düşənlər.

Çapayev üzür – üzür,
Sularında Uralın,
Kömək edə bilmədim:
Silahsızam, əl yalın...

Axı, üzə bilmirdim,
Deməyin ki, qorxurdum.
Durub qaya başında
Babamdan öyrəndiyim
Bir nəğməni oxudum:

“Qarıldama, qara qarğa,
Başım üstdə belə sən.
Təslim olan deyiləm,
Keçəcəksən ələ sən”.
Yenə meydan qızışır,
Geri - bir addım olmaz.
Qorxaqlar sırasında
Yox!
Mənim adım olmaz.

Mən keçirəm hücuma
“Ura”, “Ura”, deyərək.
Vurulmuş
“messerşmit” lər
Yerə düşür quzğun tək.

Ah, necə də vuruldum,
Ürəyimdən qan axır.
Qumbaranı atmağa
Qalxmır, əllərim qalxmır.

Can verirəm qar üstdə
Belə cavan çağımda
Bir soyuqluq duyuram
Əlimdə - ayağımda.

Əziz dostlar, əlvida!
Məni də salın yada
Əziz müəllim Belov,
Sevməsən də məni sən...
Sabah mənim haqqımda

Danışarsan ürəkdən.
Qələbənin yolunda
Qurban getdi, - deyərsən...
O əbədi məşəlin
Yığışaraq başına
Anam məni təriflər
Dostuna, tanışına.

Anam deyər:
- Eşq olsun
Sənə, qəhrəman oğlum!
Ay igid çapayevçi,
Sənin qurbanın olum,
Ay mənim igid oğlum.

Məni döydüyü üçün,
Bir vaxt söydüyü üçün,
Anam peşman olacaq
Gözü yaşla dolacaq.
Anam girdi otağa
Gördü yatmamışam mən.
Dedi: - Oğlum, bu nədir,
Oyaqsanmı hələ sən?
Yenə də boş xəyala
Qapılmısan deyəsən...

Yerinə gir, ay oğul,
Artıq gecəyarıdır.
Demə bütün bu işlər,
Bu olmayan vuruşlar,
Uşaq xəyallarıdır...

## POÇT ƏHVALATI

Ah, bu necə məktubdu,
Ah, bu necə məktubdu.
Bir qütb təyyarəçisi
Əllərində tutubdu...
Neçə qəmli sətirlər,
Neçə qəmli sözlərdi...
Hərfləri elə bil
Kədər dolu gözlərdi.

Necə pisdir gör xətti,
Məktub güclə oxunur.
Qəm - kədərli kəlmələr
Ürəyimə toxunur.

Ürəyimi göynətdi
Məktubun hər varağı.
Markasının yerində -
Ağcaqayın yarpağı...
Alın, siz də oxuyun,
Görün nələr yazılıb.
Nə kəlmələr yazılıb...
"Ağ ayılar, ağ ayılar,
Buz üstə dağ ayılar.
Dərdinizi kitabdan
Biz oxuyub bilmişik.
Bu dünya yaranandan
Axı biz ki, birmişik...

Eşitmişik, buz üstə
Yaşayırsız meşəsiz.
Ah, meşəsiz necəsiz?..
Yaşayırsız buz üstə
O şaxtada – boranda.
Ölmək olar bir anda.
Yoxsa çobanyastığı
Cırcırama, gül - çiçək
Dərib kolun dibindən
Yemirsizsə çiyələk
Daha bu nə yaşamaq,
Bu necə həyat oldu?
Daha dözə bilmədik
Burda gözümüz doldu...
Beş cüt konfet kağızı
Göndəririk sizə biz.
Hər birinin üstündə
Ailə şəkilimiz.
Göndəririk sizlərə
Bir bağlama hədiyyə.
Bir küpə də təzə bal
Bir də isti yun - köynək.
Qoy geyinsin balalar.
Saman da göndəririk
Altınıza salarsız.
Ağcaqayın balından
Yeyib ləzzət alarsız.
Dərdinizi çəkməkdən
Üzülmüşük, bezmişik,
                biz yazıq.
İmza: **Boz – qara**
**Bir də QONUR AYILAR**.

Sağ - salamat qalın siz
A xalalar, dayılar...”
Üç ay keçdi üstündən
Məktub gəldi meşəyə.
Oxundu, ayıların
Qəlbi döndü şüşəyə:
“A boz ayılar,
Bomboz ayılar,
Əziz xalalar,
Əziz dayılar.
A bizim konfet
Bacı - qardaşlar
Ağ ayılardan
Sizə salam var!

Məktubunuz qəmlidir.
Gözlərimiz nəmlidir.
Yaşayırsız meşədə,
Yazıqsınız necə də...
Buzsuz yaşamaq olar?
Adamın canı donar...
Sizdə hər yan meşədi,
Görən meşə necədi?..

Orda yoxsa bulaqlar
Bu nə yaşamaq
Oldu?
Daha dözə bilmədik,
Burda gözümüz doldu...

Dərdinizə yanmağa
Biz həmişə hazırıq.

Ayın şəfəqlərində
Sizə məktub yazırıq.

Yeyib doyduq samanı,
Şirin idi yamanca.
Uşaqlara parçadan
Tikdik çoxlu
Gödəkcə.

Yarpaqları, şivləri
Altımıza salmışıq,
Sizdən razı qalmışıq.
Xoşumuza gəldi bal,
Yeyib doydu balalar.
Bilmədik ki, küpəni
Göndərmisiz niyə siz?
Bəlkə gələn məktubda
Səbəbini deyəsiz?

Küpədəki o balı
Yeyib tamam doymuşuq.
İçinə su doldurub
Buz üstünə qoymuşuq.
Təzə buz göndəririk
Biz də sizə beş kisə.
Gümrah olar balalar
Əgər bu buzdan yesə.
Bir də ki, morj dişləri
Göndəririk, gözəldir!
Ondan usta ayılar
Gözəl şeylər
Düzəldir.

Göndəririk sizlərə
Bir az balıqqulağı,
Bir az da balıq yağı.
Bağlamağa qoymuşuq
Bir azca qütb torpağı.
Bizdən xatirə qalsın
Sizə bu qütb bayrağı.
Bizi yada salarsız
Bu bayrağa
Baxanda.
Buz yeyərsiz doyunca
Meşədə darıxanda.

Sağ - salamat qalın siz
İmza: **Buzda yaşayan**,
**Dostunuz AĞ AYILAR!**
Bir də,
    Bir də
            Əlvida!
Ay xalalar,dayılar!"
Təyyarəçi deyir ki,
- İstər soyuq, qar olsun,
Bürkülü bahar olsun.
Hədiyyə daşıyıram,
Mən belə yaşayıram...
Dostluq yolunda
Poçtalyonam mən,
Çox hədiyyələr
Keçir əlimdən.
Boz ayılardan
Ağ ayılara,
Ağ ayılardan

Boz ayılara.
Xalalardan,
Əmilərə,
Əmilərdən,
Dayılara.
Böyüklərdən
Uşaqlara,
Uşaqlardan
Böyüklərə,
Çox hədiyyələr
Daşımışam mən.
Milyon kərə...
Dostluğa sərhəd
Yoxmuş dünyada.
Dostluqla şəndir
Bil ki, dünya da...

**BAŞMAQ GƏMİDƏ SƏYAHƏT**

Bilmir neyləsin
İki boz siçan
Tir - tir əsirlər
Suda qorxudan.
Koldan üzülüb
Birdən əlləri.
Çayda batırlar
Səhərdən bəri...
Köməyə gələn
Dada çatan yox...
Sahildə duran
Kəmənd atan yox...
Onlar sevinər
Gəlsə pişik də.
Çay qorxuludur
İndi pişikdən...

Onlar batırlar
Batırlar nahaq...
Köməyə gəldi
Bir köhnə başmaq.
Qaçıb başmağa
Mindi siçanlar
Sudan qorxmurdu
İndi siçanlar...

Gəmi tək minib
Köhnə başmağı,
Onlar üzürdü
Üzüaşağı...

Hey üzürdülər,
Hey gedirdilər,
Nəğmə oxuyub,
Rəqs edirdilər...

Qupquru idi,
Cici donları.
Xoşbəxtlik özü
Tapdı onları.

Hey üzürdülər
Ağzıaşağı.
Dor ağacları -
Bir uzun qarğı.

Külək onlara
Kömək edirdi.
Bu başmaq - gəmi
Gedir - gedirdi...
İki matroslu
Bu iki siçan,
İki dənizçi -
İki kapitan.

Sənin qəlbində
Varsa cəsarət

Dəniz qorxulu
Deyirlər əlbət.

Qorxağa su da,
Quru da birdir.
Onun qəlbini
Qorxular didir.

Başmaq - gəmidə
Üzən siçanlar,
Mavi dənizdə
Gəzən siçanlar.

Belə bir nəğmə
Oxuyurdular:
- Bizim tək qoçaq
Deyin, harda var...
Hey... Hey...
Bizdən qorxurlar
Morjlar və kitlər,
Hey... hey...
Qaçıb gizlənir
Pişiklər, itlər,
Hey... hey...
Deyin onlara
Qorxmasın bizdən
Üzüb gedirik
Qorxunc dənizdən
Hey... hey...
Dəniz coşmuşdu,
Dalğalanırdı.
Başmaq - gəmicik

Çalxalanırdı.

Nəğməni kəsin,
Bəsdi, siçanlar.
Qorxudan tir - tir
Əsdi siçanlar.

Başmaq - gəmicik
İndi batacaq.
Gözəl səfərin
Sonu çatcaq...

Əsdi - kükrədi
Coşğun dalğalar.
Demə qabaqda
Ümid yeri var:

Böyük bir gəmi
Gördü siçanlar.
Əl eləyərək
Güldü siçanlar.

- Köməyə gəlin,
Qoymayın bataq!..
Biz də sizinlə
Gəmidə yataq...
Gəmidən suya
Qayıq saldılar.
Başmaq - gəmini
Ələ aldılar.

Onlara yemək,
İçmək verdilər,
Çimizdirdilər,
Geymək verdilər.

Gəmidə qaldı
Bu iki siçan.
Çox illər keçib
İndi o vaxtdan.

Xoşdur gəmidə
Səfərə çıxmaq.
Dənizdən doğan
Günəşə baxmaq...

Onlar gəmidə
Gəzir dünyanı.
Siçanlar kimi
Səyyahlar hanı?..

**KİTAB VƏ DONDURMA**

Balaca bir
Oğlan vardı.
Küçələrdən
Keçən zaman.
Dörd tərəfə
boylanardı
Hey dondurma
Axtarardı.
Dondurmadan
Bircə dilim
Bir kimsəyə
Qıymazdı o.
Üç - dörd
Nədir? -
Düz on dənə
Dondurmadan
Doymazdı o.

Məktəbdə də,
Küçədə də,
Lap küçədən
Keçəndə də
Lap gündüz də,
Lap gecə də
Dondurmaydı
Əlindəki.
Kitab nədir,

Qutab
Nədir,
Firni nədir,
Şirni nədir,
Dondurmaydı -
Bu xoş sözdü
Dilindəki.
Nənədən pul
İstəmişdi
Kitab üçün,
Dəftər üçün.
Kitab pulu
Dondurmaya
Getdi bu gün.

Düz on iki
Dondurmanı
Bir dəfəyə
Yedi oğlan.
Eh, az oldu,
Eh, az oldu,
Dedi oğlan.

Pul istədi
Babasından.
Yenə bir gün
Kitab üçün.
Ah,
Yenə də
Dondurmaya
Xərcləndi pul.
Kitab qaldı

Mağazada.
İncimişdi
Mağaza da...
"Belə olmaz,
Gözəl oğul..."

Bir gün...
Şişdi
Boğazı da.
Su keçmədi
Boğazından.
Həkim gəldi,
Dərman gəldi,
Üst - üstündən
Yaman gəldi.
Həkim dedi:
- Ay oğul,
Sən,
Dondurmanı
Daha az - az
Yeməlisən.
Boğazını
Qoru, bala.
Kitab oxu,
Yazını yaz.
Dərslərindən
Qalma dala.
Bu gün gözəl
Bir səhərdir.
Oğlan gedir
Küçə ilə -
Birtəhərdir...

Məktəbə lap
Az qalmışdı.
Boğazı da
Sağalmışdır.
Cibində də
Pulu vardı.
Ona baxıb
"Gəl, gəl" - deyən
Mürəbbəli
Dondurmadı...
"Yox" - söylədi
Oğlan
Bu an.
- Yeməyəcəm,
Dondurma,
A dondurma.
Sən mənə
Acıq gəlib
Yandırma.
Xərcləmərəm
Sənə pul
Arxayın ol!
Arxayın ol!
Dözümlüyəm,
Kişiyəm mən.
Bil ki, atam
Kimiyəm mən.
Söz vermişəm,
Dözürəm bax...
Bu gördüyün
Deyil uşaq.

Özünü çox
Öydü oğlan.
Söz verdimi
Əməl edər
Kişi olan.

Dedi: - Mən ki,
Qəhrəmanam.
Dondurmayla
Yoxdur aram.
Qoy mükafat
Olsun mənə.
Yeyəcəyəm
Bircə dənə.
Öz - özünə
Mızıldandı:
“Yemirəm ha,
Baxım görüm
Nə təhərdir
Onun dadı...
Sabah allam
Kitab qalsın.
Kim oxuyur
O da alsın...

Bir dondurma
Üç dondurma
Doydurmur ki,
Bu dondurma...
Beş - on oldu,
On - on iki

Oğlan,
Oğlan
Düz gətirmir
Heç səninki...
Yenə şişdi
Boğazın da.
Yemək keçməz
Boğazından.

Bu, pis oldu...
Bu pis oldu...
Bunlar sənə
Heç yaraşır
Dondurmayla
Dostlaşırsan,
Kitab sənlə
Vidalaşır...

## ACGÖZ TACİRLƏRİN NAĞILI

Bu nağılı atamdan
Eşitmişəm bir zaman.
Eşitmişəm danışam
Onu sizə hər zaman.
Qulaq asın, uşaqlar,
Onu sizə söyləyim.
Xoşunuza gələrsə
Dostunuza söyləyin.

Uzaq - uzaq keçmişdə
İki tacir yaşardı.
Onların var - dövləti
Başlarından aşardı.
Şəhərləri, kəndləri
Gəzib - dolaşırdılar.
Daş - qaşların dalınca,
Tirmə şallar alınca
Keçib susuz səhralar
Uca dağ aşardılar.
Onlar fikir vermirdi
Günəş çıxır, ay çıxır,
Dəniz coşur, ay çıxır.
            çay axır...
Onlar bircə şey bilir:
O da alıb - verməkdir.
Başqa nə var - onlarçün

Bir ötəri küləkdir.
Onlar biri - birilə
Gələn zaman üz - üzə
"Əziz yoldaş, - deyərdi,
Uğur olsun, çox qazan.
Doğma qardaş deyərdi,
Ürəkdəsə tacirlər
Paxıllıqdan yanardı.
"Yolun düşsün yağmura,
Xurcunun deşik olsun".
Söyləyərək hər zaman
Allaha yalvarardı...

Bir gün uzaq səfərə
Yola düşmüşdü onlar.
Qızmar, susuz səhradan
Keçib - gedirdi yollar.
Hərəsinin altında
Susuz yanan bir eşşək.
Günəş yandırıb - yaxır,
Od kimi əsir külək.

Səhrada yox bir adam,
Kölgə salan bir ağac.
Qumun, günün altında
Mürgüləyir yal - yamac.
Tükənmişdi suları,
Çörəkləri yox idi.
Köməyə də gələn yox,
Oğulsansa döz indi.
Yeriməyir eşşəklər
Kara gəlmir xurcunlar.

Hər eşşəyin belində
Daş - qaş dolu xurcun var.
Bu acgöz tacirlərin
Biri əldən düşmüşdü.
Eşşəyinin belində
Oturub büzüşmüşdü.
Addım atmır eşşəyi,
Tərpənmir ki, tərpənmir.
Hey yalvarır eşşəyə
- Canım - gözüm, tərpən bir...
Ona yoldaş söyləyən,
Doğma qardaş söyləyən
Tacir dedi:
- Dostum, gəl
Eşşəyini mənə sat.
Xurcununu başının
Altda qoyub rahat yat.
İndi daha neyləyək,
Dərdi kimə söyləyək?
Bu yaramaz eşşəyə,
Bu yeriməz eşşəyə,
Beş yüz manat verirəm.
Sənə qanad verirəm.
Çox düşünmə, a tacir,
Beş yüz manat az deyil.
- Yaxşı, - dedi bu tacir,
Beş yüz azdır, düşün bir,
Min manat ver, a qardaş,
Səninkidir eşşəyim,
Sən dostumsan, neyləyim...
Yoxsa onu satmazdım,
Bu səhrada yatmazdım.

Min manatı sayaraq
Ona verdi sevincək.
Dedi:
- İndi zəhmət çək,
Eşşəyimdən düş görək.
Eşşəyimin belindən
Xurcunu da götür sən.
Bu eşşək də mənimdir,
Yüzlükləri görmürsən?

Tacir iki eşşəklə
Durub yola düzəldi.
Dostu qaldı səhrada,
Onun üçün gözəldi...
Bir az gedib dayandı,
Arxasına boylandı.
Gördü dostu qalıb tək
Əsir quru ağac tək.
Tez geriyə döndü o,
Gülə - gülə dindi o.
İnsaf deyil səhrada
Səni tənha buraxmaq.
Burda qalsan ölərsən,
Nə deyirəm ona bax:
İki min ver, eşşəyi
Satım sənin özünə.
Lazım olar yoluna,
Qüvvət gələr dizinə...
Gör nə dedi bu tacir:
- Əziz qardaş, dayan bir
Eşşəyimə min manat
Vermədinmi indi sən?

İstəyirsən iki min
Necə verim onu mən?..
Öz malımı alaraq
Özümə də satırsan.
Mayama su qatırsan,
Mayana su qatırsan...
O dedi, bu dedi,
Bu dedi, o dedi.
İki min manatdan
Qəpik də enmədi...
Kişinin eşşəyini
Alıb - satdı özünə.
- Axı, əziz yoldaşıq,
Biz ayrılmaz qardaşıq
Söylədi də özünə...
Onlar yola düzəldi,
Şəhərlərə çatdılar.
Nə dedilər aldılar,
Nə dedilər satdılar.
Üzdən biri - birinə
Yoldaş, qardaş dedilər.
Paxıllıqdan ürəkdə
Özlərini yedilər.

O tacirlər gəzirlər
Yenə də dünyanı.
Aldanma ha, onlara
Acgözü yaxşı tanı...

## KİTABIN İÇİNDƏKİLƏR

**ZAHID XƏLILIN**
**HƏYATI VƏ YARADICILIĞI**...........................................................3

**UŞAQ ŞEIRLƏRI...**.................................................................................34
**BUNLAR DA**

**KI NAĞILDI...........**.................................................................................226

**RUS ŞAIRLƏRINDƏN**
**SEÇMƏLƏR**...........................................................................................298